www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu  Gündəlik qəzet  3 oktyabr 2014-cü il  Cümə  № 246 (5955)  Qiyməti 40 qəpik

## Xəbər

### Bakıda ata və oğul güllələndi

yazısı səh.2-də

## Gündəm

### Elmar Məmmədyarov AŞ PA-da çətin suallar qarşısında



Nazirdən repressiyaların, siyasi həbslərin səbəblərini soruşdular; XİN başçısı ilə avropalı deputatlar arasında ilginc polemika yaşandı

yazısı səh.2-də

### Müsavatda seçki qalmaqalı böyüyür

Məclis seçkisinə ittihamlar var

yazısı səh.6-da

### "Azərbaycana qarşı işğalçılıq siyasəti aparılır"

Prezident İlham Əliyev IV Bakı Beynəlxalq Humanitar Forumunda Qarabağ mesajları verdi

yazısı səh.9-da

### KXCP Milli Şuranın mitinqindən xəbərsizdir

Hafiz Hacıyev mitinqdə bıçaqlaşma olacağı, qan töküləcəyini dedi

yazısı səh.4-də

### "Qərb heç vaxt Ermənistanla qarşıdurmaya getməyəcək"

Tanınmış rusiyalı politoloq Qarabağ probleminin həllini Moskvadan gözləməyin əleyhinədir

yazısı səh.8-də

### NİDA-çıların ərizəsindən sonra gənc fəala təzyiqlər başlayıb

Orxan Əyyubzadə məktub göndərib; məhbusun məhkəməsi oktyabrın 9-na təxirə salınıb...

yazısı səh.2-də

### AŞ PA-nın Dağlıq Qarabağ üzrə məruzəçi təyin etməsi nəyi dəyişəcək?

yazısı səh.9-da

### Vurğun Əyyubdan Vaqif Hacıbəyliyə ağır sözlər

yazısı səh.4-də

### Cəmil Həsənlinin qızı qəza törədib

DİN hadisə ilə bağlı açıqlama yaydı

yazısı səh.3-də

### Ölüm hökmü bərpa olunsunmu?

yazısı səh.15-də

### Xədicə İsmayıl həbs oluna bilər?

yazısı səh.3-də

## 7 qohumunu öldürən cinayətkarın valideynindən şok açıqlamalar

# "GORANBOY QATİLİ"NİN ATASI DANIŞDI

Müzəffər Hüseynov "Yeni Müsavat"a müsahibəsində oğlunun qanlı cinayətə əl atmasının səbəblərini açıqladı: "Qayınanasına dedi ki, qızınla başdaşını bir qoyacağam"; Səfikürd əhalisi isə olayı ADNA terroru ilə müqayisə edir...



Müzəffər Hüseynov

yazısı səh.10-da

## Dərbəndin azərbaycanlı icra başçısının həbsində "Milyarderlər İttifaqı" izi

Vəzifədən çıxarılaraq həbs edilən Dağıstan azərbaycanlıları klanının rəhbərinin vurulmasının arxasındakı səbəblər...

yazısı səh.11-də



*Zahid Oruc:*

### "Bizi anti-Rusiya blokuna qoşmaq istəyirlər"

yazısı səh.11-də



### Əli Kərimli müsavatçıları qəzəbləndirdi

yazısı səh.7-də



### Xaricdən qrant alan QHT rəhbərləri Əli Hüseynliyə cavab verdi

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 246 (5955) 3 oktyabr 2014



## İSESCO-nun baş direktoru Mehriban Əliyeva ilə görüşdü

**Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva İSESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri ilə görüşüb. APA-nın fondun rəsmi saytına istinadən verdiyi məlumata görə, Əbdüləziz bin Osman əl-Tüveycriyə IV Bakı Beynəlxalq Humanitar Forumunda iştirakına görə minnətdarlığını bildirən Mehriban Əliyeva Heydər Əliyev Fondu ilə İSESCO-nun yaxından əməkdaşlıq etdiyini diqqətə çatdırıb.**

Forumda iştirak etməkdən məmnunluğunu bildirən Əbdüləziz bin Osman əl-Tüveycri də İSESCO ilə Heydər Əliyev Fondunun birlikdə uğurlu layihələr həyata keçirdiyini deyib. Baş direktor İSESCO-nun irəli sürdüyü təşəbbüsləri dəstəklədiyinə görə Mehriban Əliyevaya minnətdarlığını bildirib.

Söhbət zamanı Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyətindən də danışılıb.

## Azərbaycan Fransaya nota verdi

**Fransa Milli Assambleyasının üzvü Fransua Roşbluanın Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinə səfəri və 23-26 sentyabr tarixlərində Parisdə keçirilmiş beynəlxalq turizm sərgisində Ermənistana aid pavilyonda qondarma Dağlıq Qarabağ rejiminin də təmsil olunması ilə əlaqədar Azərbaycan Respublikasının Fransadakı səfirliyi tərəfindən Fransanın Xarici İşlər Nazirliyi, Fransa Milli Assambleyası və turizm sərgisinin təşkilatçısı olan şirkətə müvafiq olaraq etiraz notası və məktubları göndərilib. Bu barədə APA-ya Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri vəzifəsini icra edən Hikmət Hacıyev məlumat verib.**

H. Hacıyev bildirib ki, Fransa prezidenti Fransua Ollandın təşəbbüsü ilə bu ilin oktyabr ayının sonunda Fransada Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün keçirilməsi ərəfəsində Ermənistan, Fransadakı erməni diasporu və onun bilavasitə təsiri altında olan Fransua Roşbluan kimi şəxslər tərəfindən məqsədyönlü şəkildə belə qeyri-qanuni əməllərə yol verilməsi ilk növbədə Fransaya qarşı törədilmiş təxribatçılıq cəhdidir: "Ermənistan və Fransadakı erməni diasporunun təsiri altında olan və şovinist və irqçi baxışlara malik Fransua Roşbluan Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində Ermənistan tərəfindən yaradılmış qondarma rejimlə qurduğu təmaslarla separatizm, etnik təmizləmə, insanlığa qarşı cinayətlər, işğal və təcavüzün təşviqinə rəvac verir".

TURKSAT
CAN ERZİNCAN
AzadliqRadiosuTV (ARTV)
hər cümə: 21:00 - 21:45
«Fərqli xəbərlər»
Peyk: TürkSat 42°, 1c
Kanal: CanErzincan
Tezlik: 11.509
Sürət: 30.000
Pol: H
Bu İnternet TV deyil, əsl televiziyadır!
http://AzadliqRadiosu.az
em@il efir@AzadliqRadiosu.az
facebook /AzadliqRadiosu
YouTube /AzadliqRadiosu
twitter /RadioAzadliq
Qaynar xətt: 012/436-77-41

# Elmar Məmmədyarov AŞ PA-da çətin suallar qarşısında

### Nazirdən repressiyaların, siyasi həbslərin səbəblərini soruşdular

**Oktyabrın 2-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Strasburqda AŞ PA-nın payız sessiyasında çıxış edib. Onun çıxışı Azərbaycanın Avropa Şurası Nazirlər Komitəsinə sədrliyi ilə bağlıdır.**



Elmar Məmmədyarov çıxışa başlayan kimi zalda etiraz səsləri eşidilib. AŞ PA prezidenti Ann Brassör zalda sakitliyə çağırıb.

Elmar Məmmədyarov çıxışında insan haqları pozuntularına dair beynəlxalq tənqidlərə cavab verməyib, ancaq ölkədə fundamental azadlıqların necə qorunmasından danışıb.

"Sizi əmin edirəm ki, gələn ay sədrliyimiz başa çatandan sonra əməkdaşlığı davam etdirəcəyik" - o deyib.

"İnternetə hər hansı qadağa, sui-istifadə halları yoxdur" - nazir əlavə edib.

İspaniyadan olan deputat Pedro Agramunt iyulda Dağlıq Qarabağda nə baş verdiyini, Rusiyanın həmin əraziyə əsgər göndərib-göndərmədiyini soruşub.

**E. Məmmədyarov bu suala cavabında Dağlıq Qarabağ münaqişəsinin tarixindən danışmağa başlayıb:** "Bildiyimiz odur ki, Ermənistan qüvvələri geri çəkilməlidir. Davamlı inkişaf barədə danışırıqsa, işğal, bir ölkənin digərinin ərazisini işğal etməsi baş verməməlidir. Qaçqınlar öz vətənlərinə qayıtmalıdır".

Rusiyanın Krımı anneksiya etməsinə dair suala cavabında Məmmədyarov Rusiyanın Ukraynanı işğal etdiyini birmənalı deməyib.

Deputat Tini Kox soruşub ki, Azərbaycan prezidenti İlham Əliyevin insan haqlarına dair dəyirmi masa keçirmək təklifindən sonra niyə yalnız həbslər artıb və niyə bu müzakirənin keçirilməsi üzrə iş yubanır?

Nazir bunu yay tətilləri ilə izah edib. O, Bakıda iki gün Qurban bayramı olduğunu, gələn həftədən bu məsələ barədə işə başlanacağını deyib.

"SMDT rəhbəri Anar Məmmədliyə Vatslav Havel mükafatının verilməsi AŞ PA-nın hüququdur" - deyə Elmar Məmmədyarov bildirib.

QHT-lərlə bağlı suala cavabında E. Məmmədyarov deyib ki, çox az sayda QHT fəaliyyətində şəffaflıq qaydalarına riayət edir. Qanunvericiliyə dəyişikliklər də hesabatlılığın artırılmasına görədir.

Hakimiyyətin tənqidçilərini susdurması, tənqidə dözümlülük barədə suala cavabında E. Məmmədyarov deyib ki, müxalifət qəzetləri onun ailəsindən yazır, ancaq o, bütün bunlara dözümlü yanaşır.

**Deputatlardan biri siyasi məhbuslarla bağlı sual verib:** ""Amnesty İnternational" Azərbaycanda 20-dən çox vicdan məhbusunun olduğunu deyir. Siz də prezidentinizin yay sessiyasında dediyi kimi düşünürsünüz ki, Azərbaycanda siyasi məhbus yoxdur?"

**E.Məmmədyarovun bu suala cavabı qısa olub:** "Siz elə cavabı da verdiniz. AŞ PA siyasi məhbus anlayışının tərifini verib. Həmin tərifə görə, Azərbaycanda siyasi məhbus yoxdur. Başqa cavab hipotetik olardı. Təşəkkür edirəm".

İrlandiyalı deputat Maykl Maknamara Leyla Yunus, Rəsul Cəfərov, İntiqam Əliyev və digərlərinin həbsinin Avropa Şurasının nüfuzuna necə təsir etdiyini soruşub.

**E.Məmmədyarov deyib:** "Cənab Maknamara, biz bu məsələ barədə Bakıda da danışdıq. Sizin və mənim mövqeyim fərqlidir. Siz öz mövqeyinizdə qalın, mən də öz mövqeyimdə. Vəssalam".

❑ **azadliq.org**

## Bakıda ata və oğul güllələndi

**Bakıda silahlı insident baş verib. Binəqədi Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə Dərnəgül qəsəbəsində, məcburi köçkünlərin məskunlaşdığı yataqxanada qeydə alınıb.**

Ağdam rayonundan məcburi köçkün düşən 1973-cü il təvəllüdlü Hicran İbrahim oğlu Səfərov aralarında yaranan münaqişə zəminində özünə məxsus ov tüfəngi ilə həmyerlisi 1958-ci il təvəllüdlü Rövşən Savalan oğlu Əliyevə və onun oğlu 1998-ci il təvəllüdlü Ayxan Savalanlıya atəş açıb.

Silahlı insident zamanı xəsarət alan ata və oğlu müxtəlif bədən xəsarətləri ilə Kliniki Tibbi Mərkəzə yerləşdirilib.

Hadisəni törədən H. Səfərov tutulub.

Binəqədi Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisəyə qan düşmənçiliyi səbəb olub.

Belə ki, iki ay əvvəl hadisəni törədən Hicran Səfərovun oğlu insident zamanı yaralanan Ayxan Savalanlı tərəfindən bıçaqlanıb. A. Savalanlı azyaşlı olduğu üçün həbs edilməyib. H. Səfərov isə oğlunun intiqamını almaq məqsədilə qanuni ov tüfəngi alıb və qisas məqsədi ilə Rövşən Əliyevi və onun oğlu A. Savalanlını güllələyib.

Faktla bağlı araşdırmalar aparılır.

## Kəlbəcərdə ermənilərin öldürdüyü Həsən Həsənovun meyiti qaytarıldı



**Kəlbəcərdə ermənilər tərəfindən öldürülən Həsən Həsənovun meyiti geri qaytarılıb. APA-nın Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının saytına istinadən verdiyi məlumata görə, komissiyanın aidiyyəti beynəlxalq təşkilatlarla apardığı səmərəli danışıqlar nəticəsində Azərbaycan Respublikasının Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmiş Kəlbəcər rayonu ərazisində işğalçı ordunun hərbçiləri tərəfindən 11 iyul 2014-cü il tarixdə qətlə yetirilmiş Azərbaycan Respublikasının vətəndaşı, 1978-ci il təvəllüdlü Həsənov Həsən Fərman oğlunun nəşi 2 oktyabr 2014-cü il tarixdə qarşı tərəfdən alınıb.**

İnsidentsiz başa çatan proses Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Müdafiə Nazirliyi tərəfindən, Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə həyata keçirilib.

Xatırladaq ki, Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülüblər, digər Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülüb.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

## NİDA-çıların ərizəsindən sonra gənc fəala təzyiqlər başlayıb

### Orxan Əyyubzadə məktub göndərib; məhbusun məhkəməsi oktyabrın 9-na təxirə salınıb...

**Oktyabrın 2-də Binəqədi Rayon Məhkəməsində gənc siyasi məhbus Orxan Əyyubzadənin növbəti məhkəmə prosesi keçirilib. Prosesdə fəalın yaxınları və müsavatçı gənclər iştirak ediblər.**

Şahid Taleh Rzaxanov məhkəməyə gəlmədiyindən hakim prosesin oktyabrın 9-u saat 12:00-a təxirə salınması haqqında qərar çıxarıb. Bu barədə musavat.com-a müdafiə tərəfinin şahidi Tural Abbaslı məlumat verib: "Şahid Taleh Rzaxanov məhkəməyə gəlməmişdi. Bu səbəbdən proses təxirə salındı. Məhkəməyə Orxanın valideynləri, müsavatçı gənclər gəlmişdilər. Zərərçəkənlər də iştirak edirdi. Orxanın özü də məhkəmədə iştirak edirdi".

**Tural Abbaslı Orxan Əyyubzadənin təcridxanada təzyiqlərə məruz qaldığını bildirib:** "Məhkəmədəki fasilə zamanı Orxanla söhbət etdik. O, son vaxtlarda təcridxanada ona qarşı münasibətin mənfiyə dəyişildiyini söylədi. Qeyd etdi ki, ona və kamera yoldaşlarına qarşı təzyiqlər başlayıb. Xüsusilə NİDA-çıların əfv ərizəsi yazmasından sonra".

**Gənc fəal yaxınları vasitəsilə məktub göndərib:** "Salam dostlar, hər şey yaxşıdır. Siyasi məhbus həyatı yaşamaq çətin olsa da qürurvericidi. Üzümə duran şərəfdən xəbərsizləri qınamayın. Onlar da göstərişlərə əməl edirlər. NİDA-çıların yazdığı əfv ərizəsindən sonra mənim kameramı ciddi rejimə salıblar. Müsavat Partiyasından mənə dəstək olan, yad edən hər kəsə təşəkkürümü bildirirəm. Ümumiyyətlə, hər şey əladır. Səhhətimdə bir az problem var. Qismət olsa, azadlıqda görüşərik".

Qeyd edək ki, Orxan Əyyubzadə bu il mayın 6-da NİDA-çılara oxunan hökmə etiraz etdiyinə görə Bakı Ağır Cinayətlər Məhkəməsinin önündə həbs edilərək, 20 sutka inzibati həbs cəzası alıb. Lakin mayın 26-da cəza müddəti bitən gənc fəal azadlığa buraxılmamışdı. Binəqədi Rayon Məhkəməsinə aparılaraq, barəsində 315.1 maddəsi ilə (hakimiyyət nümayəndəsinə müqavimət göstərmə) cinayət işi açılmışdı. İyunun 25-də həbs-qətimkan tədbirinin müddəti başa çatan gənc fəalın həbs müddəti daha bir ay uzadılmışdı.

Orxan Əyyubzadəni ona qarşı irəli sürülən ittiham üzrə 1 ildən 3 ilə qədər azadlıqdan məhrumetmə cəzası gözləyir.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, (012) 434 01 33



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



Zülfüqar Mikayılzadə



Elçin Manafov

## Dindarlardan "AAAF-İnşaat"la əlaqələri haqda məlumatlara reaksiya

### Onlar Tofiq Heydərovla münasibətləri haqda mətbuata göndərilən xəbərlərin doğru olmadığını bildirdilər

**Oktyabrın 1-də bir sıra mətbuat orqanlarına "AAAF-İnşaat" MMC-nin rəhbəri Tofiq Heydərovun fəaliyyəti və onun Xırdalanda inşa etdirdiyi "AAAF Park" yaşayış kompleksində baş verənlərlə bağlı məlumatlar göndərilmişdi. "Yeni Müsavat"a da daxil olan məlumatlar əsasında dünənki sayımızda "AAAF-İnşaat" MMC-nin rəhbəri haqda yeni şok faktlar" başlıqlı yazı dərc etmişdik. Həmin yazıda adları keçən dindarlar redaksiyamızla əlaqə saxlayaraq məqalədə onlarla bağlı öz əksini tapan məqamlara dair mövqelərini bildiriblər. Yazıda adı keçən ilahiyyatçı Zülfüqar Mikayılzadə bunları deyib:**

"Əvvəla, onu qeyd edim ki, Tofiq Heydərovun vəhhabiliklə heç bir əlaqəsi yoxdur. O, şiə əqidəsinə malik olan bir şəxsdir. Bir yerli kimi mənim Tofiq Heydərovla əlaqəm olub, var və bundan sonra da olacaq. Şəxsən özüm onunla məsciddə namaz qılmışam və onun hansı əqidəyə malik olduğuna da şahidəm. Vəhhabi damğasını ona vurmaq ədalətsizlikdir.

Qaldı ki, guya mən ondan 1 milyon dollar dəyərində xüms alaraq hansısa mitinq təşkil etmişəm və 2015-ci ilin parlament seçkilərində nəsə planlaşdıraraq bu pulları ora xərcləmişəm, bu, açıq-aydın yalandır. Bizim onunla heç bir maliyyə, xüms və bu kimi işlərə görə nə söhbətimiz, nə də ki, görüşümüz olub.

Qaldı ki, onunla görüşməyimizə, bəli, nə vaxt ki, mən yaşayış kompleksinə getmişəm, o zaman onunla görüşmüşəm. Bundan başqa bizim heç bir mütəmadi görüşümüz baş tutmayıb.

Ev məsələsinə gəldikdə, bəli, mənim də bir çoxları kimi həmin yaşayış kompleksində evim var. Lakin bunu mənə Tofiq Heydərov pay verməyib, özüm almışam. Əgər kiməsə maraqlıdırsa, qəbzləri də göstərə bilərəm".

**Yazıda adıçəkilən Azərbaycan İslam Partiyasının sədr əvəzi Elçin Manafov isə bunları bildirib:** "Oktyabrın 2-də qəzetdə dərc olunmuş "AAAF-İnşaat" MMC-nin rəhbəri haqda yeni şok faktlar" yazısında həqiqətə uyğun olmayan faktlar əksini tapıb. Mənim adımın hallandırılması və barəmdə yazılanlar bütünlüklə uydurma və böhtan üzərində qurulub. Məqalədə mənimlə bağlı qeyd olunan məsələlərə görə öz şərəf və ləyaqətimin təhqir olunduğunu düşünür və sizdən bu barədə təkzib verilməsini tələb edirəm. Bu yazıda "KİV haqqında" Qanun təhrif olunub və faktlar birtərəfli şəkildə əksini tapıb. Məndən bu haqda münasibət öyrənilməyib. Təkzib verilməsə və üzr istənilməsə, məsələni məhkəmə müstəvisində həll etmək məcburiyyətindəyik".

**Redaksiya qeydi:** Əgər bilmədən və istəmədən bu məqalədə kimlərisə incitmişiksə, üzürxahlığımızı bildiririk.

❑ **T.HƏSƏNLİ**

# Xədicə İsmayıl həbs oluna bilər?

## Mehman Əliyev: "Son hadisələr göstərdi ki, hər şey mümkündür"

**Araşdırmaçı jurnalist Xədicə İsmayılla bayraqdar Elman Türkoğlu arasındakı məsələ hüquqi müstəvidən siyasi gündəmə keçməkdədir. Hazırda Strasburqda Avropa Şurası Parlament Assambleyasının üzvləri ilə görüşdə olan Xədicə İsmayıl AzadlıqRadiosuna açıqlamasında bildirib ki, Azərbaycana qayıdanda həbslə üzləşəcək:**

"Mənə xəbərdarlıq olunub ki, səfərdən qayıdanda həbslə üzləşəcəm və ola bilsin ki, bu, mənə xəbərdarlığın başqa üsuludur. Mən düşünürəm ki, onlar ya istəyirlər ki, mən Azərbaycana qayıtmayam ya da qorxam, Azərbaycandakı işlər barədə sakit duram".

Xatırladaq ki, X.İsmayıl əleyhinə cinayət işi onun sosial mediada yaydığı bir sənədlə bağlıdır. E. Türkoğlu bu sənədin saxta olduğunu iddia edərək, orada təhqirə, böhtana məruz qaldığını bildirib və məhkəməyə müraciət edib.



Xədicə İsmayıl

**X.İsmayıl deyib ki, o, məhkəmədən yayınmır:** "Mən səbirsizliklə qayıtmağımı gözləyirəm. Mən Bakıya qayıdacağam. Çünki Bakı mənim evimdir. Mən heç kimə imkan verməyəm ki, məni evimdən bayıra atsın".

**X.İsmayıl E. Türkoğlunun əleyhinə mətbuatda hər hansı fikir səsləndirməsə də, qarşı tərəf sia.az saytına açıqlamasında daha da irəli gedərək Xədicə İsmayılın erməni əsilli olduğunu iddia edib:** "Xədicə İsmayıl ata tərəfdən deyil, ana tərəfdən ermənidir. Amma buna baxmayaraq, onun həqiqi soyadı İsmayılyandır. Çünki onun damarında erməni qanı axır. O, Azərbaycan jurnalistikasının ən pozğun əməkdaşı və üz qarasıdır".

Bəs görəsən, Xədicə İsmayıl, özünün dediyi kimi, həbs olunacaqmı?

"Yeni Müsavat" bu məsələni ekspertlərlə müzakirə edib.

**Politoloq Ərəstun Oruclu bildirdi ki, əgər bu məsələ E. Türkoğlunun müraciəti ilə bağlıdırsa, həmin sənəd yayıldıqdan bir neçə ay sonra gündəmə gəlməsi bunun daha çox siyasi məsələ olduğunu düşünməyə əsas verir:** "Bilirsiniz ki, son zamanlar siyasi məhbuslar məsələsi aktualdır və onların hüquqlarının müdafiəsi istiqamətində Xədicə İsmayıl çox işlər görür. Bu, hakimiyyəti ciddi şəkildə qıcıqlandırır, xüsusən də Anar Məmmədliyə Havel Mükafatının verilməsi, bundan sonra isə Rəsul Cəfərovun yeni bir mükafata təqdim olunmasını da nəzərə alsaq, ola bilsin ki, Xədicə İsmayılı həbs etməklə hakimiyyət çalışır ki, maksimal dərəcədə beynəlxalq aləmə çıxışı məhdudlaşdırsın. Mən Xədicə İsmayılın həbs olunacağını düşünmürəm. Ancaq Elman Türkoğlunun sənəd yayılandan bir neçə ay sonra məhkəməyə müraciət etməsi müəyyən fikirlər üçün əsas yaradır. Ancaq həbs üçün əsas yoxdur, məhkəmə qərarı hələ ki yoxdur, Elman Türkoğlunun iddiası sübuta yetirilməyib".

X.İsmayılın həbs olunacağı ilə bağlı xəbərdarlıq aldığına gəlincə, Ə. Oruclu deyib ki, onu hədələməklə ölkəyə gəlməsinə əngəl yaratmaq istəyən şəxslər var, ancaq o bildirib ki, ölkəyə qayıdacaq.

**"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev X. İsmayılın həbsinin gözlənilən olduğunu bildirdi:** "Ölkədə gedən proseslər, həbslər onu göstərir ki, hər şey ola bilər və buna görə də Xədicə İsmayılın həbsi mümkündür. Ancaq əgər özü gəlməyə qərar veribsə, görünür, nəticələri də nəzərə alıb. Əgər ona həbslə bağlı hər hansı xəbərdarlıq göndərilibsə, deməli, Azərbaycanda elə dairələr var ki, məhkəmə qərarı olmadan da həbs edə bilərlər".

**E.Türkoğlunun məhkəməyə müraciət etməsinə gəlincə, M. Əliyev bildirdi ki, əgər belə bir problem var idisə, məhkəməyə müraciət etməzdən öncə vasitəçilərin, ziyalıların köməyi ilə bu məsələ həll oluna bilərdi və prinsipcə, bu cür məsələlər belə həll edilməlidir:** "Jurnalisti məhkəməyə vermək sonuncu mərhələdir. Ona qədər bu problemi müzakirə yolu ilə həll eləmək olar. Əslində bu, Mətbuat Şurasının vəzifələrindən biri idi. Ancaq indi Azərbaycanda bu işləmir. Əgər buna cəhd olmayıbsa, mən bunu qərəzli hesab edirəm".

**Bu məsələnin X. İsmayılın həbsinə bir bəhanə olduğunu deyən M. Əliyev qeyd etdi ki, X. İsmayıl icitmai fiqurdur, veriliş aparıcısıdır və həmin verilişdə hər gün nə qədər insanın maraqlarına toxunur:** "Buna görə də onun əleyhinə hər hansı kampaniya təşkil etmək elə də çətin iş deyil. Hakimiyyətin bu məsələdə kifayət qədər imkanları var və biz belə kampaniyaların nəticəsinin dəfələrlə şahidi olmuşuq".

❑ **Nərgiz LİFTİYEVA**

# Cəmil Həsənlinin qızı qəza törədib

## DİN hadisə ilə bağlı açıqlama yaydı

**Milli Şuranın sədri Cəmil Həsənlinin qızı Günel Həsənlinin yol qəzası törətməsi barədə məlumat yayılıb. "Trend"in məlumatına görə, Günel Həsənli təxminən 10 gün bundan əvvəl günorta vaxtı Yasamal rayonu ərazisində "KİA" markalı avtomobili idarə edərkən yolu keçən 86 yaşlı qadını vurub.**

O, vurduğu qadını xəstəxanaya aparsa da, məsuliyyətdən yayınmağa cəhd edib və qadının yolda yıxıldığını görüb xəstəxanaya gətirdiyini bildirib. Lakin bununla bağlı hüquq-mühafizə orqanlarına məlumat daxil olduqdan sonra məsələ araşdırılıb. Məlum olub ki, əslində Günel Həsənli tərəfindən yol-nəqliyyat hadisəsi törədilib və nəticədə 86 yaşlı qadın ağır bədən xəsarəti alıb.

C.Həsənli isə hafta.az-a açıqlamasında qızının maşınla adam vurmadığını deyib. Onun sözlərinə görə, bu barədə kim nə deyirsə, yalan deyir. C.Həsənli həmçinin bildirib ki, bu haqda yazılanlar həqiqəti əks etdirmir: "Elə bir şey yoxdur. Yazanda görmürlər ki, nə yazırlar?"

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəisi Ehsan Zahidov isə hafta.az-a bildirib ki, Cəmil Həsənlinin qızı dindirilmə zamanı özü hadisə törətdiyini etiraf edib.

**E.Zahidov qeyd edib ki, polisə 10 gün əvvəl baş vermiş hadisə ilə bağlı əməliyyat məlumatı daxil olub:**

"Məlumatda bildirilib ki, bu il sentyabrın 19-da saat 14:30 radələrində yol-nəqliyyat hadisəsi baş verib. Hadisə zamanı sürücü Günel Həsənli 86 yaşlı piyada Ədilə Səlimovanı maşınla vurub. Polis araşdırması zamanı məlum olub ki, bu qəza hüquq-mühafizə orqanlarından sürücü və piyada tərəfindən gizlədilib. Qəza törədən sürücü piyadını həkimə aparanda orada da yalan danışıb. Həkimə deyiblər ki, qadın yıxılıb və bunlar da müayinəyə gəliblər. Lakin əməliyyatçılar bu yalanı ortaya çıxarıblar. 86 yaşlı Ədilə Səlimova və qəza törədən sürücü hər ikisi etiraf edib ki, belə bir qəza olub və onlar bunu hüquq-mühafizə orqanlarından saxlayıblar, həkimə yalan danışıblar".



Cəmil Həsənli

**E.Zahidov onu da qeyd etdi ki, həmişə obyektivlikdən danışan insanların indi bu hadisəni nədən gizlətməsini başa düşmür:**

"Axı burada nə var ki, hadisə baş verib. Bu cür hər gün onlarla hadisə baş verir. İnsanlar da qanunla müəyyən edilmiş cəzalarını alırlar. İndi təhqiqat aparılır və yeqin ki, araşdırmanın rəsmi nəticəsi yaxın günlərdə elan ediləcək".


Vurğun Əyyub


Vaqif Hacıbəyli

# Vurğun Əyyubdan Vaqif Hacıbəyliyə sərt ittihamlar

## "Onun tərbiyəsində ciddi problemlər var"

**Müsavat Partiyasının qurultayından bir həftəyə yaxın vaxt keçməsinə baxmayaraq, əsas seçkili orqan olan başqanlıq seçkiləri ilə bağlı yaranan narazılıq sənqiməк bilmir. Qalib və məğlub namizədlərin tərəfdarları arasında sosial şəbəkələrdə baş verən söz savaşı artmaqdadır. Artıq bu savaşa tanınmış partiya funksionerləri də qoşulub.**

Başqanlığa keçmiş namizəd Qubad İbadoğlunun APA-ya müsahibəsində işlətdiyi "Əhrar Partiyasında cəmi bir nəfər var" cümləsi yeni qalmaqalın əsasını qoyub.

Yeni seçilmiş başqan Arif Hacılının qardaşı, Əhrar Partiyasının sədri Vaqif Hacıbəyli də öz növbəsində facebookda yazdığı statusla Qubad İbadoğluna sərt cavab verib: "Tutaq ki, Əhrar Partiyasında bir nəfər var. Nə olsun? Harada tapsan ki, mən iki nəfərin olduğunu demişəm, onda deyərsən ki, yalan demişəm. Əhrar Partiyası ümumiyyətlə yoxdu, heç kağız üzərində də yoxdu. Başqa partiyaların möhürü var, bunun heç möhürü də yoxdur. Oldumu? Bitdimi? Rahatlanın".

**V.Hacıbəylinin statusunda əsas narazılıq doğuran Vurğun Əyyubla bağlı olan bu fikirlərdir:** "Mən 2003-cü ilin oktyabrında, hamının pərən-pərən düşdüyü o sitəmli günlərdə Müsavatı məhkəmədə təmsil edəndə, İsa Qəmbərin seçki qərargahına rəhbərlik edəndə, Müsavata qarşı yönələn hücumlara qarşı sipər olanda nə sən, nə də sənə ələkçinin qılvərənliyini edən Vurğun Əyyub üzə çıxmırdınız, qınınıza girmişdiniz. İndi sən mənə mənəviyyat dərsi keçəcəksən? Hansı haqla?"

**V.Əyyub medianews.az saytına açıqlamasında V. Hacıbəylinin xəstə olduğunu bildirib:** "Vaqif Hacıbəyli xəstə adamdır. Tərbiyəsində ciddi problemləri var. Xəstə olduğundan dediyi yalanları bağışlayıram. 2003-cü ili xatırlasa yəqin ki, doğru cavab verər. Səhv etmirəmsə, oktyabrın ya 19-u ya da 20-də müsavatçılarla birlikdə "Azadlıq" qəzetinin redaksiyasında idi. Onunla şəxsi münasibətimizdə heç bir problem olmayıb. Əgər başqanlıq seçkilərində Arif Hacılını dəstəkləsəydim, indi Vaqif Hacıbəylinin dilindən tamam başqa sözlər eşidərdiniz".

**V. Əyyub Müsavatdan istefa verəcəyi ilə bağlı dolaşan fikirlərə də aydınlıq gətirib:** "Nə qərar verdiyimizi hər kəs görəcək. Mən hazırda Müsavatın üzvü kimi fəaliyyət göstərirəm".

❑ Cavanşir ABBASLI

# KXCP Milli Şuranın mitinqindən xəbərsizdir

## Hafiz Hacıyev mitinqdə bıçaqlaşma olacağı, qan töküləcəyini dedi

**Milli Şura oktyabrın 12-nə təyin etdiyi mitinqə hazırlaşır. Lakin qurumda təmsil olunan aparıcı partiyalardan biri KXCP-nin bu mitinqə qoşulmayacağı gözlənilir. Bu qənaətə KXCP sədri Mirmahmud Mirəlioğlunun dünən verdiyi "KXCP Milli Şuranın oktyabrın 12-nə təyin etdiyi mitinqdən xəbərsizdir" açıqlamasından da gəlmək olar.**

KXCP Ali Məclisinin sədri Bəybala Əbil də APA-ya bildirib ki, Milli Şuranın mitinqi barədə məlumatı yoxdur. Onun sözlərinə görə, KXCP-nin mitinqdə iştirak məsələsi partiyanın İdarə Heyətində müzakirə olunduqdan sonra qərar veriləcək.

**KXCP sədrinin müavini Xəzər Teyyublu da bildirdi ki, Milli Şuranın mitinq qərarı verməsi ilə bağlı müzakirələrdə və qərarın verilməsində KXCP iştirak etməyib:** "Müzakirəsində və qərarlaşdırılmasında iştirak etmədiyimiz aksiyada iştirakımız hesab edirəm ki, normal olmaz. Lakin hər bir halda son qərarı partiyamızın İdarə Heyəti müzakirə edib verəcək".

Xatırladaq ki, KXCP rəhbərliyi son vaxtlar Milli Şuranın tədbirlərində iştirak etmir. KXCP sədrinin müavini Xəzər Teyyublu sentyabrın 28-də qurumdan istefa verib. KXCP sədri də faktiki olaraq artıq Milli Şuranın toplantılarına qatılmır.

Bu arada məlum olub ki, Hafiz Hacıyevin partiyası da Milli Şura ilə eyni yerə, eyni günə və eyni saata mitinq təyin edib.

**Hafiz Hacıyev ölkə.az-a açılamasında deyib ki, Milli Şuranın mitinq keçirəcəyini bilmirmiş:** "Biz bu qərarımızı bir müddət bundan əvvəl vermişdik. Avropa Parlamentinin Azərbaycan haqqında qəbul etdiyi sərsəm bir qərara etiraz əlaməti olaraq, o cümlədən Azərbaycanda xarici dövlətlərin əlaltıları olan bəzi partiyaların fəallaşmasına xalqa çatdırmaq məqsədilə mitinq keçirməyə qərar verdik. Çox təəssüf ki, Milli Şura bizim ideyamızı oğurladı. Onlar bizdən qabaq bu açıqlamaları verdilər, ancaq buna baxmayaraq, biz oktyabr ayının 12-də, saat 15.00-da, "Məhsul" stadionunda mitinqimizi keçirməkdə qərarlıyıq.

Milli Şurada 5-10 dənə qocalıb əldən düşmüş adam var, onların hər birinə 1-2 nəfər də əlavə adam lazımdır ki, qollarına girib aparsın, onlar da mitinq keçirsin. Biz öz qərarımızı vermişik. Qərarımızda da israrlıyıq. Məktubumuzu da hazırlayıb göndərmişik Bakı Şəhər İcra Hakimiyyətinə".

**H.Hacıyev Milli Şura üzvləri ilə mitinq meydanında qarşılacaqları halda qan töküləcəyini deyib:** "Bizim mitinqimizə gələnlər onlardan çox olacaq. Əgər ikimizə də icazə versələr, onlar mitinqi qoyub qaçmalı olacaqlar. Qarşıdurma baş versə, onun məsuliyyətini biz öz üzərimizə götürmürük. Bizim rayon təşkilatlarının üzvləri çox hiddətlidirlər, onlar mənə bildirdilər ki, əgər biz onlarla qarşılaşsaq bıçaq davasına çıxacağıq. Çox qorxulu bir vəziyyətdir. Ola bilər ki, biz onları dəyənəklə döyüb qovaladıq ordan. Əgər ikimizin də mitinqi eyni vaxtda olsa, o zaman orada qan su yerinə axacaq.

Milli Şura xaricdən qrantlar alır. Rəhbərləri bu qrantları silməyə görə bu oyunu çıxarırlar. Onların üzvlərinə, fəallarına üzümü tutub deyirəm ki, ölkədə qarışıqlıq yaratmayın, oturun yerinizdə. Yox, əgər onlar oturmaq istəməyəcəklərsə, döyülmək istəyirlərsə, Hafiz Hacıyevin partiyası ilə üz-üzə gələcəklər".

❑ E.SEYİDAĞA

# Müxalif partiyaların əksəriyyəti bələdiyyə seçkilərinə partiya kimi qatılmayacaq

## Üzvlərə fərdi şəkildə iştirak səlahiyyəti verilib

**Dekabrda keçiriləcək bələdiyyə seçkilərinə iki ay qalsa da, ölkədə seçki ab-havası yoxdur.**

Seçkilərlə bağlı partiyaların qərarlarından başqa heç bir addım atdıqları müşahidə edilmir. Hakim Yeni Azərbaycan Partiyasının ardınca srağagün AMİP bələdiyyə seçkilərində iştirak qərarı verib. Seçkilərə hazırlıq üçün partiyanın Siyasi Şura, Mərkəzi Şura üzvlərinin və partiya katiblərinin regionlara səfərləri nəzərdə tutulub.

Digər tanınmış müxalifət partiyalarının bələdiyyə seçkiləri ilə bağlı mövqeyini öyrəndik.

**ADP sədri Sərdar Cəlaloğlu** bildirdi ki, seçkilərə yalnız qələbə çalmaq və seçkidə hansısa ciddi dəyişikliyə nail olmaq fəlsəfəsi ilə yanaşılmamalıdır. Bu gün Azərbaycanda vəziyyət elədir ki, demokratik prosedurların mövcudluğu uğrunda mübarizə aparılmalıdır. Bunun da yeganə yolu ən azı formal olaraq həmin prosedurlarda iştirak eləməkdir: "Yəni biz demirik ki, bu saat seçkilərə böyük inamımız var, seçkilər ideal keçəcək, yaxşı nəticələri olacaq. Sadəcə olaraq, biz düşünürük ki, ölkədə demokratiya prosedurlarının ən azı formal olaraq mövcudluğu naminə seçkilərdə iştirak eləmək lazımdır. Əgər görsək ki, kifayət qədər ADP üzvü seçkidə iştirak eləmək istəyir, o zaman çalışacağıq ki, ya partiya kimi, ya da blok kimi seçkilərdə iştirak edək. Hələlik biz seçkidə iştirak eləmək istəyənləri müəyyənləşdirmək istəyirik, müəyyən resurslar axtarırıq".



**Müsavat Partiyasının Məclis üzvü Gülağa Aslanlı bildirdi ki, təmsil etdiyi partiyanın Məclisi bir neçə ay öncə bələdiyyə seçkilərində iştirakla bağlı qərar verib:** "Qərarda deyilir ki, əgər hakimiyyət seçki qanunvericiliyində düzəlişlər edəcəksə, seçki komissiyaları paritet əsasda formalaşdırılacaqsa, bələdiyyələrin statusunun artırılması ilə bağlı addımlar atılacaqsa, böyük şəhər bələdiyyələri və bələdiyyə başqanlarının birbaşa seçilməsi öz həllini tapacaqsa, Müsavat Partiyası bu seçkilərdə partiya kimi iştirak edə bilər. Əgər bunlar olmayacaqsa, o zaman Müsavat Partiyası öz üzvlərinə bələdiyyə seçkilərində sərbəst iştirak eləmək səlahiyyəti verib. Hazırda qeyd olunan bu dəyişikliklərin heç biri həyata keçirilməmiş qalır. Belə olan halda Müsavat bələdiyyə seçkilərində partiya şəklində iştirak etməyəcək. Məclisin qərarına uyğun olaraq Müsavat üzvlərinin sərbəst şəkildə seçkidə iştirak etməsi hüququ tanınacaq və onlara hüquqi yardım göstəriləcək".

**KXCP sədrinin müavini Xəzər Teyyublu bildirdi ki, 2014-cü il martın 1-də Ali Məclisin sessiyası bələdiyyə seçkilərində iştirak etməklə bağlı qərar verib:** "Bu qərara uyğun olaraq bir sıra müvafiq tədbirlər həyata keçirib. Rayon şöbələrində iyun ayına qədər zona müşavirələri keçirdik. Bələdiyyə seçkilərinə hazırlıqla bağlı xüsusi təlimatlar hazırlanıb və rayon şöbələrinə paylanıb. Rayon şöbələrimizdə hazırlıq gedir. KXCP bələdiyyə seçkilərində partiya şəklində yox, üzvlərinin fərdi şəkildə iştirakı formasında seçkidə iştirak edəcək".

❑ Etibar SEYİDAĞA

# "İnsanı bu qədər küncə sıxmaq olmaz"

## Eldəniz Quliyev: "Heç bir beynəlxalq təşkilatdan kömək istəmirəm, çünki günahsızam"

**Daxili işlər naziri Ramil Usubov və Azərbaycan Ziyalılar Birliyinin sədri, kinodramaturq Eldəniz Quliyev arasında məhkəmə çəkişməsi davam edir. Artıq proses sona yaxınlaşır. Hər şey Nəsimi Rayon Məhkəməsinin verəcəyi son qərardan asılıdır.**

Tanınmış ziyalı musavat.com-a açıqlamasında məhkəməsi ilə bağlı bunları deyib: "Məhkəmə ilə bağlı son durum bundan ibarətdir ki, iş linqvistik ekspertizaya göndərilib. Bu cavabdan sonra yəqin ki, konkret söz demək mümkün olacaq. Gedən proseslərdən sonra onu deyə bilərəm ki, növbəti məhkəməyə qədər DİN əməkdaşları məni izləyəcəklər. Arxamca daim maşın gəzir. Ölkədən çıxmağım yasaqlanıb. Bütün bunlar həbs ediləcəyimdən xəbər verir. Hədə-qorxular olmur. Sadəcə, daim izləndiyimi müşahidə edirəm".

**Eldəniz Quliyev təzyiqlərə məruz qalmasının Azərbaycan hakimiyyətinə başucalığı gətirməyəcəyini bildirdi:** "Demokratik cəmiyyətdə təhqir olmayan fikrə görə insanı bu qədər küncə sıxışdırmaq doğru deyil. Bu, hakimiyyətə başucalığı gətirmir. Bütün bunlar Milli Şuradakı fəaliyyətim, eləcə də Ziyalılar Birliyindəki aktiv siyasi işlərimlə birbaşa əlaqədardır".

**Kinodramaturq təzyiqlərlə bağlı heç bir yerli və beynəlxalq təşkilatlara müraciət etmədiyini də qeyd etdi:** "Hesab edirəm ki, haqlıyam. Yüz faiz haqlı olduğuma görə köməyə ehtiyacım da yoxdur. Ümumiyyətlə, təbiətimdə yoxdur ki, mənə qarşı olan təzyiq, təqiblərlə bağlı kimdənsə kömək istəyim. Xüsusilə beynəlxalq təşkilatlardan. Çalışıram ki, problemlərimi özüm həll edim. Həbsim onların məğlubiyyəti deməkdir".

**Eldəniz Quliyev demokratik düşərgənin, cəmiyyətin ona qarşı təzyiqlərə biganə qalması kimi fikirlərlə razılaşmadığını diqqətimizə çatdırdı:** "Mənə qarşı olanlara demokratik düşərgə kifayət qədər sərt təpki göstərərək, etirazını nümayiş etdirdi. İlk növbədə, Rüstəm İbrahimbəyov, daha


Eldəniz Quliyev

sonra Müsavat başqanı İsa Qəmbər, Lalə Şövkət, AXCP lideri Əli Kərimli, KXCP, ADP və bütün siyasi partiyalar bəyanatlarla çıxış edərək, mövqelərini bildirdilər. Avropada yaşayan azərbaycanlılar da dəstək verdilər. Bu cür dəstəkdən qürurlandım. Kifayət qədər dəstək oldu. Bu baxımdan mənə dəstək verilməməsi ilə bağlı səslənən fikirlərlə razı deyiləm".

E.Quliyev bildirdi ki, köhnə ofisindən çıxarılandan bir müddət sonra yeni ofisə köçüb.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 246 (5955) 3 oktyabr 2014

# "Amerika və Azərbaycan bir-birindən üz döndərməyəcəklər"

## Siyasi ekspertlər Obamanın çıxışından sonra Bakı və Vaşinqton arasında çat yarandığını düşünmür; "Azərbaycan Amerika üçün vacib ölkədir"

**ABŞ prezidenti Barak Obamanın Azərbaycanın adını insan haqlarının pozulduğu ölkələr sırasında çəkməsi Bakı-Vaşinqton münasibətlərdəki gərginliyin pik həddi kimi qiymətləndirildi.**

Bəzi müşahidəçilər deyir ki, dünyanın supergücünün qara siyahısına düşmək Azərbaycan üçün yaxşı perspektiv vəd etmir. Lakin fərqli düşünənlər, iki ölkənin sıx tellərlə bağlı olduğunu deyənlər də var. Xatırladaq ki, Obama "Rusiyadan tutmuş Çinə və Venesuelayadək amansız basqılar görürük, hökumətlər legitim fikir ayrılığını dövlətə xəyanət kimi dəyərləndirirlər. Azərbaycan kimi yerlərdə qanunlar QHT-lərin fəaliyyətini inanılmaz dərəcədə çətinləşdirir," deyə bəyan etmişdi. ABŞ və Azərbaycan arasındakı bağları qırılmış saymaq olarmı?

"Azərbaycan müstəqil dövlət olandan bəri Amerikanın ölkəmizə böyük diqqəti olub. Xüsusilə neft müqavilələri imzalanandan, Bakı-Ceyhan kəməri çəkiləndən bəri bu diqqəti müşahidə etmişik. Azərbaycan iqtidarı da həmişə Amerikadan dəstək görüb, bu, Heydər Əliyevin vaxtında da belə idi, sonrakı dövrdə də". **Sabiq dövlət müşaviri, politoloq Vəfa Quluzadə** bunu Azərbaycan-ABŞ münasibətlərinin indiki durumunu şərh edərkən bildirdi. Politoloq deyir ki, Azərbaycanın və Amerikanın əlaqələri olduqca çoxşaxəlidir: "Tək iqtisadi deyil, əsgəri əməkdaşlıq da yüksək səviyyədədir, Azərbaycan Amerikanın bütün layihələrində iştirak edir. Amerika Azərbaycana himayədarlıq cəhdləri də göstərib. Lakin son vaxtlar Amerikanın dəstəyində müəyyən çalarlar əmələ gəlib". **Son vaxtlar iki ölkə arasında problemlərin müşahidə olunmasına gəldikdə, V.Quluzadə deyir ki, Amerika Azərbaycandan əl çəkmək niyyətində deyil:** "Eyni zamanda Amerikanın Azərbaycana müxtəlif şərtləri səslənir. Bu şərtlər əvvəldən də var idi. Azərbaycan Qərblə müqavilələri, Helsinki Aktını, ATƏT-lə, Avropa Birliyi və digər qurumlarla müqavilələri imzalayıb, üzərinə öhdəliklər götürüb. Gün-gündən bu öhdəliklərin yerinə yetirilməsi tələbi də artır. Onlar bizə deyirlər "öhdəliklərinizi yerinə yetirin", biz deyirik "hələ yox". Ancaq Qərbdə elə zənn edirlər ki, biz ümumiyyətlə öhdəliklərdən imtina edirik". **Ekspert deyir ki, bütün gərginliklərə baxmayaraq əməkdaşlıq var, davam edir:** "Digər tərəfdən, belə görüntü yaradılır ki, guya Azərbaycan ya Qərb, ya Rusiya seçimi qarşısındadır. Amma əslində Azərbaycanın seçimi yoxdur. Amerika Azərbaycandan, Azərbaycan da Amerikadan üz döndərməyəcək, küsməyəcək. Xüsusilə də Azərbaycan. Çünki bizim taleyimiz Avropa və Amerika ilə əməkdaşlıqdan asılıdır. Ona görə də görək məsələlər necə həll olunacaq. Bu, Azərbaycan iqtidarından və ABŞ-dan asılıdır. Birinci mərhələlərdə, yeni 90-cı illərdə Qərb başa düşürdü ki, biz öhdəlikləri yerinə yetirmək iqtidarında deyilik, amma indi yerinə yetirəcəyimizi başa düşür, ona görə təzyiqləri artırır".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bu qənaətdədir ki, ABŞ-Azərbaycan münasibətləri iki müstəvidə mövcuddur:** "Birinci müstəvi enerji və təhlükəsizlik əməkdaşlığını ehtiva edir ki, bu



sahələrdə problem ya yoxdur, ya da cüzidir. Başqa sözlə, Vaşinqton Bakı ilə bu iki sahədə əməkdaşlıqdan məmnundur. İkinci müstəvi siyasi islahatlar mövzusudur ki, artıq bu məsələdə iki ölkə arasındakı münasibətlər kralla korun dialoquna bənzəyir. Vaşinqtonun məsləhətlərini Bakı qəbul etmir, Bakının "bizim daxili işlərimizə qarışmayın" məsləhətini isə Vaşinqton qulaqardına vurur və tənqidlərinin dozasını azaltmır. Buna baxmayaraq, Azərbaycanla ABŞ arasındakı hazırkı münasibətlərin kritik nöqtəyə gəlib çatdığını düşünmürəm. Bəli, ictimai fəalların həbsləri və ABŞ təşkilatlarının Bakı ofislərinin qapadılması Vaşinqtonun xoşuna gəlmir, ancaq Azərbaycan hakimiyyəti digər bütün sahələrdə ABŞ-la əməkdaşlığı davam etdirməkdən boyun qaçırmır. Hətta Vaşinqton sabah rəsmi Bakıya İŞİD-ə qarşı beynəlxalq koalisiyaya bu və ya digər şəkildə qoşulmağa dəvət etsə, düşünürəm ki, prezident İlham Əliyev bundan boyun qaçırmayacaq. Necə ki, İlham Əliyev Vaşinqtonun istəyi ilə sülhməramlı qüvvələrin tərkibində İraq və Əfqanıstana azərbaycanlı hərbçiləri göndərmişdi".

**E.Şahinoğlunun fikrincə, problemin kökü fərqlidir:** "Azərbaycan hakimiyyəti içində Rusiyaya meyllik artır. Bu gələcəkdə bizə ciddi problemlər yarada bilər. Çünki bu qüvvələr süni surətdə Azərbaycanla ABŞ və Avropa Birliyi arasında münasibətlərin gərginləşdirilməsi yolunu tutublar. Bu yol bizim milli və təhlükəsizlik maraqlarımıza ziddir. Əvvəllər hakimiyyət içində Rusiya ilə sıx əməkdaşlığa meylli olanlar öz fikirlərini açıq ifadə etmirdilər. İndi isə durum dəyişib, açıq deyirlər ki, Rusiya ilə strateji tərəfdaşlıq olmadan Azərbaycanın gələcəyi yoxdur. Əlbəttə, Rusiya qonşumuzdur, obyektiv səbəblərdən şimal qonşumuzla dost və tərəfdaşlıq münasibətləri qurmalıyıq. Ancaq Moskvanın "nələrə" qadir olduğunu da bilirik, onu da bilirik ki, Kreml Dağlıq Qarabağ probleminin varlığı vasitəsilə Azərbaycana hansı üsullarla təzyiq edir. Ona görə də tamamən xarici siyasət kursunu Rusiyanın xeyrinə dəyişmək Azərbaycana ciddi problemlər yarada bilər. Kreml doyan deyil, ona nə versən deyəcək ki, azdır. İnanmıram ki, prezident daxildəki "5-c kolon" istəyir deyə Vaşinqtonla körpülərin yandırılmasına getsin. Sadəcə, Ukraynada gördüklərim əsasında onu deyə bilərəm ki, bu ölkədə baş verənlər Bakının gözünü yaman qorxudub. Rəsmi Bakı Ukrayna "təcrübəsindən" çıxış edərək Rusiyadan həm də ona görə çəkinir ki, Kremlin təzyiqi artsa ABŞ Azərbaycana real dəstək verməyəcək. Əslində vəziyyətin bu həddə gəlib çatmasında Vaşinqtonun günahı da az deyil. Prezident Barak Obama Cənubi Qafqazı unudub, Vaşinqton bizim bölgədə passivdir, Rusiya da bundan istifadə edərək bölgə ölkələrinə öz şərtlərini diktə edir".

**Politoloq Hikmət Hacızadə isə deyir ki, ABŞ və Azərbaycan arasında strateji əməkdaşlıq olduğundan vaxtaşırı ortaya çıxan problemlər arxa plana keçir:** "Bizim neft-qaz, hərbi məsələlərlə bağlı əlaqələrimiz var, aeroportlarımız Amerikanın ixtiyarına verilib ki, ordan Əfqanıstana yük daşınsın. Eyni zamanda terrorizmə qarşı mübarizədə bir yerdəyik. Bu mənada Azərbaycan Amerika üçün vacib ölkədir". **H.Hacızadə Obama səviyyəsində Azərbaycanın tənqid edilməsini ciddi təzyiqin əlaməti saymır:** "Hələ ki Azərbaycana ciddi bir təzyiq yoxdur. Təbii ki, nə vaxtsa olacaq, amma bu, yaxın zamanın məsələsi deyil. İndiki halda strateji maraqlar əsas tutulur. Azərbaycan hakimiyyətini də hələlik arxayın salan bu məsələdir".

**Milli Məclisin deputatı, DİP sədri Asim Mollazadə isə hesab edir ki, Azərbaycan-Amerika münasibətləri çoxşaxəli əməkdaşlıqdan və tərəfdaşlıqdan ibarətdir:** "İlk növbədə söhbət təhlükəsizlik sahəsində olan əməkdaşlıqdan gedir. Azərbaycan antiterror koalisiyasının çox mühüm və fəal üzvüdür. Bununla yanaşı, Azərbaycan ABŞ-ın Əfqanıstandakı hərbi qüvvələrinə çox böyük dəstək verir. Bundan əlavə, İraq və Kosovoda da Azərbaycanın silahlı qüvvələri NATO silahlı qüvvələri ilə birgə sülhyaratma əməliyyatlarında iştirak edib. Eyni zamanda ABŞ-ın və onun bir sıra müttəfiqlərinin enerji təhlükəsizliyi bilavasitə Azərbaycanın siyasəti ilə bağlıdır. Lakin təbii olaraq ABŞ-da çox ciddi, fəal və zəngin erməni diasporu var ki, iki ölkə arasındakı münasibətlərə xələl gətirir. Mən ilk növbədə ABŞ Konqresində, Koliforniya ştatında qəbul olunmuş qərarları buna aid edə bilərəm. Bu kimi addımlar bizim münasibətlərimizə xələl gətirir. Lakin artıq genişlənməkdə və güclənməkdə olan Azərbaycan-Amerika təşkilatları çalışır ki, balansı bərpa etsinlər. Bizim ABŞ-ın bir neçə ştatlarının konqres və senatları ilə əməkdaşlığımız başlayıb. 25-ə yaxın ABŞ-ın ştatının konqresi həm Xocalı, həm Azərbaycanın ərazi bütövlüyü ilə bağlı müvafiq qərarlar qəbul edib. Sadəcə, Azərbaycanı tanıtmaq üçün ABŞ-da bir sıra işlər görməliyik və erməni diasporunun fəaliyyətinin qarşısını almağa çalışmalıyıq".

❑ E.PAŞASOY



# ABŞ Məxfi Xidmətinin iflası

## Ağ Evin təhlükəsizliyinə cavabdeh olan qurumun rəhbəri Culia Pirson prezidentin etibarını itirdiyinə görə istefa verməli olub

**İraq müharibəsində ABŞ əsgəri kimi döyüşmüş Ömər Qonsales sentyabrın 19-da hasardan aşaraq Ağ Evin həyətinə daxil olub, Məxfi Xidmətin keşikçilərinin yanından ötüb keçib. O, "Şərq" zalına gedən bütün yolboyu əlində bıçaq tutaraq irəliləmişdi. Bundan başqa, veteran döyüşçünün əlində Ağ Evin xəritəsi də olub. O, təkcə Amerikanın birinci ailəsinin deyil, həm də yüksək məqamlı dövlət yetkililərinin həyatını təhlükə altında qoymuşdu.**

Ömər Qonsales bu hərəkəti ilə Ağ Evin dünyada ən yaxşı qorunan obyekt olması haqqındakı mifləri birdəfəlik dəfn etdi, bu barədə "The New York Times" qəzeti yazır.

Məxfi Xidmət öncə bəyan etdi ki, Qonsales Ağ Evin giriş qapısının qarşısında saxlanılıb. Ancaq sonra məlum oldu ki, bu xəbər həqiqətdən çox uzaqdır. "The Washington Post" qəzeti Keprol Con Leonniqin açıqlamasın yaydıqdan sonra tamam fərqli mənzərə ortaya çıxdı.

"Qonsales hasardan keçib Ağ Evin həyətinə ilk addımını atanda həbs olunmalı idi. Son beş ildə eyni hərəkəti törətmiş 16 nəfər məhz beləcə saxlanılmışdı. Ancaq mülki paltarda olan və bu işə görə birbaşa məsuliyyət daşıyan şəxslər Qonsalesi vaxtında görə, bilmədilər. "The Washington Post"un yazdığına görə, belə hallarda sərəncamda olan xüsusi təyinatlı itləri açıb buraxmaq lazım idi. "Ancaq bu baş verməyib. Həmin vaxt Ağ Evin əsas giriş qapısı açıq olub. Təhlükə zamanı çalınmalı olan həyəcan siqnalı söndürülüb. Çünki həyəcan siqnalının səsi yaxınlıqda çalışan qulluqçuları narahat edirmiş. Məhz elə bu səbəbdən həyəcan siqnalını xətdən ayırıblar. Qonsalesi durduran şəxs də əslində öz xidməti yerində olmayıb. Sadəcə, Qonsales pilləkənlərə doğru qaçarkən o, evə gedirmiş və şübhəli şəxsi saxlamağı lazım bilib" -deyə, "The New York Times" qəzeti vurğulayır.

Qəzet xatırladır ki, 2011-ci ildə Ağ Evə doğru bir neçə dəfə atəş açılmışdı. Məxfi Xidmət orqanları isə bu hadisədən dörd gün sonra xəbər tutub.

Konqresdə keçirilən dinləmələr zamanı bu məsələyə xüsusi önəm verilib. Qeyd olunub ki, əgər Ağ Evə hücum çəkən şəxs ruhi xəstə yox, hazırlıqlı terrorçu olsaydı, ağlasığmaz nəticələr meydana gələrdi: **"Əgər nəzərə alsaq ki, prezident Obama öz sələflərindən üç dəfə çox hədələnir, Ağ Evi gərək olduğundan da daha yaxşı qorumaq lazımdır".**

Artıq Ağ Evin Məxfi Xidmətinə rəhbərlik etmiş xanım Culia Pirson prezidentin etibarını itirdiyinə görə istefa verməli olub. Qəzet bildirir ki, o, prezidentlə görüşsə də, baş vermiş insidentlə bağlı onu məlumatlandırmayıb. Prezident Obama qərar verib ki, Ağ Evin Məxfi Xidməti yeni liderə ehtiyac duyur.

Konqresdə dinləmələr zamanı kəskin tənqidlərlə üzləşən Culia Pirson xüsusən demokratlardan gələn sərt suallara cavab verməkdə çətinlik çəkib. Yazıda bildirilir ki, xanım Culia Pirson özü istefa vermək istədiyini bildirib, Ağ Ev rəsmiləri də onun bu istəyinə müsbət yanaşıb.

Qəzetin məlumatına görə, Məxfi Xidmətin veteranlarından olan Cozef Klansi Culia Pirsonun yerinə təyin olunub.

Yazıda diqqət çəkən daha bir məqam var. Sentyabrın 16-da prezident Obama Atlantada yerli rəsmilərlə görüşərkən liftdən istifadə edib. Onunla birlikdə liftə olanlar arasında prezidentin komandasına daxil olmayan mülki cangüdənlərdən biri olub. Ən pisi isə odur ki, həmin cangüdən silahlı olub və prezidentin şəklini çəkmək istəyib. Bu faktlar dərhal aparılan araşdırma zamanı üzə çıxsa da, 18 ay əvvəl bu vəzifəyə təyin olunmuş Culia Pirson bu barədə sentyabrın 24-də prezident Obama ilə görüşü zamanı məruzə etməyib. O, sadəcə, Qonsales faktını xatırlatmaqla kifayətlənib.

Xanım Culia Pirson 55 yaşındadır. Ömrünün 30 ilini Məxfi Xidmət sahəsində çalışıb. O bildirib ki, Konqres tutduğu vəzifədəki bacarığına şübhə etdiyinə görə istefa verməyi lazım bilib: **"Öz işimi ürək ağrısı ilə tərk edirəm"...**

❑ Elbəyi HƏSƏNLİ, Sürix

YENİ MÜSAVAT
N 246 (5955) 3 oktyabr 2014



# Kütləvi şəkildə reallaşan iki arzu

Samir SARI

**Heç demə, insan ən böyük arzularından birinə çatandan sonra xeyli dərəcədə peşman ola bilərmiş. Yəqin ki, bu, arzusuna çatanların xeylisində olub. Bir neçə gün öncə növbəti (ay ərzində 47-ci dəfə) 3 saatlıq tıxacda qaldıqdan sonra məndə də elə bir hiss yarandı və açığı, hələ də ötüb keçməyib.**

Lap əvvəldən başlayaq. Sovet dövrünün axır illəri idi, Gəncədə tələbəydim. Bir gün yataqxanada otaq yoldaşım Xaləddin dedi ki, onun qardaşı oğlu Səidi ağır vəziyyətdə təcili rayondan Bakıya aparıblar, onu görməyə getmək istəyir, mən ona yoldaşlıq edə bilərəmmi. Çox gəncdik, macərapərəst idik. Şənbə gecəsi qatarla yola düşdük. Bazar günü səhər dəmiryol vağzalında şəhərin əksər qonaqlarının sosiska yeyə-yeyə kakao içmək ayinini yerinə yetirib üz qoyduq Səidin yerləşdirildiyi xəstəxananı axtarmağa. Xaləddinin dediyinə görə, qardaşıoğlu uşaq xəstəxanasında olmalıydı, amma hansında, bilmirdi. Xeyli axtardıq, soraqladıq, Semaşko tərəfə gəldik çıxdıq, ordan da Qarayev adına uşaq xəstəxanasını və Səidin palatasını tapdıq.

Dildə demək asandır, amma bütün bu ünvanları tapana qədər mən çox əziyyət çəkdim. Niyə mən? Ona görə ki, rusca danışmaq lazım idi. Yol yoldaşımın ruscası yox idi, mənimki də o zaman təkmil deyildi. Üz tutduğumuz bütün adamlar bizə rusca cavab verirdilər. Hətta avtobusda kənd adamına oxşayan birindən ünvan soruşduq, o da "toşnu ne znayu, amma qde-to qabaqlarda doljen bıt" deyə bir cavab verdi. Arada dedim, Xaləddin, deyəsən, Bakıyla Rostovun bir fərqi yoxdur, hamı rusca danışır. Xəstəxanaların qeydiyyat şöbələrində də eyni vəziyyət idi. Əslində burada işləyənlərin başqa variantı da yoxdu, çoxu ermənilər, ruslar idi və "kəndçilərin dilini" bilmirdilər.

Xüləs, yanımcıl əmi naxoş qardaşoğlu ilə görüşdü, sağollaşdı, çıxdıq şəhərə gəzməyə. Axşam saat 10-a qədər vaxtımız vardı. Gəldik indiki Fəvvarələr meydanına, gəzdik, dolandıq. Açığı, Bakının buraları çox xoşuma gəldi. Səliqəli küçələr, işıqlı vitrinlər, son dəblə geyinmiş insanlar, gözəl qızlar, müxtəlif dildə danışan qonaqlar, sakitlik, əmin-amanlıq. Fikir verdim ki, Bakıda gənclər Gəncədəkindən fərqli olaraq yalnız "kostyum-şalvar" (Polat Ələmdar stili) geyinmirlər, hər cür və rəngarəng geyinirlər. Qalstuklu qonaqlar, yəni biz bu işə bir az şaşırdıq. Axşam "Nizami" kinoteatrında bir fransız komediyasına baxdıq, kefikök çıxdıq və qatarımızın yola düşməsinə iki saat qaldığından kinoteatrın qarşısında durub vaxt keçirməyə çalışdıq. Elə olanda Xaləddinə dedim ki, qaqa, bu saat ən böyük arzum Bakıda yaşamaqdır. O da bu fantastik arzuda olduğunu dedi, ikilikdə güldük, lağ-lağı elədik. Və bu arzu arxivə verildi.

Üstündən illər keçdi, tale elə gətirdi ki, Bakıda yaşayası oldum. Daha bir arzum ölkənin ən yaxşı qəzetində (bu da 1978-ci il arzusuydu) işləmək idi, o da gerçəkləşdi.

Ancaq iki-üç gün öncə məhz "Nizami" kinoteatrının qarşısında tələsən vaxtımda düşdüyüm tıxaca görə o vaxtkı arzumun nə qədər yanlış olduğunu anladım.

Mənim xoşuma gələn Bakıdan indi əsər-əlamət yoxdur. Bakı Kəlküttəyə dönüb. Düzdür, yenə Bakıda rusca və hər cür əcnəbi dildə danışanlar, nə gəldi geyinənlər var, amma şəhərdə hərəkət etmək mümkün deyil. Biz o vaxt "Nizami" kinoteatrının qarşısında durub küçəyə, səkiyə baxanda ara-sıra "Volqa"lar, "Jiquli"lər, bir də 8 nömrəli marşrutda işləyən trolleybuslar gəlib-keçərdi. Tıxac yox, sıxlıq yox, səs-küy yox. Teatrların, kinoteatrların qarşısında növbələr olurdu. İctimai nəqliyyatda hamının əlində qəzet və kitablar görərdin. Küçədə, metroda anqıra-anqıra danışan, meymun, çaqqal, yaquar səsi çıxaranlar görməzdin. Hər yerdə şəhər mədəniyyəti hiss olunurdu.

Bəs Bakı niyə Kəlküttəyə döndü ki, indi burdan qaçıb-qurtulmağı arzu edirik?

Bunun əsas səbəbi budur: görünür, vaxtilə mənim kimi o gözəl Bakıya baxaraq burada yaşamağı arzulayanlar həddindən artıq çox olub və onların arzuları gerçəkləşib.

Sovet dövründə hamının daha bir arzusu avtomobil sahibi olmaq idi. Hamının bu arzusu da çin olub.

Hazırda kütləvi şəkildə həyata keçmiş o iki arzudan başqa bir arzu doğub: bu Kəlküttədən qaçmaq... Ancaq heç kəs bu arzusunu reallaşdırmaq istəmir.

**Müsavat Partiyasında sentyabrın 27-də keçirilən qurultayla bağlı narazılıqlar səngimək əvəzinə daha da yüksəlir. Nəinki başqanlıq, hətta Məclisə keçirilən seçkilərdən də narazılıqlar var və qarşılıqlı ittihamlar səngimir.**



# Müsavatda seçki qalmaqalı böyüyür

## Məclis seçkisinə ittihamlar var; Qubad İbadoğlu: "Heç kənarda qalanlarla Məclisə düşənlər arasında paralellər aparmısınızmı?"

Bu ittihamlar arasında Müsavat Partiyası başqanlığına keçmiş namizəd **Qubad İbadoğlunun** fikirləri xüsusi diqqət çəkir. O, oktyabrın 2-də qurultayla bağlı növbəti bəyanatını yayıb. İqtisadçının sosial şəbəkə vasitəsilə yaydığı və müsavatçılara ünvanladığı bəyanatda bildirilir: "Son günlər sizlər arasında gedən müzakirələri izləyir və bölüşdüyünüz mövqelərə, səsləndirdiyiniz fikirlərə və eyni zamanda bir-birinizə qarşı olan münasibətlərin şiddətinə görə narahatlıq keçirirəm. Əgər Müsavatın güclənməsini və inkişafını istəyirsinizsə, müzakirələrin yönünü dəyişin, onu elə aparın ki, ondan partiyanın gələcəyinə töhfələr olsun. Siz nədən bu müzakirələrinizi Məclis seçkilərinin nəticələri üzərində qurub növbəti seçki üçün layiqli namizədlərinizi müəyyənləşdirmirsiniz? Məclis Müsavatın vitrinidir, ora ağlı, zəkası və intellekti olanların meydanıdır. Amma son seçkilər göstərdi ki, sizlər Azərbaycanda konfliktlərin həlli, təhlükəsizlik məsələləri üzrə tanınmış ekspert olan ABŞ-ın Duke Universitetinin məzunu Elxan Mehtiyevin, tanınmış iqtisadçı, vergi mütəxəssisi, keçmiş vergi nazir İsa Bağırovun, pedoqika üzrə fəlsəfə elmlər doktoru, insan haqları müdafiəçisi Sədaqət Paşayevanın, Böyük Britaniyanın Nyukasl Universitetində beynəlxalq iqtisadiyyat üzrə magistr dərəcəsini almış Müsavat Gənclər təşkilatının sədri Əhliman Abbasın, başqanlığa namizəd Tural Abbaslının və digər fədakar gənclərin və ziyalı müsavatçıların Məclisə seçilməsinə nail ola bilmədiniz. Heç kənarda qalanlarla Məclisə düşənlər arasında paralellər aparmısınızmı? Necə ola bilər ki, orta savadı olanlar Məclisə düşür, alimlər və ziyalılar ordan kənarda qalır? Bu, sizi düşündürmür? Düşünürsünüzmü partiyanın iqtisadiyyat, təhsil, tibb, təhlükəsizlik, Qarabağ komissiyalarına kimlər rəhbərlik edəcək? Məclisin orta yaşına nəzər salmısınızmı? Hazırkı tərkibdə cəmiyyətə təqdim olunacaq yeni simalar gördünüzmü? Məsləhətim odur ki, bir-birinizi aşağılayan yazılara son qoyasınız, Məclis barədə təhlillər apasınız, layiqli namizədləri təqdim edəsiniz və onlara yol açasınız".

**Partiyadaşları isə keçmiş namizədin Məclislə bağlı etirazından qəzəbləniblər. Q.İbadoğlunun bəyanatı partiyadaşları tərəfindən etirazla qarşılanıb və partiya təmsilçiləri ona cavab veriblər. Alya Yaqublu sosial şəbəkədə "Qubad İbadoglunun "dünyanı alimlər xilas eləyəcək" tezisinə qarşı bir kaç anti-tezis",- başlıqlı status yazıb:** "Uzun illərin təcrübəsi göstərdi ki, nəinki bir partiyanın, bütövlükdə Azərbaycanın vitrini sayılan ziyalılar və alimlər ölkədə demokratiyanın bərqərar olması üçün çaba göstərməkdə maraqlı deyillər, əksinə, öz şəxsi maraqlarını təmin eləmək üçün hakimiyyətin yanındakı yerlərini qorumaq uğrunda özlərini şəhid eləyirlər - bu, bir. Hakimiyyətin və demokratiyanın "açarı" alimlərin əlində olsaydı, tərəqqipərvər bəşəriyyətə indiyə qədər məlum olan siyasi doktrinaların heç olmasa yarısında ilk iş kimi Elmlər Akademiyasını və oradakı alimləri elə keçirib onları hakimiyyətə qarşı savaşın ön cərgəsinə düzmək planı göstərilərdi - bu, iki. Uzun illər Müsavatın iqtisadiyyat komissiyasına hörmətli Qubad bəy özü rəhbərlik eləyib və məlum olduğu kimi, partiyanın hakimiyyətə qarşı mübarizəsində iştirakdan daha çox öz iqtisadi bilikləriylə qırğız xalqına yardım etməklə məşğul olub, il-on iki ay dünyanın müxtəlif ölkələrində müxtəlif seminarlarda iştirak edib. Azərbaycanın adını tanıtmaq adına görüldüyü deyilən bu işlər, əlbəttə ki, təqdirəlayiqdi, amma Müsavat Məclisində komissiya sədrlərinin böyük və məşhur alimlərdən ibarət olmasının vacibliyi tezisinə ziddir - bu, üç. Qubad bəyin Məclisə seçilməyiblər deyə dərin acıyla paylaşdığı siyahıdakı şəxslərdən ikisi - Mələhət Mürşüdlü və Əhliman Abbas Məclisə seçiliblər, Elşad Paşasoy isə ümumiyyətlə namizədliyini verməyib - bu, dörd. Məclis üzvlüyünə yetərli səs almayan digər saygıdəyər şəxslərin nədən bu nəticəylə qarşılaşmalarının real səbəblərini araşdırmaq böyük elm adamına daha çox yaraşardı, nəinki öz məğlubiyyət acısına onları da ortaq eləmək üçün illərdi üzvü olduğu partiyanı miskin durumda göstərmək cəhdi - bu, beş. Müsavatın yeni Məclisində professorlar da var, elmlər namizədləri də və hətta vicdan məhbusları da. Üstəlik, orta savadlı adam da yoxdu o Məclisdə. Hərçənd olsaydı da, bu, eyib sayılmazdı və insanları bu şəkildə sortlara bölmək sadəcə rasizimdi - bu da altı..."



**Alya Yaqublu:** "Qubad bəy öz iqtisadi bilikləriylə qırğız xalqına yardım etməklə məşğul olub"



**Elman Fəttah:** "Nə təklif edirsiniz, seçkili demokratiyadan imtina edək, "yaxşıları" təyin edəkmi?"

**Müsavatın digər üzvü Elman Fəttah isə Q.İbadoğlunun fikirlərini demokratiyadan imtina kimi dəyərləndirib. "Nə təklif edirsiniz, seçkili demokratiyadan imtina edək, "yaxşıları" təyin edəkmi?",- deyən E.Fəttah da status yazaraq Q.İbadoğlunun "cavabını verib".**

"Müsavat Partiyası başqanlığına keçmiş namizəd hörmətli Qubad İbadoğlu qurultayın nəticələri ilə bağlı müsavatçıların apardığı partiyadaxili müzakirələri daha kəskin formada ictimai müzakirəyə daşıyan açıqlama yazıb. Yazının məğzi bundan ibarətdir: "Heç kənarda qalanlarla Məclisə düşənlər arasında paralellər aparmısınızmı? Necə ola bilər ki, orta savadı olanlar Məclisə düşür, alimlər və ziyalılar ordan kənarda qalır". Yəni yaxşılar qalıb kənarda, savadsizlar seçilib? Gəlin müqayisəni aparaq. Əvvəla, Qubad bəy hər zaman olduğu kimi, yenə də Müsavat haqda doğlun məlumatlardan uzaq qalmaga israrla davam edir... Bu qədər alimin, ziyalının, tanınmış siyasi xadimlərin, vicdan məhbuslarının, Qarabağ döyüşçülərinin seçildiyi Məclis haqda "Hazırkı tərkibdə cəmiyyətə təqdim olunacaq yeni simalar gördünüzmü?",- cümləsi yazmağın adı nədir? Aşağılamaqmı?!",- deyə E.Fəttah qeyd edib.

**Daha sonra Məclisə seçilənlərin adlarını bir-bir sadalayan E.Fəttah deyib ki, seçilməyənlərin içərisində də layiqli insanlar çoxdur:** "Ancaq onların heç biri seçən və seçilən müsavatçıları aşağılayacaq açıqlamalar verməyə lüzum görmürlər. Çünki "Şərəflə qalib gəlmə-in" də, "şərəflə məğlub olmağın" da bir müsavatçı üçün ləyaqət nümunəsi olduğuna inanırlar. Əlbəttə, növbəti Məclis seçkilərində onların da seçilməsinə çalışmalıyıq..."

**Məclisə seçilməyənlərdən və keçmiş namizəd Tural Abbaslının komandasından sayılan Cavanşir Abbaslı isə baş verənlərə bu cür şərh verib:** "Ura! Gənclik üzərində "möhtəşəm" qələbə qazanıldı. Heç bir gənc, başda Tural Abbaslı olmaqla, Məclisə seçilməyib. Bununla da "demokratiya aşiqləri" Müsavatı gələcəkdə gözləyən "gənclik təhlükəsi"ndən xilas etdilər...!"

**Onun fikrincə, gənclərin Məclisə seçilməməsi müəyyən planın tərkib hissəsidir:** "Düşünürəm ki, ən azından Məclisə düşənlər qədər haqq edirdim. Sadəcə, qrupbazlığın qurbanı olduq biz gənclər. Çünki reallıqdır ki, qurultayda tərəfdarlar heç bir namizədin əməyinə görə səs verməyiblər. Sadəcə, dəstəklədikləri namizədin dediklərinə səs veriblər. Nəticədə kənarda qaldıq. Əsas seçilməməyimizin səbəblərindən biri də gəncliyə olan qısqanclıq oldu. Amma üzülmürəm. Çoxları üçün Müsavatda vəzifə tutmaq əsas məqsəd ola bilər. Mənim üçün güclü Müsavatın sıravi üzvü olmaq əsas şərtdir. Bütün bunlara baxmayaraq, inanıram ki, 11 oktyabrda Müsavat Məclisinə boş qalan yerlərə keçirilən seçkilərdə 27 sentyabrda edilən səhvlər təkrarlanmayacaq. Məclis üzvləri gəncliyə səs verəcəklər".

❑ Röya RƏFİYEVA

# Əli Kərimli müsavatçıları qəzəbləndirdi

## AXCP sədrinin açıqlamalarına "2015-ci ilin parlament seçkilərində də bunlar yenə ətəyimizdən yapışacaqlar" cavabı verildi


Əli Kərimli

**AXCP sədri Əli Kərimli AzadlıqRadiosuna verdiyi müsahibədə Müsavatın AXCP-ni qurultaya çağırmamasını tənqid edib və hazırda Müsavat daxilində davam edən mübahisələrə münasibət bildirib: "Bu gün öz daxillərində müəyyən mübahisələr yaranıb. Tarixə ekskursiya edərək deyirəm ki, vaxtilə Xalq Cəbhəsinin daxilində belə ciddi münaqişələr olub və Müsavat Partiyasının hansı rol oynadığı bəllidir, amma biz onların daxilində baş verənlərə qarışmırıq. Bizi tərk edən insanlara deyəcək sözümüz yoxdur.**

Onlara arzulayırıq ki, bu mərhələni başa vursunlar. Nə zaman Müsavat Partiyasını yönəldən insanlar real müxalifətin mövqeyini bölüşəcəklərsə, real müxalifətlə səylərini birləşdirmək istəyəcəklərsə, o zaman münasibətlər dəyişə bilər. Amma hələ ki biz öz yolumuzu gedirik. Bizi tərk edən insanlara sözümüz yoxdur".

**Ə.Kərimli vurğulayıb ki, Müsavat Partiyası onları dəvət etsəydi, sonrakı münasibətlər haqda düşünmək olardı:** "Onlara başarılar diləyirəm, amma daxili işlərinə qarışmıram. Birinci dəfə idi ki, Müsavat Partiyası AXCP-ni qurultaya dəvət etmədi. Bundan çıxan nəticələrə də qatlansınlar".

**Müsavat Partiyası Məclisinin üzvü Mustafa Hacıbəyli "Yeni Müsavat"a açıqlamasında AXCP sədrinin məsələyə tamam başqa yöndə yanaşıb, təhrif elədiyini bildirdi:** "Müsavat Partiyası ümumiyyətlə heç bir təşkilatı qurultaya dəvət eləməyib və bu barədə qurultaydan əvvəl mediaya da məlumat verilib. Yəni məsələ Əli Kərimlinin qoyduğu kimi deyil. Müsavat Partiyası qurultayda yer və vaxtla bağlı məhdudiyyət olduğu üçün heç bir qonaq çağırmamaq qərarını verdi. Burada söhbət AXCP-dən yox, bütün partiyalardan gedib. Bunun izahatı qurultaydan əvvəl və qurultayda verilib. Biz vaxtdan maksimum səmərəli istifadə eləmək üçün bunu elədik. Əgər digər partiyaları dəvət edib AXCP-ni dəvət etməsəydik, Əli Kərimlinin həmin fikirləri haqlı sayıla bilərdi.

İkincisi, Əli Kərimli Müsavatın daxili işlərinə qarışmadıqlarını deyir. Burada da səmimi deyil. Hamımız bilirik ki, Fuad Qəhrəmanlı AXCP-də Əli Kərimlinin sözçüsüdür, Əli Kərimlinin mövqeyini ifadə edən bir insandır. Fuad Qəhrəmanlı Müsavatın qurultayından öncə rəsmən ortaya mövqe qoymuşdu. Onun mövqeyi mətbuatda dərc olunmuşdu. AXCP-dən Müsavatın daxili işlərinə müdaxilə ilə bağlı bizdə başqa da çoxsaylı məlumatlar var. Sadəcə, onların müdaxiləsi seçkilərin nəticələrinə təsir göstərmədiyi üçün biz bunun üstündən sükutla keçirik. Məncə, Müsavat AXCP-yə dəvət göndərsəydi, Əli Kərimli qurultayda iştirak etməyəcəkdi. Bir ildən çoxdur ki, AXCP və onun sözçüsü olan Fuad Qəhrəmanlı Müsavatın əleyhinə sistemli təbliğat aparırlar. Müsavatın iqtidar partiyası olduğu təbliğatını aparırlar. Onlar Müsavata qarşıdırlar, Müsavatı gözdən salmaq üçün çalışırlar. Biz onları qurultayımıza dəvət etsək də, etməsək də onların bizə münasibəti dəyişmir".

**M.Hacıbəyli xatırlatdı ki, AXCP rəhbərliyi 2005-2010-cu illər ərzində də analoji xətti yürüdüb Müsavatla əməkdaşlıq etməyəcəklərini bəyan edib:** "Əli Kərimli 2005-ci ildə Əli Əliyevlə və Lalə Şövkətlə birləşərək "yeganə müxalifət bizik" təbliğatı apardı. Düz beş il bu təbliğatı apardılar. Amma yekunda nə baş verdiyi bəllidir. 2010-cu il parlament seçkilərinə az qalmış Lalə Şövkətin və Əli Əliyevin mövqeləri ortaya çıxdı. Əli Kərimli başda olmaqla, AXCP beş il ərzində iqtidar partiyası kimi adlandırdıqları Müsavata xahiş etdilər ki, gəlin birlikdə seçkiyə gedək. Yenə tarix təkrarlanır. Onlar Müsavatı özlərinə əsas rəqib gördükləri üçün daim Müsavat əleyhinə təbliğat aparırlar, amma seçki ərəfəsində Müsavatın nüfuzu, resursları lazım olduğu üçün hər dəfə bizim ətəyimizdən yapışırlar. Düşünürəm ki, 2015-ci il parlament seçkilərində də bunlar bu təbliğata son qoyub yenə ətəyimizdən yapışacaqlar".

**M.Hacıbəyli onu da dedi ki, Əli Kərimlinin Müsavatdakı hazırkı durumla vaxtilə AXCP-nin daxilində getmiş münaqişələri eyniləşdirməsi yanlışdır:** "Əli Kərimlinin fraksiyaçılıq siyasəti hələ Əbülfəz Elçibəyin sağlığında başlamışdı. Hələ Elçibəyin sağlığında Əli Kərimli Əbülfəz bəyin imzası ilə ortaya çıxan deputatlığa namizədlər siyahısını saxta adlandırmışdı və Elçibəyin imzasını şübhə altına almışdı. Yəni müqayisə etdikdə görünür ki, bu tamam başqa bir prosesdir. Müsavatda isə demokratik, şəffaf bir seçki keçirilib. Bir ay ərzində namizədlər seçki kampaniyası apardılar. Bu prosesə nəinki Müsavatda, Müsavatdan kənarda da ciddi maraq olub. Müdaxilələr də olub. Həm Müsavata yaxın olan təşkilatlar, həm də Müsavatın əleyhinə olanlar mövqelərini açıqlayıblar. Nəticədə qurultay keçirilib. Qurultay tam demokratik keçib. Bir şeyi xatırlatmaq istəyirəm ki, qurultayda Hikmət Hacızadə çıxış elədi və bütün partiyalara qurultay adından bir çağırış ünvanlanması təşəbbüsü qaldırdı. Bu çıxışın məğzi ondan ibarətdir ki, Azərbaycandakı digər müxalifət partiyaları da Müsavatdan qurultay və seçki keçirməyi öyrənsinlər".

**Müsavat Məclisinin üzvü Səxavət Soltanlı da Əli Kərimlinin fikirlərinə münasibət bildirib. O, Ə. Kərimlini Müsavata sataşmaqda ittiham edib:** "AXCP sədri hörmətli Əli Kərimli yenidən Müsavata sataşmaqla yeni gündəm yaratmaq istəyib. Əli bəy, Müsavat Partiyasını yönəldən insanlar başda olmaqla, Müsavat Partiyası real müxalifətin özüdür! Bizim hədəflərimiz demokratik Azərbaycan qurmaq, sizin hədəfiniz Müsavat. Fərqimiz bu".

**S.Soltanlı hesab edir ki, AXCP oyundankənar vəziyyətə düşdüyündən Müsavata sataşır:** ""Real müxalifət" görüntüsü yaratmaqla müxalifət olmaq olmadığını, oyundankənar vəziyyətə düşdüyünüzü yaxşı bildiyinizdən Müsavata sataşmağı çıxış yolu seçmisinizsə bir söz deməyəcəyəm. Müsavat adından faydalanmaq xalqımızın bütün insanları kimi sizin də haqqınız. Amma heç kimin Müsavat Partiyası haqqında söylədiyi yalanlara, xalqı aldatmağa çalışmasına da tamaşaçı olmaq fikrimiz yoxdur. İnciməyin, səhvlərinizi yenə də təkrarlayırsız. Olmazmı hərə öz yolunu getsin? Kimin doğru yolda olduğunu zaman göstərəcək".

❑ Etibar SEYİDAĞA

# Xaricdən qrant alan QHT rəhbərləri Əli Hüseynliyə cavab verdi

## "Deyilən sözün sübutu olmalıdır"

**Oktyabrın 1-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" və "Qrant haqqında" qanunlara əlavə və dəyişikliklər müzakirəyə çıxarılıb.**

APA-nın xəbərinə görə, iclasda komitə sədri Əli Hüseynli layihələr barədə məlumat verib.

"Qeyri hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Qanuna edilən əlavədə bildirilir ki, xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilə qeydə alınması üçün qeyri-hökumət təşkilatı tərəfindən müvafiq icra hakimiyyəti orqanına təqdim olunmalıdır. Müqavilə olmadan və ya qeydiyyata alınmamış müqavilə üzrə xidmətlər göstərən və ya işlər görən qeyri-hökumət təşkilatı İnzibati Xətalar Məcəlləsinə əsasən məsuliyyət daşıyacaq.

Qanunun 2-ci maddəsinə əlavə edilən 5-1-ci hissədə isə bildirilir ki, "donorlar tərəfindən qrant vermək hüququnun əldə edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir".

Qanunun 4-cü maddəsinə əlavə edilən 4-2-ci hissədə bildirilir ki, "qrant müqavilələrinin (qərarların) qeydə alınması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Ə. Hüseynli bildirib ki, Azərbaycan bir tərəfdən Avropa İttifaqının üzvü olan ölkələrlə sıx əməkdaş olsa da, Avropa Parlamenti Azərbaycanla bağlı bu cür qərəzli qərar qəbul edir:** "Bu onu göstərməkdədir ki, Avropa Parlamenti artıq çökməkdədir. Təəssüf ki, bu kimi bəyanatların arxasında əksər hallarda erməni lobbiçiliyi dayanır. Xüsusi vurğulamaq istəyirəm ki, Azərbaycanın Avropa ölkələri ilə enerji təhlükəsizliyinə dair verdiyi töhfələrə adekvat cavab ala bilmirik. Belə çıxır ki, Qərb dairələri o QHT-ləri dəstəkləyirlər ki, onlar Azərbaycan milli təhlükəsizliyinə qarşı çıxıb, erməni lobbiçiliyini dəstəkləyirlər."

Ə.Hüseynlinin səsləndirdiyi fikirlərə xaricdən qrant almış və hazırda bank hesablarına həbs qoyulan QHT rəhbərləri münasibət bildiriblər.

**Azərbaycan Hüquqşünaslar Assosiasiyasının rəhbəri Ənnağı Hacıbəyli bildirib ki, Ə. Hüseynlinin dedikləri əsassız və məsuliyyətsiz bəyanatdır:** "Əgər belə bir bəyanatlar verilirsə, konkret adlar çəkilməlidir. Sadəcə, hakimiyyəti tənqid edən, ölkədə qanunvericiliyin, məhkəmələrin vəziyyətini, korrupsiyanı tənqid edən QHT-ləri adətən ermənilərin maraqlarına xidmət edən təşkilatlar sayırlar. Ona görə hesab edirəm ki, heç bir əsası olmayan təbliğat məqsədilə deyilmiş fikirdir".

**Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin sədri Mirvari Qəhrəmanlı bildirdi ki, deyilən hər bir sözün sübutu olmalıdır:** "Mən öz təşkilatımın adından deyə bilərəm ki, bizim təşkilat işçilərin əmək hüquqlarının, sosial-iqtisadi hüquqlarının müdafiəsi ilə məşğul olur. Xüsusən də Azərbaycanda fəaliyyət göstərən xarici neft şirkətlərində çalışanların hüquqlarını müdafiə edirik. Bizim apardığımız işlərin erməni məsələsinə heç bir aidiyyəti yoxdur. Bəlkə xarici şirkətlərdə çalışanların hamısı ermənilərdir, bunu deyə bilmərəm. Bu deyilənlər, sadəcə olaraq, bir neçə nəfərin ortaya atdığı bəyanatdır. Əgər xaricdən qrant alan QHT-lər ermənilərlə işləyirlərsə, deməli, bu sözü deyənlər də ermənilərə işləyirlər. Hökumətyönlü bir çox QHT-lər də xaricdən qrant alırlar, parlamentdə oturanların hərəsinin 3-4 QHT-si var və xaricdən qrant alırlar. Danışmazdan öncə bir özlərinə də baxsınlar, onlar da erməni lobbisinin maraqlarına xidmət etmək üçün alırlarmı bu qrantları? Deyilən hər bir söz onların öz imicinə ziyan vurur".


Əli Hüseynli

**İqtisadi Təşəbbüslərə Yardım Mərkəzinin rəhbəri Azər Mehtiyev qeyd etdi ki, qrant alan bütün təşkilatlar o qrantları Ədliyyə Nazirliyində qeydiyyatdan keçiriblər, müqavilələrdə həyata keçirilən işlərin xarakteri göstərilib:** "Bizim aldığımız qrant ölkədəki iqtisadi islahatların tədqiqinə yönəlib. Apardığımız araşdırmaların nəticələri dövlət qurumlarına göndərilib, keçirdiyimiz tədbirlərə hökumət nümayəndələri dəvət olunub, deputatlar iştirak edib. Azərbaycanda vətəndaş cəmiyyəti hökumətin həyata keçirdiyi siyasətə alternativlər istəyir, bu isə ayrı-ayrı hökumət qurumları tərəfindən onların işinə mane kimi qiymətləndirilir. Onlar da QHT-lərə müxtəlif iradlar səsləndirirlər ki, xaricə işləyirlər, erməni lobbisinə xidmət edirlər. Bu şəkildə QHT-lərə basqılar həyata keçirilir və fəaliyyətini məhdudlaşdıran qərarlar qəbul olunur. Son zamanlar QHT-lərin fəaliyyətinin məhdudlaşdırılması ilə bağlı qanunvericilikdə çox ciddi dəyişikliklər edilib. Qanunvericilik elə bir vəziyyətə gətirilib ki, vətəndaş cəmiyyətinin fəaliyyəti mümkünsüz olub. Ölkədə Milli Təhlükəsizlik Nazirliyi var və onlar hər bir qurumun nə işlə məşğul olduğunu izləyirlər. Əgər konkret hər hansı qurumu nədəsə günahkar bilirlərsə, təbii ki, bunun qarşısını almaq mümkündür. Ancaq indiki qanunvericiliyə edilən düzəlişlərin QHT-lərin fəaliyyətində şəffaflığın artırılmasına yönəldiyini demək çox çətindir".

❑ Nərgiz LİFTİYEVA

# Dovğa qazanı



Zamin HACI
zaminhaci@gmail.com

"Süfrəmdə yeri boş qaldı
özü getdi sözü qaldı
heç bu qədər yandırmazdı
mesaj yazan yar olsaydı
bu gecə nə pis gecədir
dovğam çürüdü, a dostlar".

**(Nərmin Kamal, "Dovğa" şeirindən)**

**Bakıda 4-cü Beynəlxalq Humanitar Forumu keçirilir. Fikir verdinizsə, burada əsas maraqlı olan bunun say nömrəsidir. Deməli, yapistlər indiyə qədər 3 dəfə dünyanın işsiz-gücsüz adamlarını Bakıya yığıb qonaqlıqlar, ənamlar veriblər. Düzdür, 500 xarici qonağın içində it ilində hansısa mükafat almış şəxslər də olur, ancaq bunun uca millətimizə nə xeyri var? Tutaq ki, 1953-cü ildə iqtisadiyyat üzrə Kolorado ştatının Coni kəndində "Qarğıdalı" mükafatı almış Toni adlı amerikalı forum çərçivəsində Narxozda tələbələrə mühazirə oxudu - bəyəm bununla universitetdə təhsilin səviyyəsi yüksəlir? Bəlkə tələbələr bellərinə taxdıqları dəftəri forumdan sonra qarınlarına soxurlar? Həm də o təhsilin səviyyəsi lap yüksəlsə belə oranı bitirən adam axırda Ziya Məmmədov kimi şəxslərin əlinin altında paket-maaşa işləyəcəksə, bu boyda hoqqabazlığın mənası nədir?**

Sözgəlişi, bu gülməli Bakı Humanitar Forumu ötənlərdə bir dəfə lap karikatur addımla yadda qalmışdı: forumda müsəlmançılığın respublikamızın tolerant mühitində rolu mövzusu qoyulmuşdu, mühazirə oxumağa isə ədəbiyyat üzrə Nobel ödülü almış, Trinidad və Tobaqo ölkəsindən olan Vidiadxar Naypol-u çağırmışdılar. Məsələ ondadır ki, Naypol bütün dünyada antiislamçı mövqeyi ilə tanınırdı. Nəticədə Səməd Seyidov məcbur oldu Naypolun görüşlərini gizli keçirsin, Xarici Dillərdə qonaq üçün plov-filan dəmləyib yola saldılar. Bu da oldu humanitar plov. Daha doğrusu forum.

Yenə qeyd edirəm, indiyə qədər Bakıda keçirilən 3 forumun respublikamız üçün hansısa xeyri olubsa, qoy yapistlər onu ortaya qoysunlar. Həmişəki kimi yenə xaricdə bizi tanımırlar. Qarabağ mövzusunda yenə dünyanın çoxu ermənilərin tərəfdarıdır. Yapistlərin sevimli mövzusunda deyilən kimi, xarici qara qüvvələr eyzən çalışırlar bizim haqlı suveren, müstəqil fəaliyyətimizə pəl vursunlar, uğurlarımızı görmürlər, hətta Artur Rasizadəni də tanımırlar. Üst-üstə toplasaq, hər forumda Bakıda kürü qonaqlığına xaricdən 500 qarınqulu dəvət edildiyini nəzərə alsaq belə çıxır azı 2000 adam Azərbaycan həqiqətlərini dadıbdır. Bu iki min adamın heç olmazsa 20 nəfəri bizim haqqımızda müsbət sözlər qırıldatsaydı hazırda planetdə azı iyirmi yerdə müsbət balansımız yaranardı. Hanı? Harda bizi sevirlər? Yenə "Fransa ermənilərə dostdur", "Rusiya erməniləri saxlayır", "Amerikada lobbi var", "İran Səyavuş Novruzova şəbədə qoşur", "Britaniyada jurnalistləri tuturlar", "İsveç acdır, Almaniya gicdir, Yunanıstan bicdir" və sairə.

Əlbəttə, deyə bilərlər ki, dörd forumla Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq çətindir, yüz illik AXC hakimiyyəti ağır problemlər yaradıb, həyat ağ və qara rənglərdən ibarət deyil, Binəqədinin icra başçısı Xaləddin müəllim gör rayonda necə gözəl örüşlər salıbdır və sairə. Müəyyən qədər razıyam. Ancaq olmazdımı beynəlxalq humanitar məsələlərə sərf edilən zəhmət və vəsaitin onda biri elə ölkə daxilindəki humanitar fəlakətləri aradan qaldırmağa sərf olunsun? Yapistlər doğrudanmı anlamır ki, dar günlərində onlara Naypol yox, yenə də Əkrəm Əylisli lazım olacaq? Ki, "Xaos diktaturası" adlı növbəti cəfəngiyatı yazıb deputat qoyulsun.

Siyasi dustaq problemi dünyanın diqqətində olan bir məmləkətin "beynəlxalq humanitar forum" qayırması anekdot deyilmi? İnsan haqlarını tapdaq ediblər, sərbəst toplaşmaqdan ta fikir azadlığına qədər hər şey ayaqaltı edilib, ayıları yeyənlər heyvan hüquqları haqda jurnal buraxır, "topallar rəqs dərsi keçir" və belə ölkədə humanitar siyasətdən dəm vururlar...

Amma babat mövzular da var. Məsələn, forum çərçivəsində ehsan siyasətində aparılan böyük islahatlardan danışmaq olar. Qoy əcnəbilər görsün ki, uca dövlətimizin uğurlu, məqsədyönlü siyasəti sayəsində hazırda yas yerlərində ancaq halva, çay, dovğa və xurma verilir.

Pardon, bəzi yerlərdə heç dovğa da verilmir. Əgər xaricilər maraqlansalar ki, bu dovğa nə deməkdir, o zaman milli mətbəximizi dünyaya tanıtdırıb qazanı dəxi bulamaq olar. Bulamasan çürüyür - xaricilər bunu da bilsin.

---

**Yenə başlandı. Yenə də müxalifətçilər bir-birilərini çirkaba bulamaqda sanki yarışa girişiblər. Öncədən də vurğulamışdıq ki, İsa Qəmbərin Müsavat başqanlığından getməsi müxalifət düşərgəsində təlatümlər yaradacaq. Belə də oldu. Lakin müxalifətin bu cür davranışı yenilik deyil. 20 ildir ki, müxalifətdaxili çəkişmələr davam edir. Lakin artıq limit bitmək üzrədir.**

Azər RƏŞİDOĞLU



# Çıxış yolu varmı?

Bu baxımdan, fəaliyyətində ciddi dəyişiklik etməsə, müxalifətin növbəti parlament seçkilərində də böyük ümidlər bəsləməsi real olmayacaq. Kardinal dəyişikliklər olmasa, yenə də kimlərsə hakimiyyətin xeyir-duası ilə parlamentə düşəcək, əsas müxalifət qüvvələri isə "qara siyahı"dan qurtula bilməyəcəklər.

Müsavat daxilində baş verənlər onu ehtimal etməyə əsas verir ki, yaxınlarda yenidən müxalifət düşərgəsi bir-biri ilə savaşa başlayacaq. Bu dəfə də müxalifətdaxili qırğılar "savaş baltaları"nı havaya qaldırırlar. Kənardan bu mənasız döyüş qladiatorlarının savaşını xatırladır. Belə savaşların nəticəsidir ki, ortada heç bir qələbə yoxdur. Sadəcə bir qul digərini məhv edir.

Müxalifət qarşıdan gələn parlament seçkilərinə qədər hakimiyyətin müəyyənləşdirdiyi oyun qaydalarını pozmağa ən azı cəhd etməlidir.

Lakin görünən odur ki, aparıcı bir partiyada sədr dəyişikliyi də müsbət keyfiyyət dəyişikliyinə səbəb ola bilmir. Bunun səbəbi sadədir. Mövcud paradiqmalarla nəyisə dəyişməyə mümkün deyil. Yeni sədr seçkiləri də uğursuz model təsiri bağışlayır. Paradiqma dəyişikliyi yeganə çıxış yolu kimi görünür.

Problem ondadır ki, mövcud siyasi sistem artıq iflasa uğrayıb. Eyni yanaşma, eyni metod, adlarını dəyişib, məzmunca eyni olan siyasətçilərlə böyük uğur qazanmaq mümkün deyil.

Bütün bunlar imitasiya xarakterli gedişlərə bənzəyir. Cəmiyyət isə paradiqma dəyişikliyi arzusundadır.

Azərbaycanda siyasi sistem vahid bir orqanizmi xatırladır. Sanki eyni ssenaridə rollar bölünüb. İndi isə bu sistem işləmir. Sistem iflasa uğrayıb. Sistem yenilənmə tələb edir. Belə sistemlə növbəti illər ərzində fəaliyyət göstərmək mümkün olmayacaq. Yeni taktika və ən əsası yeni strateji tələb olunur. Əlbəttə ki, resurslar olmadan, geosiyasi reallıq dəyişmədən keyfiyyətcə yeni siyasi müstəvini yaratmaq da imkansız görünür.

Son 20 ilin olduqca ağır şərtlərinə və repressiyalarına davam gətirən lider və təşkilatların siyasi meydandan getmə ehtimalı da ürəkaçan perspektivdən xəbər vermir.

Maliyyə resursu olmadan böyük siyasətə gənclərin gəlişi də ağır bir prosesdir. Lakin müqəddəs yer boş qalmır.

Qarşıdakı seçkidə məğlubiyyət yaşanarsa, toplumun çox önəmli bir hissəsi daha da küskünləşə və proseslərdən daha da uzaqlaşa bilər. Bu zaman isə radikal dini cərəyanlar və aşırı sekulyar qruplar siyasətə gələ bilər.

Artıq indidən ehtimal etmək olar ki, yaxınlarda hakimiyyətin ən yüksək eşelonunda kadrların yeniləşməsi prosesi başlayacaq. Nəzərə alsaq ki, Azərbaycan siyasəti yuxarıda qeyd etdiyimiz kimi, vahid orqanizmidir, deməli, müxalifətdə də eyni proseslərin cərəyan edəcəyi şübhəsizdir.

Yeni baxışlar, yeni yaradıcı münasibət önəmlidir. Köhnə yanaşma metodları işlək deyil. Deməli, yeni metodlardan istifadə etmək lazım gəlir. Əgər gerçəkdən yenilik istəyiriksə, bunları etməliyik...

---

# "Qərb heç vaxt Ermənistanla qarşıdurmaya getməyəcək"

## Tanınmış rusiyalı politoloq Qarabağ probleminin həllini Moskvadan gözləməyin əleyhinədir: "Kremldə yalnız Kremlin açarı var..."

**Dağlıq Qarabağ ixtilafının həllində sonucda hansı qlobal gücün - Rusiyanın, yoxsa ABŞ-la Fransanın timsalında Qərbin dominant olacağı hələlik məlum deyil. Sülh prosesinin illərdir dalandan çıxa bilməməsinin mühüm bir səbəbi şübhəsiz ki, elə budur. Hələ ki Rusiya ilə Qərb öz münasibətlərini aydınlaşdırmaqla məşğuldur. Demək, münaqişənin həlli, yumşaq desək, yaxında deyil. Bəs nə vaxt, hardadır?**



**Qriqori Trofimçuk:** "Bakı Qərbin təsir dairəsinə düşsə, yaxın 300 ildə oradan çıxa bilməyəcək..."

**Tanınmış rusiyalı politoloq Qriqori Trofimçukun** məsələyə özəl yanaşması var. Vesti.az saytına açıqlanmasında ekspert deyir ki, problem nə qədər çox dolaşıq görünsə belə, ondan çıxış yolları var: "Hələ 5 il qabaq mən demişdim ki, Qarabağ - milyon həlli olan problemdir. Variantlardan biri kimi mən açıq şəkildə bunu irəli sürmüşdüm: bir var Dağlıq Qarabağ, bir də var ona bitişik rayonlar. Düyünün açılmasına da həmin rayonlardan başlamaq lazımdır. 1-2 rayon tədricən Azərbaycana qaytarılır. Bu zaman Bakı, Moskva və İrəvan prosesin qarantı kimi çıxış edir. Bu proses sürətli deyil və bir neçə il çəkə bilər. Ancaq belə özünəməxsus imtahandan sonra digər rayonların da söhbətini aparmaq olar".

**Lakin politoloq son vaxtlar tez-tez səslənən bir fikirlə - konfliktin açarının Kremldə olması rəyi ilə razılaşmır:** "Kremldə yalnız Kremlin özünün açarları var. Başqa hər hansı açar, özü də Qarabağı açarı onda yoxdur. Əgər əldə lazımi həll variantı olsaydı, o, çoxdan reallaşmışdı, çünki Kremlə problemin həllinin ifrat uzanması nəticəsində kənarda saxlanması sərfəli deyil".

**Maraqlıdır ki, analitik Qərbin, daha doğrusu, ABŞ-ın da Dağlıq Qarabağ məsələsinin tezliklə və ədalətli həllinə çalışmadığını düşünür. Onun fikrincə, əsas hədəf, sadəcə olaraq, Azərbaycanı birmənalı şəkildə Qərbin təsir zonasına salmaqdır:** "Onda Moskvanın Bakıya münasibəti sözsüz ki, başqa olacaq. Bakı Qərbin təsir dairəsinə düşsə, yaxın 300 ildə oradan çıxa bilməyəcək. Vaşinqton o zaman Dağlıq Qarabağın suverenləşdirilməsi, Güney Qafqazda yeni balaca ölkənin peyda olması kursunu götürəcək - yəni fakt olaraq. Sözdə isə Azərbaycanın ərazi bütövlüyünə çalışdığı haqda çoxlu söhbətlər, danışıqlar olacaq. ABŞ-ın Qarabağda güclənməsi həmçinin onun Ermənistanla münasibətlərini yaxşılaşdıra bilər. Qərb heç bir halda Ermənistanla qarşıdurmaya getməyəcək. Beləcə, Azərbaycan Dağlıq Qarabağın qaytarılmasına olan ümidlərin hamısını itirəcək və bu zaman ABŞ-Ermənistan timsalında yeni "dost cütlüyü" qazanacaq. Diqqət edin, Amerika faktiki surətdə nə Gürcüstanı və Moldovanı, nə də Ukraynanı birləşdirdi. Bəli, bu mövzuda çox danışıldı. Ancaq əsas əməldir".

**Bu istiqamətdə fikirlərini davam etdirən politoloq Qərbin Cənubi Qafqazda "Böyük Azərbaycan" və ya "Böyük Gürcüstan"ın yaradılmasına imkan verəcəyinə də şübhə ilə yanaşır:** "Üstəlik, bu zaman Krımdan sonra istənilən təcavüzü Rusiyanın ayağına yazmaq əlverişli olacaq. Və Krım olayından sonra əfsus ki, buna hamı inanmağa hazır olacaq".

***

Əlbəttə ki, bu fikirlərlə mübahisə də eləmək olar. Ən azı ona görə ki, onlar daha çox nəzəri xarakter daşıyır. Yənə hələ ki Azərbaycan birmənalı şəkildə Qərbin - Amerika və Avropanın təsir zonasına girməyib ki, Vaşinqtonun da şübhəli addımlarına müraciət olsun. Hərgah biz Qərbin Kosovo presedentini də yaxşı xatırlayırıq.

Amma Azərbaycanın uzun müddət Rusiyanın təsir dairəsində olmasına rəğmən, Moskvanın özü ixtilafın ədalətli həllinə can atmayıb, indinin özündə də atmır. Açar məsələsinə gəlincə isə bu yanaşma, ümumiyyətlə, tənqidə dözümsüzdür. Hamı bilir ki, münaqişənin həll açarlarından ən azı biri Kremldədir. O ayrı məsələ ki, günün birində işlədilməyən açar da pas atır və yararsız hala düşür. Cənab Tofimçukun təmsil elədiyi dövlətin siyasi isteblişmenti bu haqda vaxtında düşünsə, pis olmaz.

❑ Siyasət şöbəsi

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 246 (5955) 3 oktyabr 2014

# "Azərbaycana qarşı işğalçılıq siyasəti aparılır"




**"Azərbaycanın ərazi bütövlüyü pozulub, bizə qarşı işğalçı siyasət aparılır. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazisi Ermənistanın işğalı altındadır".**

**Bunu Azərbaycan Prezidenti İlham Əliyev IV Bakı Beynəlxalq Humanitar Forumunun açılış mərasimində çıxışı zamanı deyib. Prezident qeyd edib ki, bu işğal nəticəsində torpaqlarımızın 20 faizi ermənilər tərəfindən zəbt edilib: "Bir milyondan artıq soydaşımız məcburi köçkün vəziyyətinə düşüb və bizə qarşı etnik təmizləmə siyasəti aparılıb.**

## Prezident İlham Əliyev IV Bakı Beynəlxalq Humanitar Forumunda Qarabağ mesajları verdi

Xocalı soyqırımı törədilmişdir ki, yüzlərlə günahsız insan o soyqırımın qurbanı olub. Xocalı soyqırımını soyqırım kimi 10-dan çox ölkə rəsmi şəkildə tanıyıbdır". **"Trend"in məlumatına görə, dövlət başçısı qeyd edib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bütün mötəbər beynəlxalq təşkilatlar öz qərar və qətnamələrini qəbul ediblər:** "BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir ki, orada erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması tələb edilir. Əfsuslar olsun ki, bu qətnamələr icra edilmir. Burada biz böyük ədalətsizliklə üzləşirik, ikili standartlarla üzləşirik. Çünki biz yaxşı bilirik ki, bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir gün ərzində icra edilir. Ancaq bizim üçün ən vacib məsələdə 20 ildən artıqdır ki, bu qətnamələr kağız üzərində qalıb. ATƏT, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası və digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qərar və qətnamələr qəbul ediblər".

**İlham Əliyevin sözlərinə görə, bu format və bu hüquqi baza münaqişənin həlli üçün yeganə yoldur:** "Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır və qeyd-şərtsiz bərpa edilməlidir. İşğaldan əziyyət çəkən, öz yerindən didərgin olan soydaşlarımız öz doğma torpaqlarına qayıtmalıdırlar. Baxmayaraq ki, o torpaqlarda artıq həyat yoxdur. Hər şey dağıdılıb".

**Dövlət başçısı bildirib ki, ATƏT-in faktaraşdırıcı və qiymətləndirmə missiyaları iki dəfə işğal edilmiş torpaqlara ezam olunub. Onların məruzələrində açıq-aydın göstərilir ki, hər şey - bizim məscidlərimiz, əcdadlarımızın qəbirləri, tarixi abidələr dağıdılıb, muzeylər talan edilib:** "Bu böyük humanitar fəlakət idi. Azərbaycan təkbaşına öz gücü hesabına bu humanitar məsələnin həlli üçün, köçkünlərin yerləşdirilməsi üçün, onları işlə təmin etmək üçün böyük işlər görüb. Hələ ki bu işlər davam edir, çünki köçkünlərin bir hissəsi hələ ki ağır vəziyyətdə yaşayırlar. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bölgə üçün ən böyük təhlükədir. Bu münaqişənin tezliklə beynəlxalq hüquq və norma prinsipləri əsasında həll olunması bölgəyə sülh, daha da böyük inkişaf gətirəcək, regional əməkdaşlıq üçün də yeni imkanlar yaradacaq".

# AŞ PA-nın Dağlıq Qarabağ üzrə məruzəçi təyin etməsi nəyi dəyişəcək?




## Ermənistanın işğal faktını Avropa Şurasının gündəmindən çıxarmaq cəhdi baş tutmadı; Azərbaycan torpaqlarının qəsb olunması məsələsi yenidən bu qurumda gündəmə gəldi

**Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) payız sessiyası çərçivəsində qurumun Siyasi İşlər və Demokratiya Komitəsinin toplantısı keçirilib. APA-nın Avropa bürosunun xəbərinə görə, komitənin toplantısında "Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərində gərginliyin artması" adlı hesabatın hazırlanması ətrafında müzakirələr aparılıb və bu məsələ üzrə Böyük Britaniyadan olan parlamentar Robert Valter məruzəçi təyin edilib.**

Komitədəki müzakirələrdə iştirak edən **Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin üzvü Elxan Süleymanov** bildirib ki, iclasda onun təqdim etdiyi qətnamə layihəsi ilə bağlı AŞ PA Bürosunun 2 sentyabr tarixində qəbul edilmiş və 29 sentyabr tarixində plenar iclasda təsdiqlənmiş qərarı əsasında "Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərində gərginliyin artması" adlı məruzənin hazırlanması üçün məruzəçi təyin olunub: "Məruzəçi Robert Valter oldu. Səsvermədə Robert Valter 35 səslə AŞ PA-nın keçmiş sədri, fransalı deputat Jan-Klod Minyonu 3 səslə üstələdi. Qeyd etməliyəm ki, Ermənistan hakimiyyəti, AŞ PA-dakı ermənipərəst qruplaşmalar, dünyanın aparıcı güc mərkəzlərindəki ermənipərəst qüvvələr Ermənistanın işğalçılıq siyasətini ifşa edən, bu işğalçı dövlətə qarşı sanksiyaların tətbiqini tələb edən hər hansı bir sənədin nəinki qəbulunun, hətta hazırlanmasının qarşısını almaq üçün bütün imkanlarını səfərbər ediblər. Lakin biz ümid edirik ki, yeni təyin edilmiş məruzəçi təzyiqlərə baxmayaraq, obyektiv məruzə hazırlayacaq, Ermənistanın işğalçı dövlət olduğunu və işğal etdiyi ərazilərdə mülki əhaliyə qarşı kütləvi şəkildə cinayətlər törətdiyini bir daha dünya ictimaiyyətinə çatdıracaq, məruzənin qətnamə hissəsində ilk dəfə olaraq işğalçı Ermənistana qarşı konkret sanksiyaların tətbiqini tələb edəcək".

Qeyd edək ki, "Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərində gərginliyin artması" adlı məruzənin hazırlanması haqqında qərar AŞ PA-nın payız sessiyasının bu həftənin birinci günü keçirilmiş plenar iclasında qəbul olunmuşdu və bu tapşırıq aidiyyəti üzrə Siyasi Məsələlər Komitəsinə göndərilmişdi. Ermənistanın AŞ PA-dakı nümayəndə heyətinin üzvləri və onları dəstəkləyən digər deputatlar bu təklifə qarşı çıxaraq, məsələnin qurumun Monitorinq Komitəsinə ötürülməsini istəsələr də, plenar iclasdakı səsvermələrdə assambleya iştirakçıları onların bu tələbini qəbul etməyiblər.

**Bu qərar qəbul olunmamışdan əvvəl AŞ PA Bürosunun keçirilən iclasında "Dağlıq Qarabağ və Azərbaycanın işğal edilmiş digər ərazilərində vəziyyətin gərginləşməsi" adlı yeni məruzənin hazırlanmasının AŞ PA-nın siyasi işlər və demokratiya komitəsinə həvalə olunması barədə müzakirələr aparılarkən Azərbaycan nümayəndə heyətinin üzvü Rafael Hüseynov bildirib ki, Ermənistan 14 ildir ki, Parlament Assambleyasındadır və bu ölkə təşkilata üzv qəbul edilləndə Avropa Şurasının tələblərinə zidd olan bir dövlət idi. R.Hüseynov deyib ki, Ermənistan Avropa Şurasına üzvlüyünə qəbul olunarkən işğalçı dövlət idi:** "Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti barədə hər dəfə məsələ qaldırılarkən bəziləri burada vaxtaşırı belə bir ifadə işlədirlər ki, bundan ötrü ATƏT-in məxsusi olaraq yaradılmış Minsk Qrupu var. Səhv yanaşmadır, amma tutaq ki, bununla razılaşdıq. Bəs Ermənistan rəhbərliyinin öz xalqına qarşı apardığı mübarizədə haqları tapdalanan, fəlakət içərisindəki o zavallı xalqı müdafiə etmək məgər Avropa Şurasının vəzifələrinə daxil deyilmi? Son illərdə, xüsusən də axırıncı bir neçə Büro iclaslarında Ermənistanla bağlı müxtəlif sənədlər müzakirə mövzusu olub və bu ölkəyə qarşı, törətdiyi cinayətlərin müqabilində təsirli sanksiyaların tətbiqinin vacibliyi vurğulanıb. Mən bunu Büronun fəaliyyətlərində müsbət bir hal kimi qiymətləndirirəm ki, nəhayət heç olmazsa bir istiqamətdə buz sınıb. Adətən Ermənistanın törətdiyi müxtəlif cinayətkar əməllərlə bağlı müstəqil məruzələr hazırlanmasını təklif edən sənədləri Büro əvvəllər ölkə üzrə monitorinq aparan məruzəçilərə yönəldirdi. Bu, xeyli dərəcədə formal yanaşma idi, çünki bu cür ciddi problemlər ümumi məruzənin içində sadəcə bir bənd kimi toxunulmaqla faktiki olaraq kənara atılırdı. Lakin Büronun son yığıncaqlarında istər Sərsəng su anbarı, istər zəbt olunmuş ərazilərdə vəziyyətin gərginləşməsi, istərsə də Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxlaması ilə bağlı bu ölkəyə sanksiyalar tətbiq edilməsini qaldıran qətnamə layihələrinin müzakirə edilməsi diqqətəlayiqdir".

**Həmin iclasda nümayəndə heyətinin rəhbəri Səməd Seyidov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair AŞ PA-da müzakirələr aparılmasının vacibliyini vurğulayaraq deyib:** "Hər dəfə regionumuzda baş verən problemlərlə bağlı anlaşmaya yaxınlaşdıqda - xüsusən də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini qeyd etmək istərdim ki, erməni həmkarlarımız bu problemin yalnız ATƏT-in Minsk Qrupu çərçivəsində həll olunmasına can atırlar. Əziz həmkarlar, bəs hazırkı assambleya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə alt komitə yaratmaq istədikdə siz harada idiniz? Biz bu problemi sizinlə burada müzakirə etmək istədik, siz isə bundan imtina etdiniz. Assambleyanın sədri hər iki ölkənin nümayəndə heyətlərinə danışıqlar masası ətrafında oturmağı, bu mürəkkəb vəziyyətdən qəbul edilə biləcək çıxış yolu tapmaq üçün təkliflə çıxış etdiyi zaman siz harada idiniz? Siz yenə də imtina etdiniz. Avropa Şurası və assambleya Azərbaycan tərəfinin deyil, özünün təyin etdiyi bitərəf məruzəçisinin mövqeyini eşitmək barədə razılıq verdikdə hər dəfə yox deyirsiniz. Bəs belə olan halda biz nəyi müzakirə edə bilərik? Artıq vaxtdır ki, biz bu kimi məsələlərdə Avropa Şurasının səsini eşidək. Azərbaycandan və Ermənistandan deyil, Avropa Şurası tərəfindən gələn obyektiv məlumatlar və obyektiv hesabat olduqca vacib bir məsələdir. Hesab edirəm ki, AŞ PA-nın gündəliyindən bu məsələni çıxarmaq istəyənlər üçün bu çox vacib bir siqnal olardı".

Müzakirələrdə çıxış edən əksər deputatlar Azərbaycanın mövqeyini dəstəkləyərək münaqişə ilə bağlı məruzənin siyasi işlər və demokratiya komitəsinə həvalə olunması barədə Azərbaycan nümayəndə heyətinin təklifini dəstəkləmişdilər.

Qeyd edək ki, 2005-ci ilin yanvarında britaniyalı deputat Atkinsonun məruzəsi əsasında AŞ PA 416 saylı qətnamə qəbul olunub. yaradılıb. Qətnamədə Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktı etiraf olunub və münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin zəruriliyi vurğulanıb Dağlıq Qarabağ üzrə Alt Komitə AŞ PA-nın 1416-cı qətnaməsinə əsasən.

Alt Komitənin ilk sədri britaniyalı deputat lord Rassel-Conston olub. İki il əvvəl Rassel-Constonun ölümündən sonra Alt Komitənin işi dayanmışdı. 2005-ci ilin yanvarında AŞ PA lord Atkinsonun hesabatı əsasında Dağlıq Qarabağa dair qətnamə qəbul edib. Sənəddə ilk dəfə olaraq AŞ PA tərəfindən Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsi təsiqlənib və ölkəmizin ərazi bütövlüyünün bərpası tələb olunub.

Daha sonra bu qətnaməyə əsasən AŞ PA-da Azərbaycan, Ermənistan və digər ölkələrin deputatlarının iştirakı ilə Dağlıq Qarabağ üzrə Alt Komitə yaradılıb. Alt Komitənin ilk sədri britaniyalı deputat lord Rassel Conston olub. Onun rəhbərliyi ilə AŞ PA-dakı Azərbaycan və Ermənistan deputatlarının iştirakı ilə bir neçə dəfə görüş keçirilib.

2009-cu ildə Rassel Constonun vəfatından sonra bu komitənin fəaliyyəti dayandırılmışdı.

Ermənistanın sözügedən komitənin fəaliyyətinin bərpasına müqavimət göstərməsinə baxmayaraq, 2011-ci ilin qış sessiyasında Dağlıq Qarabağ üzrə Alt Komitənin fəaliyyəti yenidən bərpa edildi, İspaniyadan olan deputat, Liberallar Partiyasının üzvü Jordi Xucla Costa komitənin yeni sədri seçildi. Ancaq bir müddət sonra ermənilərin pozuculuq fəaliyyəti nəticəsində komitənin fəaliyyəti dayandırıldı. Ermənistanın bu komitənin fəaliyyətini dayandırmağa çalışmasında əsas məqsəd Qarabağ məsələsini, işğal faktını AŞ PA-nın gündəmindən çıxarmaqdı. Amma AŞ PA-nın Dağlıq Qarabağ məsələsi üzrə məruzəçi təyin etməsi bu məsələni AŞ PA-da daha ciddi şəkildə gündəmə gətirəcək. AŞ PA-da isə Azərbaycan nümayəndə heyətinin mövqeyi ermənilərin mövqeyindən xeyli üstündür və bu məqam Ermənistanı ciddi narahat edirş Buna görə də düşünmək olar ki, xüsusi məruzəçinin təyin olunması Azərbaycanın xeyrinə ola bilər. Xüsusən də məruzəçinin "Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərində gərginliyin artması" adlı hesabatın hazırlanması üçün təyin edilməsi Ermənistana ciddi zərbədir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Teymur HƏSƏNLİ

# 7 qohumunu öldürən cinayətkarın valideynindən şok açıqlamalar

# "Goranboy qatili"nin atası danışdı



Müzəffər Hüseynov "Yeni Müsavat"a müsahibəsində oğlunun müdhiş cinayətə əl atdığının səbəblərini açıqladı: "Qayınanasına dedi ki, qızınla başdaşını bir qoyacağam"; Səfikürd əhalisi isə olayı ADNA terroru ilə müqayisə edir...

**Goranboy əhalisi oktyabrın 1-də baş verən dəhşətli qətlin şokundan hələ çıxmayıb. Rayonda kimə yaxınlaşsan, Səfikürd kəndindəki ürəkparçalayan hadisədən danışır. Qətli törədən Rafiq Hüseynovun yaşadığı evin qabağında qanlı olaydan sonra qurulan polis postu hələ götürülməyib. Onun valideynlərinin olduğu ev də polis nəzarətindədir.**

Qatilin ailə üzvləri kənddən müvəqqəti olaraq çıxarılıb ki, hər hansı insident yaşanmasın. Ehtimal olunur ki, cavab olaraq Hüseynovların evi yandırıla bilər, yaxud evə hücum olar. Səfikürd kəndinin camaatı bu kütləvi qətliamı terror aktından fərqləndirmir.

Onların sözlərinə görə, ölkədə şəxsi münaqişə zəminində belə bir cinayət olmayıb. Kənd sakinləri bildirirlər ki, qatilin qumbara ataraq üç ailəni tələf etməsi, ADNA-da Fərda Qədirovun törətdiyi terror aktı ilə müqayisə oluna bilər. Çünki öldürülən 7 nəfərdən savayı, iki nəfər yaralıdır, digər iki qonşusunun isə bəxti üzünə gülüb. Deməli, 11 nəfəri qətlə yetirməyə cəhd edib. Qatilin isə hazırda Gəncə Şəhər Polis İdarəsində (ŞPİ) saxlandığı bildirilir.

Bəs onu bu qəddar addımı atmağa nə vadar edib? Niyə R.Hüseynov üç yaşlı körpəni belə öldürüb? Bu suallarımızı Səfikürd kəndində olarkən atası Müzəffər Hüseynov cavablandırdı.

***

**M.Hüseynov "Yeni Müsavat"ın bu hadisə ilə bağlı Goranboyda ezamiyyətdə olan əməkdaşlarına deyib ki, hər şey gəlini Südabə Hüseynovanın atası evindən qayıtmaq istəmədiyinə görə baş verib. Onun dediyinə görə, oğlu ay yarım olardı ki, Südabə ilə evlənmişdi:** "Evlənəndən sonra özlərinin evlərinə köçdülər. İndi zəmanə dəyişib, gəlinlər qayınana ilə bir yerdə yaşamaq istəmirlər. Biz də razılaşdıq, cavandırlar, qoy yaşasınlar. Deməli, sentyabrın 27-də Naftalana getmişdik. Qız nəvəmin xınayaxdı mərasimi idi. Ancaq həmin gün onun qayınatasının vəfatının ili idi. Ora gedib sonradan qızımın evinə gəlmişdilər. Məclisdə çox mehriban idilər, danışıb-gülürdülər. Düzü, Rafiq içki də içmir, heç siqaret də çəkmir. Biz də Naftalandan qayıdıb, qayınanasına zəng elədik, üzrxahlıq etdik. Sonra gedib baş çəkdik, yasda ehsan süfrəsində oturduq, axşam da evə qayıtdıq. Yas mərasiminə Rafiqlə yoldaşı günorta gəlmişdilər deyə axşam gəlmədilər. Bu gəlin də elə bilin ki, birinci sinfə gəlib. Başa düşmək olar. Ata evində nəyisə öyrənməyib. Rafiqə deyirdim ki, nə bilməsə yolunu göstər, başa sal".



**"Rafiq öz ifadəsində deyib ki, o körpəni öldürməyinə görə peşmandır. Bildirib ki, ev qaranlıq olub, uşağın olduğunu bilməyib. Özü də Rafiq həmin uşağı çox istəyirdi"**

**Onun sözlərinə görə, qudasının il mərasimindən bir gün sonra oğlu səhər saatlarında evə gəlib:** "Rafiq gəlib dedi ki, bəs Südabə evdən gedib. Evdə mübahisə ediblər, oğlum ondan ayaqqabı istəyib, gəlin də səhv gətirib. Dedim, ay bala, səhv gətiribsə, izah elə, düz gətirsin. Sonra danışdı ki, bəs gəlin əmisi oğlu ilə öpüşüb-görüşdüyünü dediyi üçün onu döyüb, başına "botinka" ilə vurub.

Deməli, bunlar nişanlı olanda Gəncəyə getmişdilər. Rafiq əvvəl gündən nişanlısına tapşırıb ki, qardaşın və bacından başqa heç kəslə öpüşüb-görüşmə, bir də mənə yalan danışma. Qızın əmisi oğlu da görüşəndə onu öpüb.

Gəlin də gizlətməyib, 1 gün sonra bunu Rafiqə deyib. Bu, Rafiqin ürəyində qalıb. Sonradan da hirslənib, başından "botinka" ilə vurub, qız da atası evinə gedib. Mən də yoldaşımı götürüb qızın atası evinə getdik. Ancaq anası dedi ki, qayıtmağa qoymayacaq. Rafiqə bunu deyəndə yanımızda evlərinə zəng eləyib qayınanasına dedi ki, qızınla başdaşın bir olacaq. Düzü, heç nə başa düşmədim, niyə bu sözü dedi".

**M.Hüseynovun sözlərinə görə, gəlin qayıtmadığı gün oğlu evdə tək qalıb:** "Qardaşı və nəvəm də tək qalmasın deyə Rafiqin yanına getdilər ki, fikir eləməsin, dərdini bölüşsün. Təxminən gecə saat 1-ə qədər Rafiqin yanında olublar. Onu başa salmağa çalışıblar, yola gətirmək istəyiblər. Ondan sonra evlərinə gediblər. Gecə yarısı, oktyabrın 1-i yatmışdım. Bir də gördüm Rafiq gəlib məni qucaqlayıb öpdü. Axı hardan biləydim ki, gedib qumbara atıb, 7 nəfəri öldürüb, gəlib vidalaşmağa?! Sonra dedi ki, "ata, salamat qal, narahat olmayın, hər şey qaydasındadır"...

Bunu deyib evdən çıxdı. Tez qalxıb, üstümü dəyişib, dalınca həyətə qaçdım. Gördüm ki, qardaşı ona yalvarıb-yaxarır. Elə darvazanı açanda güllə səsi eşitdim. Demə, qorxutmaq üçün havaya atıbmış. Amma ondan əvvəl də qonşumuz Aydını çağırıb, ona da güllə atıb. Mən arxa otaqda yatmışam, heç nə eşitməmişəm. Bax, belə olub. Həyətdə qardaşına deyib ki, aralaş, özümü vuracağam. Qardaşı isə onu fikrindən daşındırıb. Sonra darvazanın yanında qardaşına dedi ki, bəs onu polis şöbəsinə aparıb təslim eləsin... Kaş özünü vuraydı, o ailəyə də, mənə də təsəlli olardı".




**Ata oğlunu bir də nə vaxtsa görəcəyinə ümidi olmadığını bildirdi:** "Rafiq öz ifadəsində də deyib ki, 3 yaşlı körpəni öldürməyinə görə peşmandır. Bildirib ki, ev qaranlıq olub, uşağın olduğunu bilməyib. Özü də Rafiq həmin uşağı çox istəyirdi. O gəlin də, ailəsi də çox yaxşı insanlar idilər. Mən bu ailə haqda pis söz deyə bilmərəm.

İnsafən çox yaxşı gəlin idi. Rafiqlə də bu ay yarımda mehriban olublar. Özümüz sevinirdik ki, nə yaxşı bir-birini başa düşürlər. Təmizkar gəlin idi. Tək o yox, bütün gəlinlərim hörmətimi saxlayırdı. Mən elə kişi olmuşam ki, kimin qapısına getsəm, qızını oğluma verməkdən imtina etməyib. Haradan bilim ki, Rafiq belə iş görəcək?"

**Müsahibimiz oğlunun birinci evliliyindən də söz açdı:** "Toydan sonra bizim evdə 12 gün qaldılar. Sonra başqa yerdə yaşayıblar. Qəşəng toy elədik. Amma yola getmədilər. Qızı döyməyini deyə bilmərəm.

Ancaq Bakıda kirayədə yaşayırdılar. Evin sahibi bir dəfə deyib ki, bu necə gəlindir, kartofu qoyub qazın üstünə, özü də gedib yatıb, az qala ev yansın. Bunun üstündə mübahisə oldu, ayrıldılar. Doğrusu, birinci gəlin evdən qaçmışdı. Ancaq Rafiqin ikinci evliliyi pis deyildi".

M.Hüseynov deyir ki, oğlunda hər hansı bir xəstəlik, psixi pozğunluq olmayıb: "Oğlumun heç bir xəstəliyi olmayıb, içki düşkünü deyildi. Özü də, deyəsən, bu gəlin təzəlikcə uşağa qalıbmış. Hər şey evə qayıtmamağına görə oldu. Anası qoymadı, Rafiq də təsirlənib bu işi görüb.

Onda silah əsgərlikdən qabaq vardı. Çünki Ovçular Cəmiyyətinin üzvü idi. Amma qumbaranı hardan tapıb bilmirəm".

**Oğlunun özünə yaxşı ev tikdirdiyini bildirən M.Hüseynov Rafiqin gəlirinin də pis olmadığını dedi:** "Həyətdə işləyirdi, "setka" toxuyurdu, ayaqqabı tikirdi. Sənətkar adamdı, əli qızıl idi".

**M.Hüseynov qonşusu Aydın Yusifovla arasındakı məhkəmə çəkişməsinin səbəbini də açıqladı:** "Onun oğlu həyat yoldaşımı su üstündə söymüşdü. Rafiq də onu döymüşdü. Ona görə Rafiqi 5 sutkalıq içəri saldılar. O vaxt kredit götürüb, min manat verib, Rafiqi çıxardım. Ədavətimiz buna görədir. 2011-ci ildə də torpaq şöbəsinə ərizə verdik ki, Aydıngil hasarı küçənin ortasına qoyublar, gəlib söküb yerinə qoysunlar. İndi iş məhkəmə icraçılarındadır. Mənim oğlum bu iddia ilə onlara güllə atıb. Kaş özünə güllə ataydı, bizi bəlaya saldı".

Yada salaq ki, oktyabrın 1-i, sübh saat 4:00 radələrində Rafiq Hüseynov əl qumbarası və silahla qayınatası evinə hücum edərək, 5-i qadın olmaqla, 7 nəfəri öldürüb, 2 nəfəri isə yaralayıb. Evə olunan silahlı hücum nəticəsində qətlə yetirilən şəxslərin adları bunlardır:

1958-ci il təvəllüdlü Diləzbər Alı qızı Məmmədova, 1983-cü il təvəllüdlü Fərqanə Allahyar qızı Məmmədova, 1951-ci il təvəllüdlü Ofelya İsa qızı Məmmədova, 1963-cü il təvəllüdlü Həvayət Xanlar qızı Məmmədova, 1984-cü il təvəllüdlü Südabə Allahyar qızı Hüseynova, 1989-cu il təvəllüdlü Namiq Allahyar oğlu Məmmədov və 2011-ci il təvəllüdlü İsa Elvin oğlu Məmmədov.

Onlar qatilin həyat yoldaşının qohumlarıdır. Yaralılar 28 yaşlı Natiq Məmmədov və 30 yaşlı Günel Məmmədova isə Gəncə Şəhər Təcili Tibbi Yardım Xəstəxanasına yerləşdirilib. Natiq və Namiq öldürülən gəlinin qardaşları olub.

❑ **"Yeni Müsavat"ın Reportyor Qrupu**
**Goranboy, Səfikürd**

YENİ MÜSAVAT
N 246 (5955) 3 oktyabr 2014

# "Bizi anti-Rusiya blokuna qoşmaq istəyirlər"

## Zahid Oruc: "Azərbaycan Avropa ilə əməkdaşlıq kursundan imtina etməyəcək...."

**Qərbdə Azərbaycana yönəlik tənqidlərin sürətlə sərtləşməsi və paralel olaraq rəsmi Bakının buna sərt reaksiyası bir sıra yozumlara səbəb olub. Bir sıra ekspertlərə görə, hakimiyyətə yaxın şəxslərin kəskin anti-Qərb ritorikası, eləcə də Rusiya ilə bağlı həddən artıq dostyana çağırışlar Azərbaycan hakimiyyətinin ənənəvi siyasi kursu dəyişməsinə işarədir. Son zamanlar Bakıya çoxlu sayda yüksək vəzifəli Rusiya rəsmiləri gəlir, əməkdaşlıq müqavilələri imzalanır, eyni zamanda buna paralel olaraq siyasi gündəmdə anti-Qərb çağırışları da artır.**

**Milli Məclisin üzvü Zahid Oruc** deyir ki, kəskin anti-Qərb çıxışları edən hakimiyyət deputatlarının əksəriyyəti Qərbə yaxın olan siyasətçilərdir. Deputatın fikrincə, Qərbin ünvanına tənqidlərin əsas səbəbi Qərbə olan ümidlərin puç olmasıdır: "Bu hansısa ssenarinin tərkib hissəsi deyil. Məclis üzvləri konkret olaraq öz düşüncələrini bölüşdülər. Məsələ bundadır ki, hazırkı dövrdə Qərbin müxtəlif siyasəti addımlarını tənqid edənlərin, necə deyərlər, siyasi keçmişinə də baxmaq çox önəmlidir. Onlar əksərən NATO-Azərbaycan dostluq qruplarında yer alan, vaxtilə ATƏT-lə müxtəlif missiyalarda iştirak edən, Qərblə daim təmaslarda olan adamlardır. Bu insanları aşkar şəkildə rusofillər adlandırmaq, hansısa bir kolon təmsilçisi kimi qələmə vermək yanlış olardı".

**Z.Oruca görə, Qərb verdiyi vədlərin bir çoxunu reallaşdırmadı və bu da xəyal qırıqlığı yaradır:** "Avropa dairələri onun fərqində olmalıdırlar ki, illərlə bu qurumlarla və Qərblə inteqrasiyanın tərəfdarları ilə işi uğurla başa çatdıra bilmədilər. Bu insanlar həmin ölkədə ciddi ictimai təzyiq qarşısındadırlar. Biz bunu açıq şəkildə deyirik. Kimsə iddia edə bilərmi ki, biz indiki dövrdə öz yönümüzü başqa qütbə doğru dəyişmək istəyirik? Biz həmin mövqedə qalırıq, bu gün də Avropa ölkələrinə səfərlər edirik. NATO-nun müxtəlif standartlarının Azərbaycanın silahlı qüvvələri və təhlükəsizlik sferasında bərqərar olmasını təbliğ edirik. Ancaq başqa məsələ odur ki, Qərb nə qədər iqtisadi unikallığına görə cazibədardırsa, inkişaf edib, dövlət-vətəndaş münasibətləri yaxşı qurubsa, beynəlxalq münasibətlər sistemində o qədər qəddar, müttəfiqini tez ələ verən, onu təhlükəsizlik məkanında yalnız qoyan bir qüvvədir".


Zahid Oruc

**"Biz Azərbaycan olaraq Avropa ilə əməkdaşlıqdan imtina etmirik" deyən MM üzvünün sözlərinə görə, Avropa özü Rusiya ilə əməkdaşlıqdan tam imtina etmədiyi üçün Azərbaycandan bunu tələb etməsi absurddur:** "Biz yenə də həmin xəttə sadiq qalmışıq və buna görə də müxtəlif təzyiqləri illər uzunu yaşamalı olmuşuq. Bunu misallarla göstərməyə çalışacağam. Rusiyanın bir illik xarici ticarət dövriyyəsi 857 milyard dollardır. Bunun 50 faizə yaxınını Avropa Birliyinə üzv ölkələrlə iqtisadi əlaqələr təşkil edir. Hətta bu sanksiyalar dövründə belə həmin şkala çox cüzi, 10-12 faiz civarında dəyişib. 8 AB ölkəsi Rusiyadan 100 faizli qaz asılılığındadır. Amerika-Rusiya ticarət dövriyyəsi 30 milyard dollardır. Bu da Türkiyə-Rusiya ticarət əlaqələrinə yaxındır. Bu rəqəmləri ona görə qeyd etdim ki, Qərb özü Rusiya ilə iqtisadi əlaqələri qırmaqda maraqlı deyil. Ona görə də əgər Fransua Olland, Angela Merkel öz evindəki Rusiya qazından istifadədən imtina edib bayıra çıxıb xalqına elan eləsə ki, Ukrayna xalqına görə özlərini soyuğa verirlər, biz inanacağıq ki, bu dava həqiqətən də "soyuq müharibə" dövrünün üslubu ilə gedir. Ancaq məsələ elə deyil".

**Z.Oruc deyir ki, tənqidlərə, qarşılıqlı ittihamlara baxmayaraq Azərbaycan Avropa ilə əməkdaşlıq kursundan imtina etməyəcək. Ancaq eyni zamanda düşünür ki, Qərb Azərbaycana təzyiq göstərərək anti-Rusiya blokuna qoşulmağa məcbur etmək istəyir. Z.Oruc isə bunun mümkünsüz olduğunu deyir:** "Azərbaycanın maraqları tələb edir ki, bütün cinahlarla işləyək. Bizə neytrallıq xeyli vacibdir. Bizi anti-Rusiya blokuna qoşmaq istəyirlər. Bu plan çox kəskin şəkildə həyata keçirilir. Əvvəl Qarabağ münaqişəsinin həlli prosesini yenidən əllərinə almağa çalışdılar, bunlar hələ ki istənilən nəticəni vermir. Son olaraq Nyu-Yorkda nazirlərin görüşünü təşkil etdilər. Başqa tərəfdən, bizə qarşı təzyiq çubuğunu da işə salıblar ki, bizi bu formada daxili məsələlərdə günahlandırıb, hakimiyyətə müxtəlif mesajlar verib, iqtidarın əleyhinə olan qüvvələri təşkilatlandırıb bu vasitə ilə bizi Rusiyanın təsirindən uzaqlaşdırmaq istəyirlər. Çox maraqlıdır ki, Ermənistan üçün bunları etmirlər. Görünür, Azərbaycanın siyasi çəkisi və Qərb üçün əhəmiyyəti çox böyükdür".

❑ **KƏNAN**

# Dərbəndin icra başçısının həbsində "Milyarderlər İttifaqı" izi

## Vəzifədən çıxarılaraq həbs edilən Dərbənd klanının rəhbərinin vurulmasının arxasındakı ilginc səbəblər...

**Dağıstanın hüquq-mühafizə orqanları Dərbənd rayonu administrasiyasının rəhbəri, Dağıstan azərbaycanlıları klanının lideri Qurban Qurbanovu həbs ediblər. Virtualaz.org saytının məlumatına görə, hüquq-mühafizə orqanları Qurbanovu 2009-2013-cü illərdə torpaq qanunvericiliyini pozaraq Dağıstan hökumətinin mülkiyyətində olan 56 hektar torpağı ayrı-ayrı şəxslərə verməkdə ittiham edir.**

Qurban Qurbanovun barəsində cinayət işi sentyabrın 16-da qaldırılmışdı. 1998-ci ildən bəri Dərbəndə başçılıq edən Qurbanovun problemləri vəzifəsindən istefa verməkdən imtina etməsindən sonra başladı.

Xəbər verdiyimiz kimi, Dağıstan rəhbəri Ramazan Abdulatipov Dərbənd rəhbərinin işində nöqsanlar olduğunu bəyan edərək ona vaxtından əvvəl istefa verməyə çağırıb. Lakin Q.Qurbanov istefa verməkdən imtina edib və öz tərəfdarlarını mitinqə toplayaraq müqavimət göstərib. Bundan sonra Dağıstanın hüquq-mühafizə orqanları onun administrasiyasına basqın edərək bütün sənədləri aparıblar. Ardınca ona qarşı cinayət işi qaldırılıb.

Qeyd edək ki, Qurbanovlar Dərbənddə nüfuzlu ailə hesab olunurlar. Qurban Qurbanovun atası Səid Qurbanov 1962-ci ildən etibarən Dərbəndə rəhbərlik edib. Qurbanovun qardaşı Maqomed isə Dağıstanın Bakıdakı nümayəndəsi idi. Abdulatipov hakimiyyətə gələndən sonra onu işdən azad edib.

Qeyd edək ki, Qurbanovun Azərbaycan hakimiyyətindəki ayrı-ayrı məmurlarla yaxın münasibətləri olub. Dərbənddəki azərbaycanlıların aparıcı lideri hesab olunan bu şəxs bir neçə dəfə Dərbənddə azərbaycanlıların sıxışdırılmasına qarşı çıxış edib. Dağıstanda uzun illər davam edən klanlar arasındakı müharibədə bir qayda olaraq öz mövqeyini qoruyub saxlayan Qurbanovlar son vaxtlar sıxışdırılmağa başlanıb. Qurban Qurbanovun əsas rəqibi isə Dağıstanın keçmiş baş prokuroru, bir neçə il əvvəl isə Dərbəndin meri seçilmiş İmam Yarəliyev olub. İ.Yarəliyevin adı "Sadval"ın yaradılmasında hallanır. Q.Qurbanov özü dəfələrlə Azərbaycan KİV-inə müsahibəsində bildirib ki, Dərbəndin yeni meri İmam Yarəliyev şəhərdə müxtəlif vəzifələrdə çalışan 10-dan artıq azərbaycanlını səbəbsiz yerə işdən çıxarıb.

2013-cü ildə Dağıstana prezident təyin olunan Ramazan Abdulatipovun gəlişindən sonra isə durum daha da ciddiləşib.

Qeyd edək ki, son məlumatlara görə, Dərbənd və ətraf kəndlərdə 190 min nəfərdən çox azərbaycanlı yaşayır. Dərbəndə başqa bir millətin nümayəndəsinin rəhbər təyin olunması azərbaycanlı əhaliyə təzyiq kimi qiymətləndirilir. Son illərdə aparılan diskriminasiya, sıxışdırılma nəticəsində Dərbəndin tarixi əhalisi olan azərbaycanlıların sayı kəskin şəkildə azalıb, bundan başqa şəhər və ətrafında torpaq sahələri başqa millətlərin nümayəndələrinin əlinə keçir. Dərbəndin azərbaycanlısızlaşdırılması siyasəti uzun illər Bakının da diqqətində olub. Azərbaycan hakimiyyətin siyasi diplomatik yollarla, o cümlədən Dağıstanla iqtisadi, ticari əlaqələr vasitəsilə Dərbənddəki azərbaycanlıların mövqelərinin müdafiə etməyə çalışır.

Azərbaycan hökuməti Dərbənd şəhərində Nizami Gəncəvi Parkının, Heydər Əliyev prospektinin, Qırxlar Məzarlığının və Dərbəndin 2000 illik tarixi münasibəti ilə şəhərin abadlaşdırılması, Dərbənd-Azərbaycan Dövlət Dram Teatrının yenidən qurulması, Olimpiya Mərkəzinin inşa edilməsi və bir neçə istehsal müəssisəsinin yaradılması üçün dövlət büdcəsindən 30 milyon manat vəsait xərcləyib. Azərbaycanlı jurnalist Ənvər Börüsoyun media.az saytında dərc olunmuş məqaləsində isə "Milyarderlər klubu" və R.Abdulatipovun Azərbaycandakı gizli dəstəkçilərinin Dərbənddəki proseslərdə biznes maraqlarının olduğu qeyd edib. Belə ki, Ramazan Abdulatipov Azərbaycan hökumətinin ayırdığı vəsaiti mənimsəmək və eləcə də Kizlər şəhərindəki konyak zavodunu ələ keçirməyə cəhd edib. Kizlər konyak zavodu 12 çeşiddə istehsal gücünə malikdir. Abdulatipov və keçmiş baş nazir Abbas Abbasov, sadvalçı Yarəliyevlə hər gün telefon bağlantısında olan Azərbaycandakı iri çəkili məmurlar bir araya gələrək Dərbənd şəhərinin inkişafı üçün ayrılmış vəsaitin sayəsində Kizlər Konyak Zavodunu ələ keçirməyə cəhd ediblər. Kizlər şəhərində əhalinin əksəriyyəti rus kazakları olduğundan, onlar konyak, çaxır və araq mafiyasının qarşısını almaq üçün müqavimət göstəriblər və nəticədə həmin plan baş tutmayıb. Abdulatipova rüşvət kimi verilən 30 milyon manatın qarşılığında isə Dərbənd və onun ətrafındakı torpaq sahələrinin ələ keçirilməsi əməliyyatına başlanılıb. Belə bir siyasətin hansı fəlakətlərə səbəb ola biləcəyinin fərqində olmayan "Milyarderlər klubu" bölgədə Azərbaycan və azərbaycanlıları çıxılmaz duruma salıblar.


Qurban Qurbanov

❑ **KƏNAN**

# Demokratın əxlaqi seçimi...



**Hüseynbala SƏLİMOV**

**Bu günlərdə eşidəndə ki, bəs bu həftə rus yazıçısı Nikolay Ostrovskinin anadan olmasının 110 ili tamam olur, uşaqlıqdan bir epizod düşdü yadıma. Mənimlə dalaşan kiçik qardaşım kitabxanadan götürdüyü "Polad necə bərkidi" romanını oxumağa vermir, yatanda da yanına qoyurdu ki, mən götürməyim. Amma bir gün onu yuxuya verəndən sonra kitabı götürə bildim. Başladım oxumağa və bir də gördüm ki, artıq səhər açılır...**

Təbii ki, indi başqa əyyamdır. Ona görə "zaman" yox, məhz "əyyam" deyirəm ki, bütün zamanlarda dəyərdən düşməyən şeylər olur. Onlardan biri də ədəbiyyatdır.Amma mənim bu yazım ədəbiyyat haqqında deyil, ədəbiyyatın qəhrəmanlarına çevrilməyə layiq olan insanlar haqdadır...

Bəs "Polad necə bərkidi" romanından niyə başladım? Bu əsər ideoloji təmayülünə baxmayaraq mənim üçün inqilab və inqilabçılar haqqında əsərdir.

Bəlkə "Ovod"dan da başlamaq olardı. Onu da uşaqlıqda oxumuşdum. Amma gəlin ziddiyyət olmayan yerdə ziddiyyət axtarmayaq...

Bu həftənin özəlliyi həm də onda oldu ki, məhz ilk dəfə oktyabrın 3-də məşhur SOS siqnalından istifadə edilməyə başlanıb. Beləliklə, "Polad necə bərkidi" romanı və bir də SOS siqnalı...

Bu həftə həm də Anar Məmmmədli nüfuzlu beynəlxalq mükafata layiq görüldü. Bununla bağlı yerli hökumət adamlarının reaksiyasına diqqət etdim. Dedilər ki, guya ki, onlar üçün burada qeyri-adi heç nə yoxdur, Qərb, necə deyərlər, özünün "beşinci kolon"unu himayə edir...

Amma biz burada bir qədər başqa məqamlar görürük. Bu ölkədə hamının gileyləndiyi bir ünvan varsa, o da Qərbdir.

Hamı gileylənir. Hökumət ona görə gileylənir ki, Qərb Qarabağı ermənilərdən alıb onlara vermir ki, reytinqləri birdən-birə yüz dəfə qalxsın.

Hökumət həm də ona görə gileylidir ki, onların fikrincə, həmin Qərb başqa yerlərdə, xüsusən də Ermənistanda insan haqlarının pozulmasına göz yumur, amma Azərbaycanda sıravi bir hüquq müdafiəçisini həbs edən kimi bəyanat bəyanat ardınca verilir...

Elə demokratlar da, cəmiyyət də Qərbdən gileylidir. Nə qədər qəribə olsa da, bu qrup da belə hesab edir ki, Qərb müxtəlif səbəblər üzündən demokratiyanı boğmaq üçün hakimiyyətin əlinə "kart-blanş" verib...

Amma təkcə Anar Məmmədli ilə bağlı məqam göstərir ki, hər halda, bizim demokratlar haqlı deyillər- Qərb susmur və dəstəyini əsirgəmir...

O ki qaldı "kolon" məsələsinə, doğrusu, demokratiyanın "kolon"u olmaqda elə bir qəbahət görmürük. Niyə görə hakimiyyət hər yerdən dəstək ala bilər və bunu daxili siyasətdə çox effektiv mexanizm kimi istifadə edər, amma demokratlar bunu edə bilməzlər?..

Məgər Azərbaycan siyasətinin ən acı özəlliyi də məhz onda deyilmi ki, bir tərəf - hakimiyyət üçün bütün üsullar və vasitələr məqbul olduğu bir halda demokratlara ən kiçik beynəlxalq dəstək belə çox görülür, onların ən kiçik və bəlkə də ən təmiz əlaqələri belə nəzarətə götürülərək yasaq edilir?

Beynəlxalq demokratik institutlar şəbəkəsi ilə inteqrasiya ölkədə demokratiyanın inkişafı üçün gərəklidir. Bu gün hakimiyyətdə olanlar özlərini elə təqdim edirlər ki, sanki ölkəyə və cəmiyyətə nəyin lazım olub-olmadığını onlar hamıdan yaxşı bilirlər. Amma belədirmi? Onlara bu fövqəlsəlahiyyəti və fövqəlintuisiyanı kim verib?

Məsələ də bundadır ki, heç kim heç kimə nə belə səlahiyyət verib və nə də ki, kiminsə belə bir fövqəlintuisiyası var...

O ki qaldı demokratlara, bu gün yalnız demokrat olmaq, siyasəti-filanı bir başqa tərəfə tullayıb demokratiyanı inkişaf etdirmək lazımdır. Bu heç də digər sferaları, partiyaları və onlara yaxın qurumları inkar etmək deyil...

Sosiologiyada sahə nəzəriyyəsi var. Bütün proseslər konkret sahədə baş verir. Ona görə də əvvəl bu sahəni yaratmaq lazımdır. İndi ölkədə normal siyasi fəaliyyət üçün şərait və imkan yoxdur. Belə şərait yalnız ölkədə demokratiya bərqərar olandan sonra mümkün ola bilər...

Həm də demokratiya fəalı siyasətçidən həmişə fərqlənir. Siyasətçilər daim hansısa "reallıqlar"ı nəzərə alırlar, daim separat danışıqlara gedirlər, nəyinsə xatirinə bəzən həqiqəti demir və həqiqət üçün lazım olanı etmirlər...

Amma demokratiya fəalı belə deyil. Bütün situasiyalarda onun bir məqsədi və vəzifəsi var - demokratiyanı inkişaf etdirmək. Onda polad bərkiyər...

# Azərbaycan insanı niyə aqressivləşib?

**Bir neçə gün öncə Goranboy rayonunda Diləzbər Məmmədov adlı şəxs ailə-məişət münaqişəsi zəminində 7 nəfəri amansızlıqla qətlə yetirdi. Bundan əvvəl isə İsmayıllı rayonunda ər arvadını güldüyünə görə döyərək öldürmüşdü. Qaçırdığı qızı və özünü maşında yandıran şəxs haqqında da yəqin ki, oxucular xəbərdardır.**

Bu kimi tükürpədici xəbərlərə az qala, hər gün rast gəlirik. Ümumiyyətlə, son vaxtlar Azərbaycan insanında ifrat əsəbilik, qəzəb və aqressiya müşahidə olunur. Bəs fərdlər arasındakı münasibətlərdəki bu qəzəbin, emosiyanın əsl səbəbləri nədir?

**Psixoloq Azad İsazadə cəmiyyətdə aqressivliyin artdığını təsdiqləyir:** "Biz bir-birimizi dinləmək istəmirik, sözünü kəsirik. Hamımızda səbirsizlik, əsəbilik çoxalıb. Bunu da biz küçədə, işdə, nəqliyyatda hər gün görürük. Bəzilərimizdə bu əsəb yığılır və nəticədə qurban elə ən yaxınlarımız olur. Əvvəllər də cəmiyyətdə aqressiya vardı. Sadəcə olaraq, son dövrlərdə insanlar onun təsirinə daha tez düşməyə başlayıblar. Bu da istər-istəməz cinayət hadisələrinin sayını çoxaldır. Misal üçün, əvvəllər məni kimsə əsəbiləşdirsəydi, mən iraq olsun, gedib onu öldürərdim. Amma indi insan əsəbiləşdirəni öldürməklə kifayətlənmir, hirs o qədər olur ki, onun ətrafını da qumbara atıb öldürür".

**Deputat Musa Urud isə qəzəbin səbəbinin sürətli inkişafın insan beyninə uyğunlaşmaması ilə əlaqəli olduğunu düşünür:** "Bu kimi hallar yalnız Azərbaycan insanında baş vermir. Dünyanın inkişaf etmiş və sürətlə inkişaf edən ölkələrinin hamısı üçün xarakterikdir. Doğrudur, bu çox narahatedici situasiyadır. Həm də insanın ciddi depressiyası, yalnızlığı, daxili, gizli keçən ruhi sarsıntıları, xəstəlikləri buna gətirib çıxarır. Bir dəfə Milli Məclisdə də psixoloji yardım mərkəzlərinin yaradılması ilə bağlı məsələni qaldırmışdıq. Bir tərəfdən də insan o qədər mənfi informasiya ilə yüklənir ki, bu da öz təsirini göstərir. İnternetdə, televiziya kanallarında, mətbuatda baxırsan ki, hamısında xəbərin başlığına şok, şok, şok yazırlar. Bu nə şokdur axı?! O şokun özü üst-üstə toplananda insanda istər-istəməz gizli bir şok effekti yarada bilir. Yəni bu aqressiya halını tək Azərbaycana şamil etmək lazım deyil. Cinayət törədən insanları araşdırsaq görərik ki, onların mütləq psixi bir pozuntusu olub. 7 nəfəri birdən qətlə yetirmək, evə qumbara atmaq, bundan sonra əsəbi sakitləşməyib evə girərək güllələmək. Bu hal ancaq psixopatlara xas xüsusiyyətdir, ölkənin siyasi, iqtisadi və sosial vəziyyəti ilə bağlı bir hal deyil. İnkişaf tempinin insan psixikasına uyğunlaşmaması ilə bağlıdır. Sovet dövründə həyat tempi indikinə nisbətdə daha sakit və stabil idi. İnsan nə edirdisə, hamısını dövlət həll edirdi. İnsan özü heç nə etmirdi. Amma bazar iqtisadiyyatı artıq tamam başqa şərtlər tələb edir. Kompüterin və internetin ortaya çıxması insanları informasiya bombardmanına məruz qoydu. İnsan beyni buna uyğunlaşa bilmir. Mənim əsas qənaətim belədir ki, bu hadisələr informasiya tempi, həyat seçiminin sürətlənməsi və insanın buna uyğunlaşmaması ilə bağlıdır".



**Azad İsazadə:**
"İnsanlar indi aqressiyanın təsirinə daha tez düşürlər"



**Musa Urud:**
"Cinayətkarları araşdırsaq görərik ki, onların mütləq psixi pozuntusu olub"



**Azər Rəşidoğlu:**
"Belə insanlar ilk növbədə öz ətraflarını qurban seçirlər"

**Qəzetimizin siyasi şərhçisi Azər Rəşidoğlunun sözlərinə görə, insanlar köməksizliklərinin qisasını ətraflarından, cəmiyyətdən almaq istəyir:** "Bu hay-küylü cinayətləri törədənlər psixi cəhətdən xəstə və iradəcə zəif insanlardı. Ölkədə sosial durum fəlakət həddindədir və insanlar problemlərdən əziyyət çəkir. Bu vəziyyət də onların psixikasına mənfi təsir göstərir. Bəzi insanlar öz yararsızlıqlarına, zəifliklərinə görə əziyyət içindədir. Vəziyyətdən çıxış yollarını tapa bilmirlər və sanki öz köməksizliklərinin qisasını ətraflarından, cəmiyyətdən almaq istəyirlər. Dini inancı olmayan, dünyəvi müstəvidə yalnız zərbələrlə üzləşən insanın birdən-birə qisas həvəsinə düşməsi gözləniləndir. Belə insanlar ilk növbədə öz ətraflarını qurban seçirlər. İnsan beyni sirli bir adadır. Beynimizin bizə nə komanda verəcəyini proqnozlaşdıra bilmirik. Odur ki, aldığımız zərbələrdən məqbul çıxış yolu axtarmalı və baş verənlərin Allahdan gəldiyini anlamalı, sonunun yaxşı olacağını düşünməliyik. Gözəl düşüncə insan həyatını dəyişdirməyə qadirdir. Hər birimizin içində yatan manyak-qatil obrazını yalnız gözəl düşünməklə, insanları sevməklə məhv edə bilərik".

❑ **Günel MANAFLI**


## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

- **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
- **Cinsi marağın** və **cinsi aktların** azalması
- **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
- **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
- **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
- **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
- **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
- **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
- Əvvəldən **xarici cinsi üzvün** balaca olması
- **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
- **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
- **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
- **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
- Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
- **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
- Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
- Sidik aktlarının çətinlikləri və tutulmaları
- Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
- **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
- **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
- **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34



## Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A «Nərimanov» m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**



## Elan

**Hacıqabulda İpək Yolunun yanında 47 hektar torpaq sahəsi, çobanlar üçün 2 ədəd 2 otaqlı , 1 ədəd 4 otaqlı qonaq evi, 3 hektar meyvə bağı, 200 ədəd mal-qara saxlamaq üçün daşdan tikilmiş tövlələr, 10 min ot bağı üçün yem anbarı, 2 ədəd balıq gölü, daimi işığı, suyu. Qaz çəkdirmək üçün sənədlər ( texnikişərt), 0,5 hektar torpaq sahəsi olan restoran, 30 metr üzüm talvarı olan ferma satılır. Ətrafında əlavə 100-150 hektar torpaq sahəsi var.**

**Əlaqə nömrəsi : (050)-214-40-53**


## "Nar Mobile" yeni kampaniyaya start verir

"İrshad Electronics" mağazalarından kreditlə "Nokia Lumia 525" smartfonu əldə edənlər mobil operatordan xüsusi bonuslar qazanacaqlar

**"Nar Mobile" mobil operatoru öz tərəfdaşı "Irshad Electronics" ilə birlikdə yeni kampaniyaya start verir. 1-31 oktyabr 2014-cü il tarixləri arasında davam edəcək kampaniyaya əsasən, hər bir kəs ayda cəmi 10 AZN ödəməklə "İrshad Electronics" mağazalarından 18 aylıq faizsiz kredit əsasında "Nokia Lumia 525" smartfonu əldə edə biləcək. İçində "Nar" nömrəsi olan bu smartfonu əldə etmiş bütün abunəçilər 6 ay ərzində öz balanslarını artıraraq 100 AZN dəyərində şəbəkədaxili danışıq və 600 MB İnternet trafiki hədiyyə qazanacaqlar.**

Beləliklə, "Nokia Lumia 525" əldə etmiş abunəçilər 18 ay ərzində bu smartfon üçün faizsiz kreditlə ödəyəcəkləri məbləğin tən yarısını 6 ay müddətində mobil operatordan bonus şəklində geri ala biləcəklər.

Daha ətraflı məlumatı mobil operatorun internet səhifəsindən əldə edə bilərsiniz:
https://www.narmobile.az/az/pages/default/pageName=campaigns_catalog&id=642/

YENİ MÜSAVAT
N 246 (5955) 3 oktyabr 2014



Etibar Əliyev

# Məktəb və universitetlər necə mühafizə olunur?

## Etibar Əliyev: "Elə ali məktəblər var ki, orada mühafizəçilər universitetin binasından çox rektoru qoruyur"

**Məktəblilərin itkin düşməsi, oğurlanması, təhsil müəssisələrində xoşagəlməz hadisələrin baş verməsi kimi xəbərlərə tez-tez rast gəlirik. Bir neçə il əvvəl Azərbaycan Neft Akademiyasında tələbələrin ölümü ilə nəticələnən terror aktı da yadınızdadır.**

Maraqlıdır, hazırda orta və ali məktəblərin təhlükəsizliyi necə təmin olunur?

Bunu öyrənmək üçün paytaxtdakı bir neçə orta ümumtəhsil müəssisəsinə və ali məktəblərə baş çəkdik.

Baş çəkdiyimiz yerlərin heç birində təhlükəsizlik məsələsi kompleks halda həll olunmamışdı. Məktəblərin əksəriyyətinin mühafizəsini yaşlı adamlar, qadınlar həyata keçirir.

İlk baş çəkdiyimiz ünvan **Nizami rayonunda yerləşən Kamil Əliyev adına 61 saylı orta məktəb** oldu. Məktəbin binasına rahat şəkildə daxil ola bildik və sinif otaqlarına doğru getdik. Bizi saxlayıb "kimsiniz, niyə gəlmisiniz" - deyə soruşan olmadı. Bizimlə yanaşı bir neçə valideyn də içəri daxil oldu. Məktəbin qapısında yaşlı bir qadın dayanmışdı və valideynlərə nəsə deyirdi. Apardığımız müşahidə əsasında müəyyən etdik ki, məktəbin mühafizəsini həmin bu yaşlı qadın həyata keçirir. Qadına jurnalist olduğumuzu deyib, hər kəsin belə rahat şəkildə içəri girməsinə niyə icazə verdiyini soruşduq. Cavabında bizə məktəbdə valideyn iclası olduğunu bildirdi: **"Məktəbdə valideyn iclasıdır. Elə bildim siz də valideynsiniz. Yoxsa mən soruşmadan içəri heç kimi buraxmıram".**

Amma hər halda, valideyn iclası olsa belə sayıqlığı əldən vermək olmaz. Təbii ki, söhbət məktəblilərin təhlükəsizliyindən gedirsə...

**Digər baş çəkdiyimiz məkanda, 304 saylı məktəbdə** isə fərqli situasiya vardı. İçəri daxil olan kimi mühafizəçi bizi saxlayıb kim olduğumuzu soruşdu. Mühafizəçiyə valideyn olduğumuzu dediyimiz halda belə bizi içəri buraxmayıb çöldə gözləməyimizi xahiş etdi. Ancaq bu mühafizəçinin də əynində əvvəlki məktəbdəki kimi, mühafizəçi olduğunu təsdiqləyən geyim yox idi.

**36 nömrəli digər məktəbdə** də mühafizəçi içəri heç kimi buraxmırdı...

Universitetlərin də mühafizəsində müəyyən boşluqlar var. Baş çəkdiyimiz Xarici Dillər Universitetində mühafizəçi qapıda olmasına baxmayaraq rahat içəri daxil olduq. Bizdən tələbə olduğumuzu təsdiqləyəcək heç bir sənəd tələb olunmadı.

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Dövlət Universiteti və İncəsənət Universitetində də eyni hal təkrar olundu. Yəni qapıdan rahat şəkildə universitetin həyətinə daxil olduq. Heç kim bizim tələbə olmadığımızdan şübhələnmədi.

Müşahidələrimiz əsasında onu deyə bilərik ki, məktəb və universitetlərin mühafizəsi istənilən səviyyədə deyil.

**Təhsil eksperti Etibar Əliyev mühafizəçinin universitetdən çox rektoru qoruduğunu dedi:** "Məktəblərin mühafizəsində boşluqlar var. Məktəblərin vəsaiti olmalıdır ki, təhlükəsizlik üçün bir neçə mühafizəçi işə götürə bilsin. Varlı məktəblərin üç, beş, kasıb məktəblərdə - yəni Bakının kəndlərində, ucqar yerlərdə yerləşən məktəblər bir mühafizəçi ilə işlərini qura bilirlər. Ancaq mən hesab edirəm ki, məktəbi qorumaq üçün azı üç mühafizəçi olmalıdır. Universitetlərdə isə mühafizə sistemi nisbətən yaxşıdır. Məktəb və universitetlərin mühafizəsi məsələsi əsasən Neft Akademiyasında baş verən terrordan sonra gündəmə gəlib. Yenə də təkrar edim ki, universitetlərin bəzilərində elə sistem qurulub ki, orada mühafizəçi binanı, tələbələri yox, rektoru qoruyur. Əslində mühafizə işinə müəllimlərin özü, universitetlərin nəzdindəki tələbə təşkilatları da kömək etməlidir. Bu, hər halda, ali və orta məktəb rəhbərliyindən asılı olan məsələdir. İstəsələr mühafizə sistemini yaxşı qura bilərlər".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Ölkənin kommunikasiya sistemləri qışa hazırdırmı?

## Aidiyyəti qurumlar hər il olduğu kimi, bu dəfə də "hə" deyir



**Havalar soyuyan kimi, yağışlar yağar-yağmaz, Bakının və ümumiyyətlə, ölkənin payız və qış mövsümünə hazır olmadığı üzə çıxır. Baxmayaraq ki, hər yayda, payızdan əvvəl, qar yağmadan öncə aidiyyəti qurumların təmsilçiləri bütün çətinliklərə, fövqəladə vəziyyətlərə hazır olduqlarını bildirirlər. Lakin bir qədər yağan yağış, ilk qar deyilənlərin həqiqət olmadığını ortaya çıxarır. Bu dəfə də aidiyyəti qurumlardan ölkənin kommunikasiya sistemlərinin qışa nə dərəcədə hazır olduğunu soruşduq.**

**"Bakıelektrikşəbəkə" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev** musavat.com-a açıqlamasında bildirib ki, qış nə qədər sərt keçsə də, onlar hazırlıqlıdırlar: "Biz tədbir görəcəyik. Gördüyümüz işlərin nəticəsi olaraq ürəklə deyə bilərik ki, heç bir yerdə problem gözlənilmir. Son illər "Bakıelektrikşəbəkə" tərəfindən aparılan yenidənqurma işləri, görülən təmir-tikinti işləri, inşa olunan yeni yarımstansiyalar, çəkilən yeni xətlər, o cümlədən yeni dayaqlar nəinki Bakının mərkəzində, o cümlədən ətraf kənd və qəsəbələrdə küləyin sürəti güclü olarsa belə, əvvəlki illərdəki kimi elektrik enerjisi problemlərindən əsər-əlamət qalmadığını deyə bilərəm".

**Onun sözlərinə görə, 2006-cı ildən bu günə qədər "Bakıelektrikşəbəkə" tərəfindən 110 kilovoltluq 23 yeni yarımstansiya inşa olunub:** "Həmçinin 35 kilovoltluq 65 yarımstansiya tikilib, 20 kilometrdən artıq elektrik veriliş xətləri, o cümlədən yeraltı kabel xətləri çəkilib. On minlərlə yeni dayaqlar, xüsusilə də ətraf kənd və qəsəbələrdə özü izolyasiyalı kabel xətləri çəkilib. Yəni əvvəlki illərdəkindən fərqlənən bu kabel xətləri nə qədər külək əssə də, hava soyusa da, dözümlüdür və görülən işlərin nəticəsində abonentlərimiz rahatlıqla elektrik enerjisi ilə təchiz olunacaq".

**T.Mustafayev qeyd edib ki, cari işlər də görülməkdədir:** "Hazırda Bakının inzibati rayonlarının hər birində payız-qış mövsümünə hazırlıqla bağlı işlər aparılır, transformatorlara, yarımstansiyalara baxış keçirilir. Əlavə maşın və mexanizmlərin hazırlığı aparılır. Qış mövsümündə heç bir problem yaranmayacaq, əminliklə söz veririk".

Mətbuat xidməti rəhbərinin sözlərinə görə, enerji sərfiyyatında baş verə biləcək nöqsanların aradan qaldırılması üçün bu il yeni texnikalar şəbəkəyə qoşulub. Onun sözlərinə görə, abonentlərin narazılığı olarsa, 199 nömrəli qəza xidmətinə də müraciət edə bilərlər. T.Mustafayev onu da deyib ki, qurumun əməkdaşları hər zaman hazır vəziyyətdədir və istənilən hava şəraitində enerji sərfiyyatında problem yaranmayacaq.

**"Azərenerji"dən** isə bildirilib ki, görülən işlərlə bağlı hələlik yekun nəticə ortada yoxdur. Bununla bağlı ümumi siyahı çıxarılmayıb, həmçinin idarələrdən informasiya toplanmayıb.

**"Azəriqaz" İstehsalat Birliyinin mətbuat xidmətinin rəhbəri Araz Ağayev isə qeyd edib ki, qurum qışa hazırlıqla bağlı bir neçə ay əvvəldən tədbirlər planı işləyib hazırlayıb:** "Aprel ayında 347 bənddən ibarət tədbirlər planı tərtib olunub. 31870 metr qaz kəmərinin təmiri əvəz olunması və yeni kəmərlərin çəkilməsi nəzərə tutulub. 5000 metr qaz kəmərinin dayaqlar üzərinə qaldırılması, 102 ədəd qaz tənzimləyicinin quraşdırılması nəzərdə tutulub. Artıq may ayından başlayaraq bu işlər davam etdirilir. Hazırda nəzərdə tutulan işlərin hamısı demək olar ki, görülüb. Eyni zamanda qaz kəmərlərinin texniki xidmət sahəsi tərəfindən texniki baxışlar sürətlənib. Qaz avadanlıqları təftiş olunub, təmir və yağlanma işləri aparılıb. Tədbirlərimiz hələ bitməyib və davam etdirilir".

A.Ağayev bildirib ki, "Azəriqaz" İB-in 1 milyon 700 mindən çox abonenti var. O, payız-qış aylarında ciddi problemlər meydana gəlməməsi üçün ciddi tədbirlər görüldüyünü vurğulayıb.

**"Azərsu" ASC-dən də bildirilib ki, qışda vətəndaşlar su ilə bağlı heç bir problem yaşamayacaqlar. Qurumun mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı bildirib ki, qurum ilin bütün fəsillərində qışa hazırlıqla bağlı tədbirlərini davam etdirir:** "Su və kanalizasiya xidmətinin yaxşılaşdırılması məqsədilə bir çox işlər görülüb. Bu ilin 8 ayının göstəricilərinə görə, "Azərsu" 650 kilometrdən artıq magistral və şəbəkə su xətləri çəkib, 200 kilometrdən artıq kanalizasiya kollektorları və xətləri tikib. Yüz mindən artıq smartkart tipli sayğac quraşdırmışıq, 20-dən artıq su anbarı tikmişik. Bu ilin 8 ayının göstəricisinə əsasən, 117 min nəfər fasiləsiz içməli si ilə təmin edilib və bunun yarıdan çoxu regionlarda yaşayanlardır. İlk dəfə mərkəzləşmiş qaydada içməli su alan vətəndaşların sayı 100 min nəfərdir. Bundan başqa, yay aylarında kanalizasiya kollektoru və xətlərinin, yağış barmaqlıqlarının mütəmadi yuyulmasını, təmizlənməsini həyata keçirmişik. Qış aylarında, şaxtalı havalarda da xüsusi gücləndirilmiş iş rejimində çalışırıq".

Qeyd edək ki, bütün qurumların qışa hazırlıq apardığı bir zamanda yolların hələ də qışa hazır olmaması da vətəndaşların ciddi narazılığına səbəb olur. Ekspertlər isə bildirirlər ki, bu cür problemlərin yaranması plansız iş aparılmasından qaynaqlanır. Mütəxəssislərin fikrincə, yolların təmir-tikinti işləri əvvəldən planlaşdırılaraq şəhərdə insanların az olduğu, yay vaxtlarında aparılmalıdır. "Azəryolservis" ASC-nin mətbuat xidmətinin rəhbəri Pünhan Mürsəliyev isə mövzu ilə bağlı "Anspress"in suallarını cavablandırmaqdan yayınıb.

**"Azəristiliktəchizat"dan** isə bildirilib ki, qışa hazırlıqla bağlı ciddi işlər görülür. ASC-nin abonent və müştəri xidmətlərinin rəisi Rafiq Əliyev qışa hazırlıqla bağlı danışıb və qeyd edib ki, 500-dən çox qazanxana və 115 istilik məntəqəsi vasitəsilə məktəb, uşaq bağçası, səhiyyə obyekti, digər sosial tipli obyekt və yaşayış binalarının istiliklə təmin olması nəzərdə tutulur.

**Xidmət rəisi vətəndaşlara müraciət edərək öz istilik sistemlərini nəzərdən keçirmələrini istəyib. Rafiq Əliyev bildirib ki, ötən il vətəndaşlar evlərindəki istilik sistemlərini yoxlamadığı üçün 40-a yaxın binanı istiliklə təmin etmək mümkün olmayıb:** "Bu kimi halların baş verməməsi üçün abonentlərimizin də üzərinə məsuliyyət düşür. Bəzən olur ki, bir nəfərə görə bir bloku istiliklə təmin etmək olmur. Vətəndaşların bəziləri evlərini qızdırmaq üçün digər istilik vasitələrindən istifadə edirlər və onlar üçün bizim istilik xidmətlərimiz maraqlı deyil. Məhz belə hallar bəzən ciddi problemlərə səbəb olur. Ancaq buna baxmayaraq, yeni qazanxanalar tikilərək fəaliyyətə hazır vəziyyətə gətirilib. Köhnə qazanxanalar isə yenidən təmir olunur və 15 noyabr tarixindək hazır vəziyyətə gətiriləcək".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 246 (5955) 3 oktyabr 2014




**Cümə söhbətləri**

**Bismillahir-Rahmanir-Rahim! Qurban bayramı astanasındayıq. Bu günlərdə Allah evinin ziyarətinə getmiş hacılar ümrə əməllərini yekunlaşdırıb, yenidən ehramlanırlar. Təqva və paklıq rəmzi olan libası geyinərək, Ərəfət çölünə üz tutur hacılar. Rəbbləri ilə əhd-peymanlarını təzələmək, İlahi hüzurda vücudi imtahanlarını şərəflə vermək üçün müqəddəs Ərəfət çölündə vüquf edir - məskun olur hacılar. Rəbbləri qarşısında günahlardan paklanır, rəzillik və çirkinliklərdən imtina edərək, ibadət edirlər onlar...**

# Qurban bayramının fəlsəfəsi



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

## Nələrin simvolu var burada...

Axşamçağı milyonlarla insandan ibarət bir möhtəşəm sel Məşhərül-hərama - Qiyamət səhnələrini xatırladan bir məkana üz tutur. İnsanın özünəqayıdışına təkan verən riqqətli anlarını yaşayır burada hacılar. Sübh açılır... Mübarək zilhiccə ayının 10-cu gününün sübhü. Günəşin şölələri yer üzünü işıqlandırmağa başlayarkən, hacılar Minaya keçid edirlər. Necə də əzəmətli bir toplum! Nə möhtəşəm bir səhnə!

Minada hacılar lənətlik iblisi simvolizə edən cəmərələrə - sütunlara yetişirlər. Burada öz hiddətlərini zahir edir, xəbisliklərə, nəfsani asılılıqlara nifrətlərini büruzə verirlər. Daşlayırlar lənətlik iblisi hacılar! Daşlayırlar qəlblərində olan rəzil qul psixologiyasını! Atdıqları hər daşla sanki damcı-damcı çıxarırlar rəzillikləri qəlblərindən onlar! Əslində iblisin hər bir təzahürünə, hər bir zülmünə, hər məkan və zamanda, hər rəzil sifətdə, hər mənfur cilddə olan təzühürünə daş atırlar hacılar! Daşa basırlar lənətlik şeytanı hacılar!

Sonra hacılar qurbangaha gedirlər. Allah! Allah! Düşünmək istəyən insan üçün nələri simvolizə edir bu qurbangah!! Bəndənin ixlasını, Rəbbi önündə gözəl imtahan verməsinin rəmzidir bu qurban!

Əzəmətli bir bayramdır Qurban bayramı. Mövcudiyyətin fəlsəfəsinə nə dərin eyham var burada... İlahi imtahandan sonadək ləyaqətlə çıxmağa bir abidədir bu gün. Fədakarlığı örnək edən, gözəl amal uğrunda ən qiymətlisindən belə keçməyi öyrədən bir gündür bu gün...

## İsmayıl qurbanlığı

Həzrət İbrahimin (ə) qurbanı - İsmayıl qurbanlığı... Allah Təala Həzrət İbrahimi - Öz müxlis bəndəsini sınağa çəkir. Sevimli övladını qurban kəsməyi buyurur ona Rəbbi. İlahi buyruğu yerinə yetirmək üçün oğlunu götürüb Minaya gedir Həzrət İbrahim (ə). Oğlunu Allah yolunda qurban kəsmək istərkən, möcüzə baş verir - kəsmir bıçaq!

İlahi tərəfdən bəndənin üzərinə düşən vəzifə nə qədər çətin olsa da, İlahi eşqin şirinliyi bu çətinliyə qalib gəlir və lakin bu anda, kəsməyə məhkum olan iti bir bıçaq öz kəsmək funksiyasını yerinə yetirməyə aciz qalır! Bıçaq hərəkətə gətirilir, baş bıçağın altında, amma iti bir bıçaq kəsmir!

Allahın əmin mələyi - Həzrət Cəbrayıl (ə) nazil olaraq, Həzrət İbrahimə (ə) buyurur ki, o, İlahi imtahandan şərəflə çıxmışdır. Bir qoyun əta edilir Həzrət İbrahimə - İsmayıl qurbanlığı. İsmayılın yerinə bunu qurban kəsmək buyurulur ona.

İlahi! Necə heyrətli bir səhnə! Necə vücudi bir durum! Kəsməli olan bəndə də, kəsilməli olan bəndə də şərəflə öz imtahanlarını verirlər! Bütün yaradılış aləmi bu vücudi səhnəni qibtə ilə seyr edir. Budur həqiqi insan! Budur Bəndə! Budur kamil bəndə məqamı! İnsan bəndəlik məqamına, kamillik məqamına beləcə ucalır! Bu şərəfli imtahanın müqabilində bir gerçək kəsilməli İsmayıl qurbanlığı bəşərə hədiyyə edilir...

Minaya ayaq basmış hacı, Allah dərgahında bu səhnəni yaşayaraq, bir qurban kəsir.

Bu mətləbdir Qurban bayramının fəlsəfəsini özündə təcəssüm edən, İlahi Quran məntiqindən əxz edilən gözəl və dərin bir mətləb - Uca Allaha həqiqi bəndəlik etmək məqamının daşıyıcısı olmaq və bu ülvi məqamı hər bir şəraitdə yaşatmaq, çətinliklərə sinə gərərək, həyata keçirmək mətləbi durur burada. Hər bir müsəlmanın üzərinə bu vücudi səhnədən lazımi nəticə çıxarmaq vəzifəsi gəlir.

## Həzrət İbrahimin (ə) dəvəti

İndi isə müqəddəs həcc mərasimi barədə olan Quran ayələrinə diqqət edək. **“Və (yada sal) o zaman(ı) ki, İbrahim üçün (Kə'bənin sütunlarını Adəmin qoyduğu təməl üzərində qaldırsın deyə) Kə'bə evinin yerini hazırladıq (və ona dedik) ki: I(Bu evin həcc mərasimində) heç nəyi Mənə şərik qoşma və Mənim evimi təvaf edənlər, (ibadətə) duranlar və rüku və səcdə edənlər üçün təmizlə!»**

«Və insanları ümumi şəkildə (Allah evinin) həcc(in)ə çağır ki, (onlar sənin dəvətin nəticəsində Qiyamət gününə kimi) piyada və hər uzaq yoldan gələn arıq dəvələr üstündə sənə tərəf üz tutsunlar».

«**Nəticədə öz** *(dünya və axirət)* **mənfəətlərinin bir hissəsini müşahidə etsinlər və müəyyən** günlərdə *(Zilhiccə ayının ilk on günündə, yaxud bayram günü və ondan sonrakı üç gündə)* **Allahın onların ruzisi etmiş olduğu heyvanlar** *(ı - dəvə, inək və qoyunu qurban kəsərkən onların başı)* **üzərində Onun adını çəksinlər. Beləliklə, ondan özünüz də yeyin, çox ehtiyac içində olan yoxsula da yedirin».** *(“Həcc” surəsi, ayə 26-28).*

Müqəddəs ayələrdən bəlli olur ki, Kəbə evi əvvəllər də olmuşdur. Kəbə evi Həzrət Adəm peyğəmbər (ə) tərəfindən inşa edilmişdir. Həzrət Nuhun (ə) zamanında baş verən tufan zamanı Kəbə evinə müəyyən xəsarət dəyir. Allah Təala bu müqəddəs məkanın yerini İbrahim peyğəmbərə (ə) bildirir. İbrahim peyğəmbər (ə) də buranı övladı İsmayıl peyğəmbər (ə) ilə birgə yenidən inşa edir. Kəbə evi hazır olandan sonra Allah Təala İbrahimə (ə) buyurur ki, buranı tövhid evi etsin. Təvaf edənlər, namaz qılanlar, rüku edənlər və səcdəyə gedənlər üçün bu evi təmizləsin.

Həqiqətdə İbrahim peyğəmbərin (ə) vəzifəsi - müqəddəs Kəbə evini zahiri və mənəvi şirklərdən təmiz saxlamaq idi. Bəndələrin burada yalnız Allaha pərəstiş etməsini təmin etmək lazım idi. Bu məkanın ən mühüm ibadəti - təvaf və namazdır.

Kəbə evi ibadət edənlər üçün hazır vəziyyətə düşəndə isə Allah Təala Həzrət İbrahimə (ə) əmr edir ki, insanları həccə gəlməyi elan etsin. Təfsirlərdə oxuyuruq: **“O zaman ki, İbrahim bu əmri alır, Allaha ərz edir ki, axı səsim insanların qulağına çatmayacaqdır. Ancaq Allah ona əmr edir ki, sən elan et və Mən onların qulağına çatdıraram”.**

Həzrət İbrahim də (ə) şərq və qərbə səda edərək, deyir: **“Ey insanlar! Kəbə evinin həcci sizə yazılmışdır və Pərvərdigarınızın dəvətini yerinə yetirin”.** Allah onun sədasını hamının qulağına, hətta ana rəhnində olan körpələrin belə qulağına çatdırır. Onlar da cavabında dedilər: **“Ləbbeyk! Allahummə, ləbbeyk!” “Allahım, dəvətini qəbul etdik!”.** O gündən Qiyamət gününə qədər bu mərasimdə iştirak edənlər o kəslərdir ki, Həzrət İbrahimin (ə) dəvətini qəbul ediblər.

Bir nöqtəni də qeyd edək ki, heyvanları qurban etmək - həqiqətdə bir rəmzdir ki, insan özünü Allah yolunda qurban etməyə hazırlayır. Necə ki, Həzrət İbrahim (ə) İsmayılı (ə) qurban etməyə hazırlamışdı. Onlar bu əməlləri ilə elan edirlər ki, Allah yolunda hər bir fədakarlığa, hətta canlarından keçməyə belə hazırdırlar.

Allah hamımıza bu gözəl mərasimdə iştirak etmək tofiqini nəsib etsin! Nəsib etsin ki, o gözəl Zatın gözəl cilvələrini mənəvi gözümüzlə, ruhumuzla hiss edək və günahlarımızdan paklanmağa çalışaq. Onun o müqəddəs dərgahında söz verək ki, təqvalı insan olacaq və günahdan uzaq olmağa çalışacağıq. İnşəallah!

Qurban bayramı bizim üçün bir çağırışdır. Öz İsmayıllarımızı Allah yolunda verməyə nə dərəcədə hazırıq?! Həzrət İbrahimlə (ə) müqayisədə bizim özümüzü də sınağa çəkməyə imkan yaranır. Qurban bayramı - əslində fədakarlığın, sınağın formalaşdığı bir gündür.

## Müstəti kimdir?

**İndi isə bir neçə kəlmə həcc ziyarətinə getmək vəzifəsinin insanın üzərinə düşməsi barədə qeyd edək.**

**Həcc ziyarətinə getməyin bir neçə mühüm nöqtəsi var:**

- İmkanı olan şəxsə (şəriətdə belə insana müstəti deyirlər) ömründə yalnız bir dəfə İslam həcci (həccətül-İslam) vacib olur.

- İmkanı olan (müstəti) şəxsə həcc dərhal vacib olar. Yəni müstəti olduğu ilk ildə həcci yerinə yetirməlidir və onu təxirə salmaq lazım deyildir. Amma təxirə saldığı təqdirdə, sonrakı ildə həcci yerinə yetirməlidir.

- Əgər mükəlləf (üzərində şəri vəzifə olan şəxs - burada həccə getməli olan şəxs) səhlənkarlıq edib həccə getməzsə, həcc onun üzərində qalar və sonradan hər bir surətdə - hətta imkanı aradan getsə də - həccə getmək onun üçün vacib olur.

## Həccə getməyin vacib şərtləri

**Həcc bir neçə şərtlə vacib olar (bu şərtlərin hamısı mövcud olmazsa, həcc vacib deyildir).**

a) Həddi-büluğa çatmaq

b) Aqil olmaq (ağlı başında olmaq).

Deməli, uşağa və əqli naqisliyi olan şəxsə həcc vacib deyildir.

c) Mal-dövlət, bədənin sağlam və qüdrətli, yolun açıq və vaxtın kifayət qədər olması baxımından müstəti olmaq.

- Mal-dövlət baxımından müstəti olmaq - yol azuqəsi və nəqliyyat vasitəsinin olmasından ibarətdir. Əgər bunların özü olmasa, onları əldə etmək üçün xərcləyə biləcək pul və ya malın olması da kifayətdir. Qayıtmaq xərclərini də təmin etmək imkanının olması şərtdir.

- Həccin vacib olmasında gedib-qayıtmaq xərclərindən əlavə, öz şəninə uyğun (qazancına, imkanına müvafiq) həddə ev və ev əşyaları, nəqliyyat vasitəsi və məişət üçün zəruri olan başqa şeylərə də malik olması şərtdir. Əgər onların özü də olmasa, onları əldə etmək üçün lazımi qədər pulu, yaxud dəyərli bir əşyası olmalıdır.

- Həcdən qayıdana qədər ailəsinin xərclərini ödəməyə imkanın olması - müstəti üçün şərtdir.

- Həcdən imkanlı qayıtmaq, yəni qayıtdıqdan sonra həyat tərzinin maddi cəhətdən çətinliyə düşməməsi üçün ticarət, əkinçilik, sənətkarlıq, yaxud bağ və dükan kimi mülkiyyət mənfəətinə malik olması - müstəti üçün şərtdir. Əgər öz halına uyğun qazanc əldə etmək qüdrəti olarsa, kifayətdir. Əgər qayıtdıqdan sonra dolanış tələbatı aylıq maaşla təmin olarsa, kifayətdir.

- Həccin vacib olması üçün bədən, yol və zaman cəhətdən imkanın olması şərtdir. Buna görə də yol getmək qüdrəti olmayan, yaxud çox əziyyət çəkən xəstə üçün həcc vacib deyildir. Həmçinin, yolu açıq olmayan və ya həccə çata biləcək dərəcədə vaxtı olmayan şəxsə həcc vacib deyildir.

- İmkanlı şəxs özü həccə getməlidir və başqasının onun tərəfindən həccə getməsi kifayət etməz. Amma həcci boynunda qalan və qocalıq, ya xəstəlik ucbatından həccə gedə bilməyən şəxsin əvəzinə başqa birisi həccə gedə bilər.

## Neçə dəfə həccə getmək olar?

Bir nəfərə ömründə bir dəfə həccə getmək vacibdir. Amma elə olur ki, insan həcc ziyarətinə getməklə bağlı ruhi tələbat hiss edir. Cəmiyyətimizdə nədənsə həccə ikinci dəfə getmək istəyən insanlara nisbətdə: “Yaxşısı budur ki, həmin pula xeyriyyəçilik etsin” kimi yanaşma israrla yeridilir. Amma axı bu insanın ruhi tələbatı var. Bu halda, ona “həccə getmə, əvəzində xeyriyyəçilik et” demək, digər şəxsə “bu il istirahətə getmə, evində qal, onun puluna xeyriyyəçilik et” demək kimi olar. Yəni, hər şey insanın niyyətindən asılıdır. Əgər həccə getmək onun daxili tələbatı ilə bağlıdırsa, bununla ruhu dincəlirsə - bu, bir məsələ. Əgər həccə getmək insan üçün belə bir səciyyə daşımırsa - bu, tam fərqli bir məsələdir. Hər şey niyyətə qayıdır.

O ki qaldı xeyriyyəçiliyə bu, həccə gedib-getməməsindən asılı olmayaraq, insanın üzərində olan mənəvi vəzifədir. Qurani-Kərimdə buyurulur: **“Onlara ruzi olaraq verdiklərimizdən infaq edərlər (xeyriyyəçiliyə xərcləyərlər)”.** Hər bir insan çalışmalıdır ki, imkanı olmayanlara əl tutsun.

## “Hacı” rütbəsi varmı?

Öncə bir-iki kəlmə də həcc ziyarətinin bahalığı ilə bağlı demək lazımdır. Sözsüz ki, hazırkı qiymətlər yüksəkdir və bu, bir çox insanların yolunu bağlayır. Bu vəziyyətdən çıxış yolu - operatorların sayının artmasında, həcc ziyarətinin inhisarda olmamasında, sağlam rəqabət mühitinin formalaşmasındadır. Yəni həcc ziyarətinin təşkili tamamilə rahat olaraq, peşəkar şirkətlərə həvalə oluna bilər. Orada insanların şəri suallarına, əməllərinin yerinə yetirilməsinə gəldikdə, həmin şirkətlər bu sahənin mütəxəssislərini cəlb edə bilər və bununla da bağlı heç bir obyektiv çətinlik yoxdur. Yəni həcci inhisarda saxlamaq üçün heç bir obyektiv səbəb yoxdur.

Hacı adına gəldikdə isə zahirən, belə bir rütbə yoxdur. Müqəddəs Kitabımız olan Qurani-Kərimdə, hədislərimizdə həcc ziyarətində olan insanlara “hacı” deyə işarə edirlər, ənənəvi olaraq, ziyarətdən qayıdan insanları da belə çağırırlar. Və bu ad, Allah Evini - Kəbə Beytullahı ziyarət edən insanın üzərinə müəyyən mənəvi təhəddüdlər müəyyən edir. Hacı - digərlərinə nisbətən daha məsuliyyətli, əxlaqi dəyərlər baxımından daha dürüst və səliqəli olmalıdır. O, öz ətrafına təmasda olduğu nurun mübarəkliyini paylamalıdır.

## Qurban bayramının əməlləri

Müstəhəb qüsl almaq, bayram namazını qılmaq, bayram namazından sonra qurbanlıq ətlə qidalanmaq - Qurban bayramı günündə çox bəyənilmişdir.

Bundan əlavə, bu gündə İmam Səccadın (ə) Qurban bayramına aid olan dualarını oxumaq, “Nüdbə” duasını oxumaq tövsiyə edilir.

Həcdə olmayanlar üçün də Qurban bayramı günündə qurban kəsmək - bəyənilmiş əməllərdəndir.

**Namazdan sonra bu təsbihləri təkrar etmək bəyənilir: “Əllahu əkbəru Əllahu əkbər, lə iləhə illəllahu vəllahu əkbər. Əllahu əkbəru və lillahil-həmd. Əllahu əkbəru ələ mə hədanə, Əllahu əkbəru ələ mə rəzəqanə min bəhimətil-ən-’am, vəl həmdu lillahi ələ mə əblanə”.**

**Allahım, bizləri Qurban bayramının fəlsəfəsini dərk edənlərdən qərar ver! Amin!**

YENİ MÜSAVAT
N 246 (5955) 3 oktyabr 2014

**Xəbər verdiyimiz kimi, oktyabrın 1-də Goranboyda dəhşətli qətliam baş verib. Rayonun Səfirkürd kənd sakini Rafiq Hüseynov əl qumbarası və odlu silahla qayınatasının evinə hücum edərək, 5-i qadın olmaqla, 7 nəfəri öldürüb, 2 nəfəri isə yaralayıb. Bu tükürpədici cinayət ailədaxili münaqişə zəminində baş verib, öldürülənlər arasında qatilin həyat yoldaşı Südabə Hüseynova da var.**

# Ölüm hökmü bərpa olunsunmu?

## Ölkədə qanlı qətliamlar artır; hüquqşünas isə cinayətlərin baş verməsinə şərait yaradan halların aradan qaldırılmasının vacibliyini deyir



Çox maraqlıdır ki, son vaxtlar ölkə ərazisində bu cür qətliamlar tez-tez baş verir. Psixoz həddə çatmış insanlar əsasən, öz ailə üzvlərinə ziyan verir, kütləvi qətllər törədirlər.

Bu isə istər-istəməz Azərbaycanda ölüm hökmünün ləğvi ilə bağlı qərara yenidən baxılmasını aktuallaşdırıb. Daha öncə buna bənzər hallar baş verəndə cəmiyyətin tanınmış şəxslərindən reaksiyalar gəlmişdi. Məsələn, Cəlilabadda daha öncə bir ailə başçısının öz ailə üzvlərini yandırmasından sonra da bu mövzu aktuallaşmışdı.

Məsələn, deputat Fazil Mustafa bu olaydan təsirlənərək 1998-ci il, fevralın 10-da ləğv edilən ölüm hökmünün bərpasını təklif etmişdi.

**İxtisasca hüquqşünas olan deputat facebook səhifəsində bu olayla bağlı belə status yazmışdı:** "Martın 23-də Cəlilabadda Quliyev soyadlı bir cani qohumu olan bir qadını və iki körpə uşağını öldürüb, izi itirmək üçün evlərini yandırıb. Bu vəhşiyə ömürlük həbsmi veriləcək? Milli Məclisdə qəti şəkildə qaldıracağam ki, azyaşlı uşaqların qəsdən öldürülməsi, zorlanması, narkotikə cəlb olunması üçün mütləq ölüm hökmü barədə məsələ cəmiyyətin müzakirəsinə çıxarılsın. O iki körpə uşağın qətlinin heç bir bəraətverici izahı ola bilməz".

Hüquq elmləri doktoru, professor İlham Rəhimov, tanınmış vəkil Elton Quliyev bu mövzuda müəllif yazıları və müsahibələrlə çıxış edib. Ümumən son illərdə ölkədə ölüm hökmü, edam cəzası mövzusu aktuallaşıb. 2011-ci ilin aprelində deputat İqbal Ağazadə məsələni Milli Məclisdə qaldırmış, amma parlament bu təşəbbüsü dəstəkləməmişdi. Bununla yanaşı, son illərdə ölkədə artan ağır cinayətlərin fonunda bir sıra hüquqşünaslar, ictimaiyyət nümayəndələri ölüm cəzasının bərpası təklifi ilə çıxış edib. Bir çoxları isə hesab edir ki, insanların törətdiyi cinayətə görə həyatdan məhrum edilməsi humanizm prinsipinə ziddir, insanlar islah olunmalı, cinayətdən çəkindirilməlidir. Bir çox Avropa ölkələrində məhz bu qaydaya riayət olunur. Ancaq bunun əksini düşünənlər də var. Onlar hesab edir ki, islah olunmayan, ağır cinayətlər törədən insanların edam olunması zəruri və məntiqidir.

"Yeni Müsavat" isə xatırladır ki, 70-dən çox ölkədə edam cəzası hələ də qalır. Ölüm hökmü dünyada ən çox Çin, İran, Pakistan, ABŞ, Səudiyyə Ərəbistanı, İraq və Vyetnamda icra olunur. Türkiyədə edam cəzası 2002-ci ildə qismən (ağır cinayətlər istisna olmaqla), 2006-cı ildə tam ləğv olunub. 1920-1984-cü illərdə Türkiyə Böyük Millət Məclisi 712 edam qərarını dəstəkləyib.

1991-ci ildə İnsan Hüquqlarının müdafiəsi haqqında Avropa Konvensiyasını təsdiq edən 6 saylı protokolda ölüm cəzasının ləğv edildiyi bəyan olunur. Yalnız 3 hal istisna olmaqla ölüm cəzasının tətbiqi qadağan olunur: **1)** Qanunsuz zorakılıqdan müdafiə, yəni zəruri özünümüdafiə vəziyyətində; **2)** Məhkum saxlanılarkən və ya həbs yerindən qaçmasının qarşısı alınarkən; **3)** Qiyam və ya kütləvi iğtişaş zamanı. Dövlətə qarşı qiyam və kütləvi iğtişaşın qarşısını alanda ölüm hadisəsinə yol verilə bilər.

Müasir dünya praktikasında xüsusi ağır cinayət törədən qatillər, manyaklar edam edilir. Bəzi ölkələrdə narkotik tacirləri, təcavüzkarlar, Çinin bəzi əyalətlərində isə hətta oğrular da edam olunur. İranda isə narkotik tacirləri, narkotikin yayılmasında iştirak edənlər barədə ölüm hökmü çıxarılır.

Bir daha yada salırıq ki, 1998-ci il fevralın 10-da Azərbaycanda ölüm cəzası ləğv olunub. Azərbaycan Avropa Şurasına üzv olmadan öncə ölüm hökmünü ləğv edərək, barələrində belə hökm çıxarılmış insanların cəzasını ömürlük həbs cəzası ilə əvəzlədi. ABŞ-da və Avropa Şurasının üzvü olan bir sıra dövlətlərdə hələ də ölüm cəzası qüvvədə qalır.

Cinayət Məcəlləsinin 57-ci maddəsinə görə, ömürlük azadlıqdan məhrumetmə cəzası yalnız sülh və insanlıq əleyhinə, müharibə cinayətləri ilə əlaqədar, şəxsiyyət, ictimai təhlükəsizlik və ictimai qayda və dövlət hakimiyyəti əleyhinə törədilmiş xüsusilə ağır cinayətlərə görə müəyyən edilir.

Məlum qərara görə, cinayət edənədək on səkkiz yaşına çatmayan şəxslərə və qadınlara ömürlük azadlıqdan məhrumetmə cəzası təyin edilmir. Ömürlük azadlıqdan məhrumetmə cəzası əfv qaydasında on beş ildən çox, lakin iyirmi ildən çox olmayan müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilə bilər. Ömürlük azadlıqdan məhrumetmə cəzası bütün cəza müddətində həbsxanada saxlanılmaqla təyin olunur. Ömürlük azadlıqdan məhrumetmə cəzası təyin edilə bilən şəxs barəsində cinayət məsuliyyətinə cəlbetmə müddətinin tətbiq edilməsi məsələsini məhkəmə həll edir. Bu barədə qərar qəbul edən hakimlərdən biri xüsusi rəydə qalarsa, şəxsə ömürlük azadlıqdan məhrumetmə cəzası verilə bilməz.

Azərbaycanda bu cəzaya məhkum olunmuşlar Qobustan həbsxanasında cəza çəkir.

**Hüquqşünas Müzəffər Baxış bildirdi ki, baş vermiş son cinayət hadisəsinə görə çox təəssüflənir. Müsahibimizin sözlərinə görə, haqqında danışdığımız son hadisə xüsusən ağır cinayətlər kateqoriyasına aid cinayətdir:** "Bir ailənin 7 üzvü qətlə yetirilib. Mənim üçün də çox ağırdır. Amma hesab etmirəm ki, ölüm cəzası olsaydı, vəziyyət fərqli olardı. Özü də onun adı ölüm hökmü deyil. Bu cəzanın adı ölüm cəzasıdır. O ifadəni ölüm hökmü kimi işlətməyin özü qüsurludur. Ölüm cəzasının Azərbaycanda bərpasına heç bir ehtiyac yoxdur. Həmin əməllərə görə ölüm hökmü olsaydı da, o cinayət törədiləcəkdi. Çünki cinayət sosial hadisədir. Bu və ya digər cəzaları sərtləşdirməklə o cinayətin qarşısını almaq qeyri-mümkündür. Sadəcə, xüsusilə ağır cinayətin baş vermə şəraitini aydınlaşdırmaq lazımdır ki, həmin şəxsin özünün psixi vəziyyəti hansı səviyyədədir, özünü xarakterizə edən hallar nədən ibarətdir".

**M.Baxış bildirdi ki, hətta sovet dövründə də dövlət əmlakının xüsusi və külli miqdarda mənimsənilməsinə görə (10 min manatdan artıq) Cinayət Məcəlləsində 88-1-ci maddədə ölüm cəzası nəzərdə tutulmuşdu. Hüquqşünasın dediyinə görə, sözügedən cəzanın nəzərdə tutulmasına baxmayaraq, həmin vaxt xüsusilə və külli miqdarda dövlət əmlakının oğurlanmasının qarşısını almaq qeyri-mümkün idi:** "Hər saniyə, hər dəqiqə o oğurluqlar baş verirdi. Sadəcə buna qarşı olaraq baş vermiş cinayətlərin baş verməsinə şərait yaradan halların aradan qaldırılması üçün müəyyən tədbirlər görülməlidir. Polis orqanları belə münaqişəli ailələrdə belə xüsusilə ağır cinayətlərin qarşısını almaq üçün xüsusi tədbirlər görməli idi. Necə olur ki, o adam qanunsuz qumbara gəzdirirdi və ya əldə etmişdi? Amma polis orqanları bu qumbaranın onda qanunsuz saxlanılması faktını aşkara çıxara bilməmişdilər. Bu detalların araşdırılması lazım idi".

❑ **Sevinc TELMANQIZI**

# DİN qanunsuz silah saxlayanlara xəbərdarlıq edir

## Ehsan Zahidov: "Bu cür silahların yığılması ilə bağlı tədbirlər davam etdirilir"

**Oktyabrın 1-i, səhər saat 4:00 radələrində Goranboyda baş verən dəhşətli qətliamın təfərrüatları məlum olub. Rayonun Səfikürd kəndində yerli sakin Rafiq Hüseynov əl qumbarası və odlu silahla qayınatasının evinə hücum edərək, 5-i qadın olmaqla, 7 nəfəri öldürüb, 2 nəfəri isə yaralayıb. Bu tükürpədici cinayət ailədaxili münaqişə zəminində baş verib, öldürülənlər arasında həyat yoldaşı Südabə Hüseynova da var.**



Bu son günlər Azərbaycanda odlu silahla törədilən qətllərdən ən dəhşətlisidir. Daha öncə də odlu silahdan, xüsusilə də ov silahlarından atılan atəş nəticəsində ölümlə nəticələnən cinayətlər baş vermişdi.

Bu hadisələrin təfərrüatları, xüsusilə də qisas məqsədilə əl qumbarasında istifadə edilməsi cəmiyyətdə qorxunc ehtimalların yaranmasına səbəb olur. Deməli, ölkədə ayrı-ayrı evlərdə əl qumbarasına qədər müxtəlif növlərdə odlu silah saxlanılır və hər an hər kəsi bu təhlükə gözləyir.

**Qanunsuz olaraq odlu silahların saxlanılmasına münasibət bildirən Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov bildirdi ki, ölkədə saxlanılan qanunsuz silahların müsadirə edilməsi istiqamətində tədbirlər davamlı şəkildə həyata keçirilir:** "Təkcə baş vermiş bu hadisədən sonra yox, ümumiyyətlə, daxili işlər orqanları, hüquq-mühafizə orqanları cinayətkarlıqla mübarizədə qanunsuz silah-sursatların dövriyyəsinə, saxlanılmasına qarşı mübarizə aparır, vaxtaşırı evlərdən qanunsuz silahlar yığılır. Bu sahəyə çox böyük diqqət ayrılıb. Aydın məsələdir ki, əgər haradasa bir qanunsuz silah saxlanılırsa, bu silah nə zamansa cinayət məqsədilə istifadə oluna bilər, çox ağır nəticələrə səbəb ola bilər.

Ona görə də polis əməkdaşları gündəlik fəaliyyətlərində bu sahəni nəzarətdə saxlayır, evlərdə olan silah-sursatın yığılması üçün həm profilaktik tədbirlər aparırlar, həm də əməliyyat-axtarış tədbirləri həyata keçirirlər. Nəticədə, külli miqdarda qanunsuz saxlanılan odlu silah yığılıb və bu gün də tədbirlər davam edir. Həmçinin insanlarla söhbət aparılır ki, onlar könüllü olaraq evlərində olan silah-sursatları gətirib polisə təhvil versinlər. Bu halda onlar məsuliyyətdən azad olunurlar. Könüllü təhvil verilməyəndə polis tərəfindən əməliyyat-axtarış tədbirləri həyata keçirilir, qanunsuz silahlar müsadirə olunur və onu saxlayan şəxs cinayət məsuliyyətinə cəlb edilir".

**Ov silahlarının saxlanılmasına məhdudiyyətlərin tətbiq olunacağına gəlincə, E. Zahidov bildirdi ki, əgər bu silahlar qanuni şəkildə qeydiyyata götürülübsə, bu, qanuni bir haldır:** "Qanuni qeydiyyatı olan ov silahları insanların şəxsi mülkiyyətinə aiddir. Ancaq heç bir sənədi olmayan ov silahlarının yığılması istiqamətində tədbirlər davam etdirilir".

❑ **Nərgiz LİFTİYEVA**

# YENİ MÜSAVAT

Son səhifə

N 246 (5955) 3 oktyabr 2014




## Sevdiyiniz insanın yalanını tutmağın yolları budur

İngilis psixoloqlar sevgilisinə (həyat yoldaşına) yalan danışan adamların psixologiyası ilə bağlı maraqlı araşdırma aparıb. Alimlərin fikrincə, sevdiyiniz adamın yalan danışdığını düşünürsünüzsə, heç vaxt itirmədən ona bu sualları verin: niyə elədin? Əgər sevdiyiniz bu suala hirslənib, həddən artıq gərgin reaksiya verəcəksə, bu, onun məsum olduğunu sübut edir. Yox, əgər sualınıza cavab olaraq sizi nə qədər çox sevdiyini, sizə dəyər verdiyini deyirsə, bu, artıq aldatmanın sübutudur. Bundan başqa, əgər sevgiliniz sizinlə bir yerdə ikən gülümsündüyü halda, bədən dili başqa şeylər deyirsə, bu, onun yalan söylədiyinin sübutudur. Bundan başqa, yalan danışan adamlar yalanlarını gizlətmək üçün çox cəhd göstərməyə məcburdurlar. Buna görə də narahat görünən adamların yalan söyləmə ehtimalı özünü rahat aparan adamınkından daha yüksəkdir. "American Society for Information and Technology" jurnalında yer alan məqalədə o da göstərilib ki, yalan danışdığından şübhələndiyin adamla telefon və ya SMS vasitəsilə yox, üz-üzə ünsiyyət qurmaq daha məsləhətdir.

## Firmaya işçi yerinə robot götürür



Türkiyənin Zilə bölgəsində məktəb partası istehsal edən və xaricə satan firma işçi tapmadığı üçün qaynaq işlərini görməsi üçün robot almağı planlaşdırır. Firmanın rəhbəri Mehmet Kartarı deyib ki, ötən ay Nigeriyadan aldıqları sifarişləri yerinə yetiriblər. Bu ay isə Azərbaycana məktəb partası göndərilib. Amma firma qaynaq işləri üçün fəhlə tapa bilmir. Xaricdən 10 min parta sifarişi gəldiyi halda 18 nəfərlə bunun öhdəsindən gələ bilməyən firma xaricdən bu işi görən robotlar alacaq. Amma bu robotların bir dənəsinin neçəyə başa gəldiyi bilinmir.

## iPhone almaq üçün özünü satışa çıxardı




Daim yeni modeli çıxan iPhone və onu almaq istəyən insanların etdiyi çılğınlıqları dünya təəccüb içində izləyir. Çində iPhone almaq istəyən bir cütlük altı uşağından üçünü satışa çıxarıb. Çinli bir gənc bu telefona sahib ola bilmək üçün 2011-ci ildə böyrəyini satıb. Böyrəyi qarşılığında gözlədiyindən daha çox pul alınca isə bu pul əlavə bir iPad da aldı. Songjiang Universitetində oxuyan bir çinli gənc iPhone ala bilmək üçün sevgilisini satışa çıxarıb. Son zamanlar bəzi internet saytlarında iPhone 6 qarşılığında özünü satışa çıxaran qadınlar da diqqət çəkir. Çində gənc bir qadın bakirəliyini yeni bir iPhone 4 qarşılığında satışa çıxarıb. Bundan başqa, adı açıqlanmayan bir iş adamı növbəyə dayanıb iPhone alması üçün ABŞ-dakı evsizləri pul qarşılığında növbəyə düzdürüb.

## Kraliçanın alt paltarını satışa çıxardılar



Britaniyanın "Westernhanger Auctioneers" hərracında İngiltərə kraliçası Viktoriyaya məxsus olmuş alt paltarı satışa çıxarılıb. Milli.az-ın Rusiya mətbuatına istinadən məlumatına görə, tarixi əşyanın ilkin qiyməti 2 min funt-sterlinqdir.

Oktyabrın 12-də kraliça Viktoriyanın şəxsi əşyalarının, o cümlədən alt paltarının hərracı keçiriləcək. Lotlar arasında yaşı 100 ildən çox olan ipək şalvar və uzunboğaz çəkmə də var.

Kübar xanıma məxsus olan alt paltarının ölçüləri heyrətləndirir. Tarixçilər deyirlər ki, kraliça Viktoriya kök qadın olub. Onun üçün tikilən köynəyin büst hissəsi 167 sm, çanaq hissəsi isə 132 sm olub. İngilis kraliçalarının bu cür əşyaları tarixi dəyər sayılır. Ekspertlər deyirlər ki, XIX əsrə məxsus həmin alt paltarını vaxtilə kraliça öz qulluqçusuna verib. Paltar indi də əla vəziyyətdədir, çünki 75 il sandıqda saxlanılıb.



## Arxangelskdə insan dişli balıq

Rusiyanın Arxangelsk vilayətində insan dişinə sahib olan bir balıq yaxalanıb. Rus balıqçısı Aleks Korobov (50) tərəfindən yaxalanan insan dişli balıq Rusiya Balıqçılıq və Dəniz Elmləri İnstitutu tərəfindən də araşdırılmağa başlandı. Balığı cənubi Dvina çayında tutan balıqçı Aleks onu ilk dəfə görəndə təəccübləndiyini xatırlayır. İnsan kimi dişləri olan balığı dostlarına göstərən Aleks öncə şəkilləri çəkib. Balıqçı tutduğu balıqla öyünməklə kifayətlənməyib. Bununla yanaşı, dərhal balığı araşdırılması üçün Rusiya Balıqçılıq və Dəniz Elmləri İnstitutuna aparıb. Mütəxəssislər isə bildiriblər ki, bu balıq pirana ailəsindəndir. Amma kinolarda gördüyümüz kimi ət yox, ot yeyən cinsdən. Mütəxəssislər həmçinin bu balığın böyük ehtimalla çaya atılmış tropikal bir nümunə olduğunu da bildiriblər. Lenta.ru saytının yazdığına görə, Aleksin tutduğu balıq Rusiyanın Arxangelsk vilayəti ilə Çernobıldan təxminən 1300 kilometr uzaqlıqda yerləşir.

## Qoroskop (3 oktyabr)




**QOÇ** - Sağlamlıqla bağlı müəyyən problemləriniz baş qaldırdığından özünüzü qoruyun. Orqanizminizi gümrahlaşdırmaq üçün tədbirləri həyata keçirin. Saat 14-dən sonra uzaq yola çıxmaq olar.

**BUĞA** - Sağlamlığınızla bağlı çətinliyinizi dəf edə bilsəniz, qarşıya qoyduğunuz planları reallaşdıra biləcəksiniz. Hətta nahardan sonra varlanma ehtimalınız da var. Uzaq yola çıxmayın.

**ƏKİZLƏR** - Vaxtınızın əsas hissəsini sevgi amilinə həsr edin. İkili görüşlər, əyləncəli gəzintilər sizə fərəh gətirəcək. Saat 15-18 arası maliyyə problemlərinizin həlli üçün uğurlu vaxtdır.

**XƏRÇƏNG** - Ümumi vəziyyətiniz gərgin olduğundan bütün vacib işləri təxirə salın. Yaxşı olar ki, uzunmüddətli planlarınızı bir daha konkretləşdirəsiniz. Təzə xəbərlər də mümkündür.

**ŞİR** - Saat 16-ya qədər ümumi ovqatınızda gərginlik müşahidə olunduğundan əsas gücünüzü istirahətə yönəltməlisiniz. Bu gün sizə soyuq və duzlu qidalar qəbul etmək məsləhət deyil.

**QIZ** - Yeni görüş və danışıqlar üçün uğurlu təqvimdir. Özünüzü təmkinli və dözümlü aparın ki, sövdələşmələrin nəticəsi xeyrinizə olsun. Özünüzü yerli-yersiz tərifləməkdənsə, susun.

**TƏRƏZİ** - Bu gözəl təqvimi uğurlu keçirəcəksiniz. Səhər saat 11-dən etibarən bir neçə sevindirici prosesin iştirakçısına çevriləcəksiniz. Yeni işgüzar təkliflər alsanız, imtina etməyin.

**ƏQRƏB** - Maliyyə problemlərinə görə özünüzü üzməyin. Çünki ulduzların düzümü bu gün deyilən istiqamətdə sevinəcəyinizi bildirir. Həmkarlarınızla münasibətləri mümkün qədər qaydasına salın.

**OXATAN** - Bürclərin əksəriyyətində olduğu kimi bu gün sizin də səhhətinizdə narahatlıq gözlənilir. Qan təzyiqi ilə bağlı problemləriniz mümkündür. Çalışın ki, pəhriz saxlayasınız.

**OĞLAQ** - Səhhətinizlə bağlı bəzi xoşagəlməzlikləri nəzərə almasaq, günün əsas hissəsini rahat şəraitdə başa vuracaqsınız. Axşama yaxınsa gələcəyiniz üçün önəmli olan xəbər eşidəcəksiniz.

**SUTÖKƏN** - İşgüzar sövdələşmələrdə iştirak etmək üçün olduqca səmərəli gündür. Müzakirələr apardığınız həmsöhbətləriniz sizə xeyirli olan fikirlər söyləyəcək. Qərarlarınızda qətiyyətli olun.

**BALIQLAR** - Ailə üzvlərinizlə mübahisələriniz gözlənilir. Belə neqativ hallardan yayınmaq üçün davranışlarınızda nəzakətli olun. Nahardan sonra şəxsi büdcənizdə irəliləyişlər mümkündür.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Xəstənin dalağı ilə selfie çəkdirdi, işdən qovuldu



Rusiyanın Kazan şəhərində bir tibb bacısı əməliyyat otağında dalağı çıxarılan bir xəstənin dalağı ilə poza verib, selfie çəkdirib. Daha sonra bunu sosial şəbəkədə paylaşan Gülnaz Calalova adlı qadın bu hərəkəti ilə görənlərin hiddətinə səbəb olub. Məlum olub ki, tibb bacısı bir binanın üst mərtəbəsindən yıxılan 16 yaşlı bir qızın dalağı ilə şəkil çəkdirib. Şəkil internetdə yayılan kimi xəstəxana rəhbərliyi hadisəyə müdaxilə edib. Nəticədə isə hələ təcrübə keçən tibb bacısı iş yerindən və ümumiyyətlə bu peşədən uzaqlaşdırılıb.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.600